# COP29 Sədrliyinin Bakı konfransının yekunlarına dair bəyanatı




**Azərbaycanın COP29 Sədrliyi Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının yekunlarına dair bəyanat yayıb.**

Bəyanatda COP29 Sədrliyinin il ərzində inkişaf etməkdə olan Tərəf ölkələrin ehtiyaclarını və prioritetlərini nəzərə alaraq ədalətli və ambisiyalı yeni iqlim maliyyəsi məqsədini reallaşdırmağa çalışdığı vurğulanıb.

"Biz səhər erkən saatlarına qədər geniş və əhatəli məsləhətləşmələr apardıq. Biz bütün qruplara dünən səhər yaydığımız mətn paketi ilə bağlı münasibət bildirmək üçün şərait yaratdıq və onlara konstruktiv iştirakına görə minnətdarlığımızı bildiririk.

Məsləhətləşmələr zamanı səsləndirilən rəyləri və dünənki Qurultayda Tərəflərin fikirlərini nəzərə alaraq, bu gün yenilənmiş mətnləri dərc etmişik.

*(ardı 3-cü səhifədə)*




Xalqın qəzeti!

# Xalq qəzeti

№ 258 (30662) 23 noyabr 2024-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# COP29 marafonu uğurla finişə çatır

## Prezident İlham Əliyev İsrailin nəqliyyat və yol təhlükəsizliyi nazirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 22-də İsrail Dövlətinin nəqliyyat və yol təhlükəsizliyi naziri Miri Reqevi qəbul edib.**

Miri Reqev İsrail Dövlətinin Prezidenti İsxak Hersoqun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İsrail Dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Görüşdə Bakıda keçirilən COP29-un əhəmiyyəti vurğulandı, iqlim dəyişmələri ilə bağlı məsələlərin müzakirəsi baxımından bu tədbirin önəmli olduğu qeyd edildi.

Miri Reqev COP29-un yüksək səviyyədə təşkilinə görə təbriklərini çatdırdı.

Söhbət zamanı ikitərəfli münasibətlərə dair fikir mübadiləsi aparıldı.

# Vokye təfəkkürü və Fransa düşüncə tərzində rəzalət

## *Yaxud hay hara, sivilizasiya hara?*

**Fransa adına son dərəcə rüsvayçı və biabırçı durum yaranıb. Dünyada mütərəqqi dəyərlərin daşıyıcı, demokratiyanın beşiyi kimi ad çıxarmış ölkənin düşdüyü vəziyyət, sözün əsl mənasında, faciəvidir. Yazımız faciə mənzərəsinin yalnız bir təzahürü barədədir. Hərçənd, Prezident Emmanuel Makron administrasiyasının yarıtmaz fəaliyyəti nəticəsində indiyədək belə təzahürləri çox görmüşük, böyük ehtimalla onun səlahiyyət müddətinin sonunadək yenə görəcəyik. Özü də bəlkə daha qatı formada.**



Fransa parlamentinin deputatı Loran Vokye "Overn-Rona-Alp" – Ermənistan-Syunik" tədbirləri çərçivəsində Ermənistanda, daha doğrusu, ölkənin Sünik vilayətində olub. İlk növbədə, deyək ki, son vaxtlar Sünikə (Zəngəzura), belə demək mümkünsə, fransız axınları güclənməkdədir. Bundan məqsəd bölgənin "Azərbaycanın təcavüzündən" qorunmasıdır. Hər halda, ortada belə bir görüntü var. Bu ritorikanın tirajlanması isə şübhə yaradır. Şübhə nə ilə bağlıdır, bildirəcəyik.

Nəzərə alaq ki, Sünik Azərbaycanın Zəngəzur dəhlizi ideyasının gerçəkləşmə nöqtəsidir. O dəhlizin ki, Naxçıvana yolu təmin edəcək. Naxçıvana yol Qərbə Türkiyə vasitəsilə açılım deməkdir. Ermənistan "Dünyanın kəsişməsi" ideyasını ortaya atmaqla, sözügedən açılımın önündə, bir növ, "blokpost" yaratmağı düşünür. Bu yanaşma Qərbin sifarişidir.

*(ardı 3-cü səhifədə)*

# Üçüncü dünya müharibəsinə doğru?



**Ukraynanın Böyük Britaniyadakı səfiri, ölkənin Silahlı Qüvvələrinin keçmiş baş komandanı Valeri Zalujnı Üçüncü dünya müharibəsinin başlandığını bildirib. Cənab Zalujnı fikrini "Rusiyanın avtokratik müttəfiqlərinin müharibəyə bilavasitə qoşulması" ilə izah edib.**

"Çünki 2024-cü ildə Ukrayna ilə üz-üzə gələn təkcə Rusiya deyil. Şimali Koreyadan olan əsgərlər Ukraynanın qarşısındadırlar. Gəlin, səmimi olaq. Artıq Ukraynada İran "Şəhidləri" (pilotsuz uçuş aparatları nəzərdə tutulur – red.) heç bir tərəddüd etmədən, tamamilə açıq şəkildə dinc insanları qətlə yetirirlər", – deyən səfir Şimali Koreya istehsalı olan raketlərin də artıq Ukraynada uçuşlar gerçəkləşdirdiyini və bunun açıq şəkildə bəyan edildiyini, həmçinin Ukraynada Çin mərmilərinin partladıldığını, Rusiya raketlərində Çin hissələrinin istifadə olunduğunu vurğulayıb.

*(ardı 5-ci səhifədə)*




# COP29 danışıqlar qruplarının qurultayı

**Bakı iqlim sammitinin "Nizami" konfrans zalında BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) danışıqlar qrupları iştirakçılarının qurultayı keçirilib.**

COP29-un Prezidenti Muxtar Babayev açılış nitqi ilə çıxış edərək nazirlərin uzun sürən məsləhətləşmələrinin və müvafiq qrupların işinin nəticəsi olan yekun sənəd layihəsinin hazırlandığını açıqlayıb. O, konfransı noyabrın 22-də saat 18:00-a qədər başa çatdırmaq məqsədinə nail olmaq üçün qurultay iştirakçılarını layihəni dəstəkləməyə çağırıb.

COP29-un baş danışıqçısı Yalçın Rəfiyev sənəd layihəsini qurultay iştirakçılarına təqdim edib. Mətnin 25 səhifədən 10 səhifəyə endirildiyini və sözügedən sənədin bu işdə iştirak edən hər kəsin səyinin məhsulu olduğunu vurğulayan baş danışıqçı, həmçinin tərəfləri xüsusilə təsirin yumşaldılması yolunda (iqlim dəyişikliyinin mənfi nəticələrinin azaldılması üzrə tədbirlər) maksimalist yanaşmadan imtina etməyə çağırıb.

*(ardı 9-cu səhifədə)*

# Paşinyanın "şirnikləndirici" təklifi

## *O, sülhə gəlmədən Azərbaycan vətəndaşlarının Ermənistana vizasız gediş-gəlişindən dəm vurur*

**Erməni mediasında Ermənistanın Azərbaycana Zəngəzur dəhlizi hissəsində sadələşdirilmiş gömrük və sərhəd nəzarəti rejimini təklif etməsi və bunun bəzi təfərrüatları barədə məlumatlar dərc olunub. "Hraparak" qəzetinin məlumatına görə, baş nazir Nikol Paşinyanın irəli sürdüyü bu təklif Azərbaycan və Türkiyə vətəndaşlarının Ermənistan ərazisinə 30 gün ərzində vizasız giriş-çıxışını nəzərdə tutur.**



Təklif maraqla yanaşı, sual da doğurur: Azərbaycan vətəndaşlarının Ermənistana vizasız gedişi nə vaxt və necə reallaşa bilər? Hazırkı reallıqda, bu, demək olar ki, mümkün deyil. Çünki hələlik nə iki ölkə, nə də iki xalq arasında qarşılıqlı anlaşma və etimad mühiti yaranmayıb. Heç sülh müqaviləsi də imzalanmayıb.

Qeyd edək ki, Azərbaycan qanunvericiliyinə əsasən, viza – əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin dövlət sərhədinin buraxılış məntəqələrindən müəyyən olunmuş qaydada keçməklə Azərbaycan Respublikasına gəlməsinə və Azərbaycan Respublikasından getməsinə, vizada göstərilmiş müddət ərzində ölkədə müvəqqəti olmasına hüquq verən rəsmi sənəddir. Azərbaycan vətəndaşlarının vizasız səyahət edə biləcəyi ölkələr də var. Bu ölkələr və Azərbaycan Respublikası arasında qarşılıqlılıq prinsipi əsasında vətəndaşların ikitərəfli qaydada vizasız gediş-gəlişi rejimi tətbiq edilib.

*(ardı 3-cü səhifədə)*



COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024

# Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı 12-ci Baş Assambleyasının iştirakçılarına

**Hörmətli tədbir iştirakçıları!**

Sizi - Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı (ICAPP) 12-ci Baş Assambleyasının iştirakçılarını səmimi-qəlbdən salamlayır, bu mühüm tədbirə ev sahibliyi edən Kamboca Xalq Partiyasına təşəkkürümü bildirirəm.

Asiya və Okeaniyada 350-dən çox siyasi partiyanı əhatə edən ICAPP fəaliyyət göstərdiyi 24 il ərzində özünü yüksəksəviyyəli hökumət nümayəndələrinin, tanınmış ictimai-siyasi xadimlərin və təcrübəli ekspertlərin iştirakı ilə bəşəri əhəmiyyətli, qlobal xarakterli aktual məsələlərin müzakirə olunduğu, fikir və təcrübə mübadiləsinin aparıldığı nüfuzlu və perspektivli əməkdaşlıq platforması kimi təsdiqləmişdir. ICAPP müxtəlif siyasi partiyaları bir araya gətirməklə Asiya ölkələri və xalqları arasında qarşılıqlı anlaşma və etimad mühitinin yaradılmasına böyük töhfə verməkdədir.

ICAPP-ın 12-ci Baş Assambleyası bəşəriyyəti düşündürən olduqca önəmli bir məsələyə həsr olunmuşdur. "Sülh və barışıq axtarışı" mövzusu hazırkı reallıqlar, xüsusən də dünyada baş verən hərbi-siyasi kataklizmlər, silahlı münaqişələr və kəskin qarşıdurmalar fonunda xalqlar və dövlətlər qarşısında duran ən vacib məsələlərdən və strateji prioritetlərdən biridir.

Azərbaycan 2020-ci ildə 44 günlük Vətən müharibəsi və 2023-cü ildə birgünlük antiterror əməliyyatı nəticəsində öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməklə Cənubi Qafqazda dayanıqlı sülh, davamlı sabitlik və etibarlı təhlükəsizlik üçün əlverişli şərait, eyni zamanda, daha geniş coğrafiyada yeni əməkdaşlıq əlaqələrinin qurulması üçün mühüm imkanlar yaratmışdır. Konstruktiv sülh gündəliyini təşviq edən Azərbaycan bu istiqamətdə əhəmiyyətli təklif və təşəbbüslər irəli sürür, daim prinsipial mövqedən çıxış edərək milli maraqlara uyğun və beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan səmərəli fəaliyyət həyata keçirir.

Məlumdur ki, silahlı münaqişələr insan itkisinə, sosial infrastrukturun dağılmasına, bir çox hallarda iqtisadi tənəzzülə və ciddi təhlükəsizlik problemlərinə səbəb olmaqla yanaşı, ətraf mühitə də onilliklər boyu davam edən böyük zərər yetirir.

Bu gün ICAPP tədbirinin keçirildiyi bir vaxtda Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) uğurla ev sahibliyi edir. Dünyanın bir çox ölkəsindən yüksəksəviyyəli dövlət və hökumət rəsmilərinin, vətəndaş cəmiyyəti və media nümayəndələrinin, nüfuzlu ekspertlərin iştirak etdiyi COP29 çərçivəsində aparılan müzakirələrdə ifadə olunan ümumi fikir və yekdil qənaətlərdən biri də ekosistemin mühafizəsinin əsas yollarından biri kimi müharibələrin qarşısının alınması və silahlı münaqişələrin ətraf mühitə zərər vuran nəticələrinin tezliklə aradan qaldırılması üçün sülh və barışıq tədbirlərinin gücləndirilməsindən ibarətdir.

Əminəm ki, 12-ci Baş Assambleya çərçivəsində keçiriləcək müzakirələr, eləcə də sonda qəbul ediləcək Pnompen Bəyannaməsi ortaq hədəflərimizi reallaşdırmağa mühüm töhfə verəcək və genişmiqyaslı səmərəli əməkdaşlığa yol açacaqdır.

Sizə ən xoş arzularımı çatdırır və 12-ci Baş Assambleyanın işinə uğurlar diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 noyabr 2024-cü il**

# Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 4 iyun tarixli 276 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 4 iyun tarixli 276 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 491 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 7.7-1-ci və 10.4-3-cü bəndlər əlavə edilsin:

"7.7-1. Yüksəkixtisaslı miqrantlar;";

"10.4-3. əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin yüksəkixtisaslı miqrant hesab olunmasının qiymətləndirilməsi ilə bağlı müraciətlərinə baxılmasına dair müvafiq məlumatların toplanılması, rəylərin alınması, nəticənin təqdim olunması və bu barədə məlumatların Sistemə daxil edilməsi;";

1.2. 11.2.0-cı yarımbəndə "icazə" sözündən sonra ", şəxslərin yüksəkixtisaslı miqrant hesab olunmasının qiymətləndirilməsi" sözləri əlavə edilsin;

1.3. aşağıdakı məzmunda 11.4.5-ci, 11.5.8-ci və 11.6.4-cü yarımbəndlər əlavə edilsin:

"11.4.5. əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin yüksəkixtisaslı miqrant hesab olunmasının qiymətləndirilməsi ilə bağlı verilmiş rəylər və əldə edilmiş məlumatlar;";

"11.5.8. əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin yüksəkixtisaslı miqrant hesab olunmasının qiymətləndirilməsi ilə bağlı verilmiş rəylər və əldə edilmiş məlumatlar;";

"11.6.4. əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin yüksəkixtisaslı miqrant hesab olunmasının qiymətləndirilməsi ilə bağlı verilmiş rəylər və əldə edilmiş məlumatlar;";

1.4. 11.9-cu bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 11.10-cu bənd əlavə edilsin:

"11.10. əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin yüksəkixtisaslı miqrant hesab olunmasının qiymətləndirilməsində iştirak edən digər dövlət orqanları (qurumları) tərəfindən:

11.10.1. əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin yüksəkixtisaslı miqrant hesab olunmasının qiymətləndirilməsi ilə bağlı verilmiş rəylər və əldə edilmiş məlumatlar.".

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti bu Fərmandan irəli gələn məsələləri həll etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 noyabr 2024-cü il**

# F.T.Əhmədova III dərəcəli dövlət ədliyyə müşaviri ali xüsusi rütbəsinin verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ədliyyə naziri Fərid Turab oğlu Əhmədova III dərəcəli dövlət ədliyyə müşaviri ali xüsusi rütbəsi verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 noyabr 2024-cü il**

# Milli Məclisin Sədri MDB PA-nın 57-ci iclasında



**Milli Məclisin Sədri Sahibə Qafarova noyabrın 22-də Sankt-Peterburq şəhərində MDB-yə üzv dövlətlərin Parlamentlərarası Assambleyasının 57-ci plenar iclasında çıxış edib.**

Sahibə Qafarova xatırladıb ki, 196 ölkədən 70 mindən çox qonağın, o cümlədən 80-dən çox prezident, vitse-prezident və digər şəxslərin iştirakı ilə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının Bakıda keçirilən 29-cu sessiyası başa çatmaq üzrədir. Yekdilliklə ev sahibi ölkə kimi seçilən Azərbaycan iqlim dəyişikliyi ilə mübarizədə ümumi yanaşmalara nail olmaq üçün bütün səylərini göstərib. COP29 çərçivəsində əldə olunan uğurlar beynəlxalq ictimaiyyətin bu məsələdə həmrəy və ardıcıl olacağına ümid yaradır.

Parlamentlərin də bu prosesə öz töhfələrini verdiyini söyləyən Sahibə Qafarova COP29 çərçivəsində Parlamentlərarası İttifaqın və Milli Məclisin birgə təşkilatçılığı ilə parlamentlərin və digər beynəlxalq strukturların 90-dan çox nümayəndə heyətinin iştirakı ilə Parlament İclasının keçirildiyini xatırladıb.

MDB Parlamentlərarası Assambleyasının öz fəaliyyətinin beynəlxalq istiqamətini fəal şəkildə inkişaf etdirdiyini söyləyən Milli Məclisin Sədri əlavə edib ki, bu fəaliyyətin praktiki həyata keçirilməsi formalarından biri də 2024-cü ilin iyulunda Sankt-Peterburq şəhərində BRICS ölkələrinin Parlament Forumunun plenar sessiyasının keçirilməsi olub.

**XQ**

# Ərdoğan COP29-un qlobal önəmindən danışıb



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan İstanbulda keçirilən I Enerji Forumunun açılış mərasimində Azərbaycan paytaxtında keçirilən COP29-un dünyaya dərin narahatlıqla anlatdığı qlobal ekoloji təhlükəyə toxunaraq bildirib:**

"Bakıda keçirilən COP29 Liderlər Zirvəsində ətraf mühit və iqlim dəyişiklikləri məsələlərinin qorxuducu həddə çatdığını bir daha yaxından gördük. Ötən əsrdə bir damla nefti, axan insan qanından daha dəyərli sayan materialist zehniyyət dünyamızın çox əzab çəkməsinə səbəb oldu.

Afrikadan Asiya, Latın Amerikasına qədər getdiyimiz hər bölgədə gözünü pul, qızıl və gümüş bürümüş anlayışın arxasında qoyduğu dərin ağrılara rast gəlirik. Müstəmləkəçilər yalnız insanları qətlə yetirmədilər. Onlar milyonlarla məsum insanla bərabər, böyük bir ətraf mühit qətliamı da törətdilər. "Yeddi bacı" adı ilə tanınan neft şirkətlərinin I Dünya müharibəsi başda olmaqla, son əsrdə bəşəriyyətin üzləşdiyi bir çox müharibə, çevriliş, münaqişə və qətliamda əlləri olduğu məlum bir həqiqətdir.

Diktatorlar, çevrilişçilər və zülmkarlar tərəfindən enerji mənbələri idarə edilərkən, insan həyatı, azadlıqlar və ədalət heç sayıldı. XXI əsrdə istismara və tamaha əsaslanan bu amansız sistemin davam etməsi mümkün deyil. İnsana və ətraf mühitə lazım olan dəyər verilmədən, dünyada sülh və əmin-amanlıq təmin oluna bilməz".

Enerji, nəqliyyat və rabitənin, xüsusilə birlikdə inkişafın lokomotivi olduğunu, kifayət qədər keyfiyyətli və təmiz enerjinin uyğun qiymətlərlə kəsintisiz təmin edilməsinin bütün ölkələr üçün kritik əhəmiyyət daşıdığını vurğulayan Ərdoğan daha sonra söyləyib: "Yaxın tarixdə bölgəmizdə baş verən böhranlar, enerji təchizatı təhlükəsizliyinin ölkə iqtisadiyyatları üçün nə qədər həyati əhəmiyyət kəsb etdiyini bir daha xatırlatmışdır. Rusiya–Ukrayna arasında mininci gününü geridə qoyan müharibə, xüsusilə enerji sahəsində xarici asılılığın risklərini göstərdi. Türkiyə müharibə edən hər iki tərəflə qurduğu balanslı əlaqələr sayəsində bu çətin dövrü ən rahat keçirən ölkələrdən biri oldu. Bunun əksinə, avropalı dostlarımız müharibənin yaratdığı enerji böhranının birbaşa hiss etdi və çox ciddi çətinliklərlə üzləşdilər".

Türkiyə Prezidenti əlavə edib ki, bu gün enerji təchizatında bir böhran yaşanmasa da, bu sahədə təhlükəsizliyin təminatına hər zaman hazır olmaq vacibdir. Türkiyə enerji siyasətini bu anlayışla, təbiətə zərər verməmək üzərində qurub.

**XQ**

# Hikmət Hacıyev: "Politico"nun məqaləsi dezinformasiyanın çirkin nümunəsidir

**Azərbaycan mövcud resursları və razılaşdırılmış müqavilələri əsasında tərəfdaşlarının enerji təhlükəsizliyinə töhfə verməyə davam edəcək.**



Bu barədə Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "X" səhifəsində "Politico"da dərc edilmiş "Avropanın Azərbaycan qazı qambiti Rusiya üçün yaxşı xəbərdir" başlıqlı yazısına münasibət bildirərkən qeyd edib. O, məqalənin dezinformasiya xarakterli olduğunu, Avropa jurnalistikasının, media standartlarının çökdüyünü qeyd edib.

"POLITICO Europe"ın "Avropanın Azərbaycan qaz qambiti Rusiya üçün yaxşı xəbərdir" başlıqlı məqalə dezinformasiyanın çirkin nümunəsindən başqa bir şey deyil. Bu, peşəkar faktların yoxlanılmasından məhrumdur və dedi-qodu və şayiələrə əsaslanır. Avropa jurnalistikasının və media standartlarının belə aşağı səviyyəyə düşməsi, yumşaq desək, utancvericidir. Avropa İttifaqı qlobal media dezinformasiyalarına qarşı xüsusi həssaslıq və narahatlıqla yanaşır. Bu, başadüşüləndir! Bəs Avropa mediası saxta xəbərlər və başqaları haqqında yalanlar yaymaqla məşğul olanda reaksiyalar necə olur?", – Hikmət Hacıyev bildirib.

Hikmət Hacıyev Azərbaycanın 2024-cü ildə Rusiyadan qaz idxal etmədiyini, qaz hasilatının isə beynəlxalq tərəfdaşları ilə birlikdə həyata keçirildiyini vurğulayıb.

"Bircə fakt bu yazını tamamilə təkzib edir: 2024-cü ildə Azərbaycan Rusiyadan qaz idxal etməyib. Azərbaycanın qaz hasilatı beynəlxalq tərəfdaşlarla əməkdaşlıq çərçivəsində həyata keçirilir. İstehsal və ixracın həcmi hamı üçün aydındır. Azərbaycan mövcud resursları və razılaşdırılmış müqavilələri əsasında tərəfdaşlarının enerji təhlükəsizliyinə töhfə verməyə davam edəcək. Biz "POLITICO Europe"ın üzr istəməsini və bu saxta məqaləni geri götürməsini tələb edirik".

**XQ**

# YAP Sədrinin müavini ICAPP-ın ali məclisində

**Noyabrın 22-də Kamboca Xalq Partiyasının (KXP) ev sahibliyi ilə bu ölkənin Pnompen şəhərində Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (ICAPP) 12-ci Baş Assambleyasının açılış mərasimi olub. "Sülh və barışıq axtarışı" mövzusunda keçirilən və 28 ölkədən 49 siyasi partiyanın qatıldığı 12-ci Baş Assambleyada Yeni Azərbaycan Partiyası Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov da iştirak edib.**




Əvvəlcə Kamboca Xalq Partiyasının Prezidenti, ICAPP-ın 12-ci Baş Assambleyasının fəxri prezidenti Hun Sen ilə nəzakət görüşü keçirilib.

Ev sahibinin xüsusi qonaqlarının təbrik çıxışlarından öncə YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycan Prezidenti İlham Əliyevin tədbir iştirakçılarına ünvanladığı müraciəti oxuyub.

Birinci plenar sessiyada çıxış edən Tahir Budaqov qeyd edib ki, plenar sessiya nəinki burada təmsil olunan üzv ölkələr, eləcə də bəşəriyyət üçün olduqca aktual və taleyüklü bir məsələyə həsr olunub. Qeyd edilib ki, yeni çağırışlarla qarşı-qarşıya olduğumuz belə bir mürəkkəb şəraitdə sülh və barışıq axtarışı mütləq zərurətə çevrilib.

T.Budaqov vurğulayıb ki, bu gün Azərbaycanda müxtəlif xalqların nümayəndələri sülh, əmin-amanlıq və mehribanlıq şəraitində yaşayırlar. Onun sözlərinə görə, tolerantlıq ənənəsini və multikultural dəyərləri qoruyub yaşadan Azərbaycan zəngin tarixi irsi əsasında sivilizasiyalar arasında dialoqun inkişafını təşviq edir.

Sülh və barışığın Cənubi Qafqazda yeni nizam və geosiyasi konfiqurasiyanın formalaşması baxımından olduqca əhəmiyyətli olduğunu bildirən Tahir Budaqov bunun həm bölgə xalqları və dövlətləri, həm də yeni reallıqlar fonunda tərəfdaşlıqda maraqlı olan ölkələr üçün tarixi şans və strateji fürsət olmaqla bərabər, rifah, inkişaf və parlaq perspektivlər vəd etdiyini diqqətə çatdırıb. Qeyd edib ki, sülh və barışıq üçün birgə müzakirələrə və dialoqa ehtiyac duyulduğu indiki şəraitdə siyasi partiyaların da üzərinə böyük məsuliyyət və önəmli vəzifələr düşür.

**XQ**

# COP29 Sədrliyinin Bakı konfransının yekunlarına dair bəyanatı

(əvvəli 1-ci səhifədə)

Bu mətnlər COP29 üçün balanslaşdırılmış və sadələşdirilmiş paket təşkil edir. COP29 Sədrliyi Tərəfləri bu mətni diqqətlə təhlil etməyə, qalan bir neçə variant üzərində konsensusa gəlməyə çağırır", - deyə bəyanatda qeyd olunub.

Həmçinin bildirilib ki, Tərəflərin göstəricilərinin ilk təzahürü olaraq Yeni Kollektiv Kəmiyyət Məqsədi ilə bağlı qərarda onların hamısına 2035-ci ilə qədər bütün dövlət və özəl mənbələrdən iqlimlə bağlı fəaliyyət üçün inkişaf etməkdə olan ölkələrə maliyyələşdirməni ildə ən azı 1,3 trilyon ABŞ dollarına çatdırmaq üçün birlikdə işləməyə dəvət yer alıb.

Bu qərar özündə, eyni zamanda, inkişaf etmiş ölkələrin inkişaf etməkdə olan ölkələrə iqlim fəaliyyəti üçün ildə 100 milyard ABŞ dolları məbləğində vəsaitin birgə səfərbər edilməsi məqsədinin 2035-ci ilədək 250 milyard ABŞ dollarına çatdırılması məqsədini ehtiva edir.

"Biz bir neçə həll olunmamış, lakin vacib məsələ ilə bağlı yekun düzəlişləri kollektiv şəkildə razılaşdırmaq üçün Tərəflərlə birgə işləməyə davam edəcəyik.

Biz mümkün daha yüksək ambisiyalı nəticəni əldə etmək üçün inkluziv və şəffaf şəkildə işləməyə davam edəcəyik", - deyə bəyanatda qeyd olunub.

# Vokye təfəkkürü və Fransa düşüncə tərzində rəzalət

(əvvəli 1-ci səhifədə)

Qərb çalışır ki, Ermənistan qlobal kommunikasiya habında başlıca fiqura çevrilsin və beləliklə, Rusiyanın Cənubi Qafqazdakı rolu minimallaşsın, yaxud tamamilə sıradan çıxsın. Naxçıvana yolun maneəsizliyi, yəni, "Azərbaycandan Azərbaycana yol" məntiqi üzərində dayanan rəsmi Bakı isə Ermənistanın buna razılıq verməyəcəyi təqdirdə, İran variantı ümidinə qalır.

Belə bir durum isə Qərbin maraqlarına uyğun deyil. Ona görə də hazırda Sünik üzərinə oyunlar qurulur. Düşünmək mümkündür ki, Qərb Ermənistan vasitəsilə Azərbaycana qarşı təxribatı mövcud istiqamətdə törətmək planlarını qurur. Haqqında söz açdığımız şübhə amilini də məhz bu cür əsaslandırmaq olar.

Fransa Sünikdə, sanki, mənəvi müdafiə səddi, təhlükəsizlik çətiri formalaşdırır, bölgəni diqqət mərkəzində saxlayır. Ölkə parlamentinin deputatı L.Vokyenin əraziyə səfəri də buna hesablanmış gedişlərdən biridir. Onun necə sərsəmləməsindən söz açacağıq. Hələlik isə deyək ki, fransız parlamentarinin iştirak etdiyi tədbirdə Sünikin tarixinin, guya, ən çətin mərhələsində olduğu və bu mərhələdə yeni dostlar qazandığı vurğulanıb. Sən demə, bu adlardan biri Vokye imiş. Görünür, Vokye ona ünvanlanmış xoş sözlərdən vəcdə gəlib. Onun, yəni bir fransızın diqqətə çatdıracağımız fikrini dilə gətirməsini başqa cür qiymətləndirə bilmirik. Hərçənd, Vokye kimi xəstələrin Fransada yetərincə çoxluğunu da vurğulamalıyıq.

Beləliklə, Sünikin qubernatoru Robert Qukasyanın Ermənistanın demokratik yol seçdiyi üçün problemlərlə üzləşdiyinə, ancaq bu problemləri aradan qaldırmaq üçün əzm göstərdiyinə dair ucuz populizmindən sonra söz alan fransız parlamentari bildirib ki, Ermənistan uğrunda mübarizə aparmaq XXI əsrin sivilizasiyası naminə mübarizə aparmaq deməkdir.

Volkye, həmçinin "bizim regionun dinamik inkişafı, eyni zamanda, burada yaşayan ermənilərin hesabınadır. Ermənistanın tərəfində dayanmaq üçün möhkəm olmaq lazımdır" deyə sərsəmləyib. İtdən soruşurlar ki, niyə hürürsən? Deyir: qorxuduram. "Bəs, onda nə üçün quyruğunu bulayırsan?" sualına isə belə cavab verir: "Çünki özüm də qorxuram."

Hazırda Fransanın Volkyesayağı baxışı buna bənzəyir. Onun kimi şəxslərin mövcudluğu ermənipərəstliyin Fransanın ictimai rəyində pataloji xəstəlik halını aldığını söyləməyə ciddi əsaslar verməkdədir. Əvvəldə barəsində söz açdığımız Fransa adına rüsvayçı durum da məhz budur. Təsəvvür



edin ki, Didronun, Volterin, Russonun və digər mütəfəkkirlərin vətəni olan Fransanın parlament üzvü XXI əsrdə Ermənistan və sivilizasiya sözlərini yanaşı işlədir. Deməli, durum nəinki rüsvayçıdır, eyni zamanda, rəzil və miskindir.

Bəli, volkyelərin varlığı və ölkələrinin ictimai rəyində, qanunvericilik orqanında təmsilçiliyi o deməkdir ki, Emmanuel Makron başda olmaqla, Fransa idarəçilik sisteminin işi-gücü ambisiyalar naminə bütün dəyərlərə tüpürməkdir. Həqiqətən, dəhşətli mənzərədir. Görəsən, XXI əsrə işğalçı ölkə kimi qədəm qoyan, Azərbaycan torpaqlarında olmazın vəhşiliklər və talanlar törədən, qəbiristanlıq soyqırımını reallaşdıran ölkə nə vaxtdan sivilizasiya təmsilçisi olub? Sual ritorikdir. Hələ biz Xocalı dəhşətindən danışmırıq. Sonda ünvanlayacağımız sual da ritorikdir: Ermənistanın tərəfində dayanmaq üçün möhkəm olmaq lazımdırsa, Fransa volkyelərin təfəkkür tərzi ilə nə dərəcədə möhkəmdir?

***Ə.RÜSTƏMOV***
***XQ***

# Paşinyanın "şirnikləndirici" təklifi

(əvvəli 1-ci səhifədə)

Viza ilə, yaxud vizasız gediş-gəliş rejiminin tətbiq edildiyi ölkələr ilə Azərbaycanı dostluq, iqtisadi, ticarət, mədəni və sair əlaqələr bağlayır. Amma Ermənistanı bu sıraya aid etmək olarmı? Şübhəsiz ki, yox! İrəvan hansı qərarı müstəqil vermək iqtidarında olduğunu ayırd edə bilmir. Doğrudur, hökumətyönlü erməni mediası tez-tez "sülhə doğru addımların atılması, razılaşmanın əldə olunması ilə bağlı" nikbin xəbərlər dərc edir. Amma, əfsuslar olsun ki, bu xəbərlər təsdiqini tapmır.

Növbəti xəbəri Paşinyanın Bakıya "şirnikləndirici" təklifi hesab etmək olar. Aydındır ki, ABŞ-də prezident seçkilərinin nəticələri İrəvanı yeni addımlar atmağa sövq edir. Bu mənada İrəvanın təklifi reallığa çevrilə bilərmi?

Mövzu ilə bağlı fikirlərini "XQ" ilə bölüşən **Dövlət İdarəçilik Akademiyasının müşaviri, Bakı Politoloqlar Klubunun rəhbəri Zaur Məmmədov** bildirdi ki, Azərbaycan ilə Ermənistan arasında danışıqlar davam edir və müxtəlif istiqamətlərdə aparılır: "Sülh müqaviləsi ilə bağlı danışıqlar iki ölkə arasında münasibətlərin normallaşdırılması, qarşılıqlı şəkildə yeni səhifənin açılmasına xidmət edir. Burada Ermənistan tərəfindən bəzi dəyişikliklərin edilməsinə ehtiyac var. Amma İrəvan danışıqları imitasiya edərək silahlandırmanı gücləndirərsə Azərbaycan tərəfindən onların qarşısına mütləq şəkildə daha bir tələb də qoyula bilər. Bu tələb Göyçə gölünün şərq sahili boyunca Azərbaycan ilə sərhəd olan ərazilərin və Qərbi Zəngəzur bölgəsinin silahsızlaşdırılması ola bilər. İkinci istiqamət dəhliz və kommunikasiyalar ilə bağlıdır. Üçüncü istiqamət sərhədlərin delimitasiya və demarkasiyası ilə əlaqəlidir ki, bu da uzunmüddətli prosesdir. Bu məsələlərin həlli yalnız sülh müqaviləsinin imzalanmasından sonra tam reallaşa bilər. Kommunikasiya xətləri ilə bağlı məsələdə Azərbaycan və Ermənistan arasında fikir ayrılığından daha çox onun Rusiya, ABŞ və İranla üst-üstə düşməyən məqamlar var. Bunlar hələ də qalmaqdadır. Rusiya bu dəhlizə nəzarət etmək istəyir. ABŞ Rusiyanın iştirakı olmadan idarəçiliyi həyata keçirməkdə maraqlıdır".

Z.Məmmədov dedi ki, Azərbaycanın əsas şərti yolun açılmasıdır: "Bu, sadələşdirilmiş giriş-çıxış, sərhəd-gömrük nəzarət sistemi olacaqsa, irəliyə doğru addım kimi qiymətləndirilə bilər. Amma burada maraqlı məqam söhbətin hansı kommunikasiyalardan getməsi və hansı şərtlərin Azərbaycan tərəfinə aid edilməməsidir. Vətəndaşların 30 gün ərzində vizasız qonşu ölkədə qalması kifayət qədər ciddi məqamdır. Düşünürəm ki, Ermənistan mətbuatı məsələləri bir qədər şişirdib. Sadələşdirilmiş gömrük və sərhəd rejimi məsələsi istisna deyil. Bu, o deməkdir ki, Azərbaycanın tələbi yerinə yetirilir. Məlum məsələdir ki, Ermənistan hakimiyyəti açıq şəkildə birbaşa maneəsiz gediş-gəlişlə bağlı ictimaiyyətə açıqlama verə bilməz. Bu qərarı ona görə orasını-burasını bəzəyərək qeyd edirlər. Faktiki olaraq, dəhliz açıldıqdan sonra maneələr törədilərsə, bu, razılışmaya yenidən baxılmasına gətirib çıxaracaq. İndiki halda isə danışıqların baş tutması müsbət haldır".

Politoloq sözlərinə onu da əlavə etdi ki, ABŞ-də prezident seçkilərində Donald Trampın qələbəsindən sonra rəsmi İrəvanın Azərbaycan və Rusiya ilə münasibətlərində bir qədər mövqe dəyişikliyi baş verib. Paşinyan hakimiyyətini itiməkdən qorxur. D.Tramp və V.Putin arasında gözlənilən mümkün anlaşma həm də Cənubi Qafqaz məsələləri ilə bağlı Ermənistanı bu addımları atmağa vadar edir. İstisna edilmir ki, Paşinyan gələn il erkən seçkilərə getsin və bu, daxildə hadisələrin hansı məcrada cərəyan edəcəyi ilə bağlıdır.

Hayastanda hadisələr hansı istiqamətdə getməsindən, yeni təklif və ideyalar irəli sürməsindən asılı olmayaraq, Nikol Paşinyan, nəhayət, verdiyi sözü yerinə yetirməlidir. Əks-təqdirdə, Bakı ona yaxın keçmişin acı dərslərini xatırlamalı olacaq.

***Azər MUSTAFAYEV***

# Ermənistan avropalıların "eniş zolağı"na çevrilib

## *Qərbin bir çox rəsmiləri İrəvana "ötürücü məntəqə" kimi baxırlar*

**"Avropa İttifaqının bir hissəsi olan Almaniya yenilənmiş maliyyə sisteminin işə salınması üçün beynəlxalq iqlim maliyyələşdirilməsinə yeni yanaşmanı dəstəkləyir". Almaniyanın Xarici işlər naziri Annalena Berbok Bakıda keçirdiyi mətbuat konfransında deyib. O qeyd edib ki, iqlim maliyyələşdirilməsi böyük sərmayələr tələb edir: "Söhbət böyük məbləğlərdən gedəndə isə danışıqlar daha çətin və sərt olur. Bu faktı nəzərə alaraq bütün detalları diqqətlə öyrənməliyik. Almaniya və Avropa beynəlxalq iqlim maliyyələşməsində etibarlı tərəfdaş olaraq qalır. Amma "yaşıl enerji"yə keçid və adaptasiya tədbirləri üçün xərclər çox böyükdür. Bu da qlobal səylər və bütün tərəflərin cəlb olunmasını tələb edir".**

Nazir vurğulayıb ki, qlobal istixana qazı emissiyalarında ən böyük paya malik olan ölkələr təkcə emissiyaları azaltmamalı, həm də beynəlxalq iqlim maliyyələşdirmə prosesinə qoşulmalıdırlar. O, başqa bir paylaşımında qeyd edib ki, COP29 çərçivəsində danışıqlar indiyədək sadəlikdən uzaq olub: "Bizim qlobal birlik olaraq daha sıx əməkdaşlıq etməyimiz olduqca vacibdir. Biz Bakıda bütün qitələrdə iqlim koalisiyaları yaratmaq üçün çalışırıq. Yalnız birlikdə irəliyə getməyimizə töhfələr verməliyik".

Eyni zamanda, Almaniya xarici siyasət idarəsinin rəhbəri onu da qeyd edib ki, BMT-nin Bakı Sammiti iqlim böhranı ilə mübarizədə konkret nəticələr verməlidir. İqlim dəyişmələrini dövrümüzün ən böyük təhlükəsizlik problemi adlandıran nazir Berlinin iqlimin maliyyələşdirilməsi üçün məsuliyyəti dərk etdiyini vurğulayaraq, digər ölkələri də bunu bölüşməyə çağırıb.

Bunun ardınca almaniyalı nazir iqlim konfransı ərazisində keçirilən mətbuat konfransında COP-un məramı və çağırışları ilə qətiyyən üst-üstə düşməyən, müzakirə edilən məsələlərdən uzaq mətlərdən danışmağa başlayıb. Onun Azərbaycanda, guya, "insan haqlarının acınacaqlı vəziyyətdə olması", "siyasi həbslər", "iqlim fəalları və müxalifətçilər" barədə dedikləri sağlam məntiqlə bir araya sığmır.

"Almaniyanın Xarici işlər naziri kimi demək istərdim ki, Avropa Şurası Parlament Assambleyasının 76 üzvünə Azərbaycana giriş qadağası qətiyyən qəbuledilməzdir. Bunlar Almaniya Bundestaqının üzvlərinə də öz təsirini göstərir və Azərbaycanın Avropa Şurası qarşısındakı öhdəlikləri ilə bir araya sığmır".



* * *

Rəsmi Bakı Avropa Şurasının, eləcə də Avropa İttifaqının digər qurumlarının ermənipərəst Parisin diktəsilə hansı missiyaları yerinə yetirdiyini yaxşı bilir. Onların Azərbaycana qarşı qəbul etdikləri qərar və qətnamələrin arxasında gizlənən məkrli niyyətlərindən də xəbərdardır. Bu kontekstdən yanaşanda, AŞPA-nin COP29-a dəvət edilməməsinin kifayət qədər ciddi və tutarlı səbəblərə söykəndiyini bu qurumun Brüsseldəki mənzil–qərargahında əyləşənlər də bilməmiş deyil. Annalena Berbokun Fransanın patronajlıq etdiyi Avropa Şurasındakı bəzi ölkələrin təmsilçilərinin bəyanat və çıxışlarında səslənən anti–Azərbaycan tezislərinə uyğun "arqumentləri" ilə kimin dəyirmanına su tökdüyü aşkar görünməkdədir. Bu zaman Almaniyanın baş diplomatının Bakıya İrəvandan, Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanla görüşdən sonra təşrif buyurması faktını da nəzərdən qaçırmaq olmaz.

**Mövzu ilə bağlı XQ-yə açıqlama verən siyasi elmlər üzrə fəlsəfə doktoru, politoloq Züriyyə Qarayeva bildirdi ki, Almaniya və "kollektiv Qərb"in digər üzvləri tərəfindən Azərbaycana bu cür yanaşmalar gözlənilməz deyil:** "Bu qüvvələrin Cənubi Qafqazda öz maraqları var. Ölkəmizin özünün ərazi bütövlüyünü, beynəlxalq hüquqa uyğun suverenliyini bərpa etməsi həmin şəbəkənin bölgədə özlərinin məkrli niyyətlərini reallaşdırmaq imkanlarını sıfıra endirib, onların ayaqlarını bölgədən kəsib. Hazırda regionda formalaşmış yeni reallığın fonunda Azərbaycanın qlobal məkanda əsas güclərdən birinə çevrilməsi prosesi bizə qarşı təzyiqlərin daha geniş şəkil almasını şərtləndirir. Bu prosesin bir tərkib hissəsi kimi, COP29-un Azərbaycanda keçirilməsini göstərə bilərik. Axı, dünyanın 190-dan çox dövlətinin təmsilçilərinin iştirak etdiyi BMT-nin bu mötəbər tədbiri ölkəmizə əlavə siyasi dividendlər gətirir. Bakının iqlim dəyişmələri kimi qlobal problemin həllinə verəcəyi töhfələrlə yanaşı, eyni zamanda, Azərbaycanı gözü götürməyənləri, bədxahlarımızı qıcıqlandırır. Onlar bütün bunların nəticəsində ölkəmizin bütün müstəvilərdə mövqelərinin gücləndiyini, Ermənistanın isə dalana dirəndiyini görürlər".





Z.Qarayevanın fikrincə, əslində, rəsmi Bakı İrəvana onu təlqin erməyə çalışır ki, bölgədə inteqrasiya meyilləri daha da artır və sən həmin "kollektiv Qərb"in fitvası ilə getdiyin sabotajlardan əl çəkməyincə, proseslərdən kənarda qalacaqsan: "Bu mesayı yaxşı başa düşən ermənipərəst aktorlar, o cümlədən Almaniyanın Xarici işlər naziri Annalena Berbok, guya, Azərbaycanda insan haqlarının pozulması ilə bağlı böhtan və yalanlarla dolu qarayaxma kampaniyasına başlayıblar. O Almaniyada ki, mötəbər mərkəzlərin hesabatlarında bu ölkədə istər irqi ayrı-seçkilik, istər insan haqlarının pozulması, istərsə də islamofobiya meyillərinin güclənməsi barədə müddəalara rast gəlirik. Yəni, öz evlərində səliqə-sahman, nizam-intizam yarada bilməyənlər Azərbaycanı ittiham etməyə girişiblər...".

* * *

Diqqəti çəkən digər məqam isə Almaniya Xarici işlər nazirinin Azərbaycana səfərindən bir gün əvvəl "X" sosial platformasında etdiyi paylaşımında COP29 barədə normal, pozitiv fikirlər söyləməsidir: "Bakıda bütün qitələrdə iqlim koalisiyalarının yaradılması istiqamətində işlər aparılır. İqlim böhranı dövrümüzün ən böyük təhlükəsizlik siyasəti problemidir. Sərhədlərdə dayanmır və ya seçki tarixlərinə əhəmiyyət vermir. Bir dərəcənin hər onda biri vacibdir. Bilirik ki, 1,5 dərəcəyə çatmaq üçün əlimizdən gələni etməliyik".

Dediyimiz kimi, Annalena Berbok Bakıya İrəvanda hayların baş diplomatı ilə görüşdən gəldi. Onun Ararat Mirzoyanla nələri müzakirə etdiyini dəqiqliyi ilə bilməsək də, orada aksentin Avropa İttifaqında Fransadan sonra erməni təəssübkeşi rolunda çıxış edən Almaniyanın Cənubi Qafqazdakı maraqlarına da toxunduqları birmənalıdır. Ümumiyyətlə, son illər Bakıya səfərə hazırlaşan avropalı diplomat və siyasilərin yolları nədənsə İrəvanda kəsişir. Diqqət yetirsək, biz bu "marşrutun" arxasında Qərbin Ermənistanı dəstəkləməsi missiyasının, xristian həmrəyliyinin gizləndiyini də görə bilərik.

Sonda bir maraqlı məqamı da qeyd etməyimiz yerinə düşər. Nazir Annalena Berbokun anti–Azərbaycan çıxışı onun yerlisi, Almaniya Bundestaqının və Avropa Parlamentinin deputatı Frank Şvabenin ölkəmizə qarşı qərəzli açıqlamaları ilə eynilik təşkil edir. Yerli ekspertlərin bir qismi Almaniyada türkiyəfobiya, azərbaycanofobiya meyillərinin artmasını bu ölkədə radikalların, millətçi–sağçıların hakimiyyətə gəlməsi ilə əlaqələndirirlər. Ağlabatan versiyadır. Son vaxtlar Almaniyanın Türkiyəyə və Azərbaycana qarşı heş vaxt müşahidə olunmayan qərəzli və ermənipərəst yanaşmasının arxasında məhz daxili siyasi amilin dayandığını söyləyə bilərik. Amma, düşünürük ki, Berlinin bu yanlış xarici siyasi xəttinin ömrü Rusiyadan aldıqları təbii yanacağın limiti tükənəndə, qışda soyuqdan donmamaq üçün Azərbaycandan qaz ummağa başlayanda sona çatacaq...

***İmran BƏDİRXANLI***
***XQ***

# Bakının təşəbbüsü ilə Qlobal Cənub QHT Platforması yaradılır

**COP29 çərçivəsində Azərbaycan Milli QHT Forumunun təşəbbüsü ilə Qoşulmama Hərəkatı ölkələrinin QHT-lərin Cənub-Cənub əməkdaşlığı üzrə beynəlxalq konfransı keçirilib.**

"Cənub-Cənub əməkdaşlığı vasitəsilə iqlim fəaliyyətinin inkişafı: QHT-lərin rolu" adlı beynəlxalq konfransda Qoşulmama Hərəkatına 4 illik sədrliyi dövründə Azərbaycanın mühüm qlobal təşəbbüslərə imza atması, iqlimlə bağlı fəaliyyət də daxil olmaqla, ölkələr arasında həmrəyliyin gücləndirilməsinə əhəmiyyətli töhfə verdiyi xüsusi vurğulanıb.

Xarici QHT-lər Qlobal Cənubun aparıcı ölkələrindən biri olan Azərbaycan dövlətini COP29-u uğurla təşkil etdiyinə görə təbrik ediblər.

Beynəlxalq konfransın yekununda Qoşulmama Hərəkatı ölkələrini təmsil edən QHT-lər Cənub-Cənub əməkdaşlığı vasitəsilə iqlim fəaliyyətinin inkişafında QHT-lərin roluna dair birgə bəyanat mətnini razılaşdırıb və bəyanata qoşulmağı bütün COP29-da iştirak edən QHT-lər üçün açıq elan edib.



Bəyanatda Azərbaycana güclü dəstək ifadə olunur, onun qlobal roluna diqqət çəkilir, COP29 çərçivəsində sülhün və kollektiv qlobal fəaliyyətin təşviqi üçün iqlim danışıqları zamanı müharibələrin dayandırılmasına yönəlmiş Azərbaycanın "COP Atəşkəs Çağırışı" təqdir edilir. Dünya dövlətləri iqlim dəyişmələrinin humanitar aspektlərinə, o cümlədən həssas icmaların müdafiəsinə, sosial ədalət və ekoloji böhranlara qarşı dayanıqlığa üstünlük verməyə, öz hərəkətlərini "COP Atəşkəs Çağırışı"nın ruhuna uyğunlaşdırmağa dəvət olunur.

Bəyanatda iqlimə davamlılıq və humanitar problemlərin həllində, Dayanıqlı İnkişaf Məqsədlərinə uyğunlaşdırılmış inklüziv siyasətlərin təşviqində QHT-lərin mühüm rola malik olması qabardılır, iqlim maliyyələşdirilməsini və yerli səviyyələrdə təşəbbüsləri dəstəkləmək üçün hökumətlər, maliyyə institutları və QHT-lər arasında əməkdaşlığın genişləndirilməsinin zəruriliyi ifadə olunur.

COP29-da təmsil olunan vətəndaş cəmiyyəti üzvlərinə açıq olan bəyanata 137 ölkədən 1023 QHT təmsilçisi, ictimai fəal imza atıb.

**XQ**

# Türkiyədə Azərbaycan–Macarıstan enerji əməkdaşlığı müzakirəsi

**İstanbul Enerji Forumu çərçivəsində energetika naziri Pərviz Şahbazovun Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto ilə görüşü olub.**




Görüşdə Azərbaycandan qaz tədarükü, Macarıstan şirkətləri ilə neft-qaz sektorunda əməkdaşlıq və "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" layihəsinin icrası, həmçinin Birgə Müəssisənin fəaliyyəti əsas müzakirə mövzusu olub.

"Yaşıl Enerji Dəhlizi"nin texniki-iqtisadi əsaslandırmasının cari vəziyyətinə və Bolqarıstanın layihəyə qoşulmasına dair fikir mübadiləsi aparılıb. Həmçinin Azərbaycan və Macarıstan arasında enerji üzrə işçi qrupunun fəaliyyətinə də toxunulub və növbəti iclasın 2025-ci ildə keçiriləcəyi qeyd olunub.

Söhbət zamanı COP29-un enerji təşəbbüslərinə beynəlxalq dəstəyin enerji təhlükəsizliyi və yaşıl enerji keçidi ilə bağlı hədəflərə töhfə verəcəyi qeyd olunub.

**XQ**

# Azərbaycanın uğurları bədxahlarımızın yuxusunu ərşə çəkib

**Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan iranlı həmkarı Abbas Arakçıya telefon zəngi edib. Söhbət zamanı gündəlikdəki ikitərəfli məsələlərə, o cümlədən Ermənistan və İran arasında gələcəkdə vətəndaşların xeyrinə ola biləcək sahələrdə əməkdaşlığın genişləndirilməsinə toxunulub.**

Qeyd edək ki, noyabrın 14-də də A. Mirzoyan və A.Arakçı arasında telefon danışığı olmuşdu. Sözsüz ki, Ermənistan və İran iki suveren ölkədir və əlaqələrini genişləndirməsi, o cümlədən nazirlərin telefon danışığı aparmaları onların daxili işidir. Sadəcə, olaraq Ermənistanın Azərbaycan torpaqlarını uzun illər işğal altında saxlaması, hazırda da sülh danışıqları apardığı görüntüsü yaradaraq silahlanması, konstitusiyasından ölkəmizə ərazi bütövlüyünə şübhə üçün əsas yaradan müddəaları



çıxarmaqdan imtinası bizi qayğılandıran məsələdir. Digər tərəfdən İran işğal dövründə sözdə bizi dəstəkləsə də, əməldə hər zaman Ermənistana kömək edib.

Rəsmi Tehran bu gün Zəngəzur dəhlizinin açılmasına imkan vermir. İran Ermənistanın ərazi bütövlüyünün pozulmasını özünün "qırmızı xətti" elan edib. Halbuki, Azərbaycan torpaqlarının işğalı zamanında da hansısa "qırmızı xətt"lərdən bəhs etmək İran rəsmilərinin heç yadına da düşmürdü.

Bu çərçivədə caliber.az saytında Ermənistanın Paris və Tehran arasında gizli əlaqə kanalı olmasına dair məqalə diqqəti cəlb edir. Qeyd edilir ki, Ermənistan Fransa ilə İran arasında gizli vasitəçi kimi çıxış edir, tərəflərə mesajlar ötürür. Bildirilir ki, A.Mirzoyan noyabrın 14-də A.Arakçı və noyabrın 16-da Fransanın xarici işlər naziri Jan-Noel Barro ilə telefon danışığı aparıb. Emmanuel Makron noyabrın 7-də Budapeştdə Avropa Siyasi Birliyinin IV sammiti çərçivəsində Nikol Paşinyanla görüşdə Ermənistanın baş nazirinə İrana mesajların çatdırılması üçün təlimatlar verib: "Fransa Yaxın Şərq və Afrikadakı çoxillik təcrübəsindən istifadə edərək, Ermənistanı yeni müştərisinə, faktiki olaraq onu yeni müstəmləkəsinə çevirmək üçün Paşinyandan istifadə edir".

Ermənistanda gözlənilməz istefalar da bu hadisələrlə əlaqələndirilir. Xatırladaq ki, bir müddət əvvəl daxili işlər naziri Vahe Qazaryan, korrupsiyaya qarşı mübarizə komitəsinin rəhbəri Sasun Xaçatryan, istintaq komitəsinin sədri Argişti Karamyan və digər vəzifəli şəxslər istefa veriblər. Qeyd edilir ki, Fransa və İran arasında Ermənistan vasitəsilə aparılan məxfi danışıqlara dair məlumatlar məhz istefa verənlər vasitəsilə sızıb. Onların arasında, həmçinin ABŞ və digər Qərb strukturları ilə bağlı olan çox adam var. Beləliklə, Paşinyan onlarla yollarını ayırmaq qərarına gəlib.

O da bildirilir ki, bu hadisələr Makron rejiminin ikiüzlülüyünü nümayiş etdirir, hətta, Qərb ölkələrini də çaşdıraraq, İranla separat danışıqlar aparır. Avropa İttifaqı İrana qarşı yeni sanksiyaları müzakirə və tətbiq edərkən, Makron Ermənistan vasitəsilə Tehranla gizli danışıqlara girişir. Bu, həm də Fransanın NATO üzrə müttəfiqi ABŞ-a, o cümlədən, məlum olduğu kimi, Vaşinqtonun Tehrana qarşı siyasətini sərtləşdirmək niyyətində olan yeni seçilmiş Prezident Donald Trampa xəyanətdir.

Fransa ilə İran arasında tarixi əlaqələri xatırlayaraq deyə bilərik ki, Parisin Tehrana ənənəvi marağını nəzərə alsaq, burada heç bir sürpriz yoxdur. Ayətullah Xomeyninin Fransada sürgündə olduğunu və İslam inqilabından sonra "Air France" təyyarəsi ilə İrana qayıtdığını xatırlamaq kifayətdir. Yaxın vaxtlara qədər "TOTAL" və "Peugeot" kimi fransız şirkətləri Qərbin sanksiyalarına baxmayaraq, İranda fəaliyyətlərini davam etdirirdilər.

Bu kontekstdə Fransanın Ermənistanı yenidən silahlandırmasında İranın vasitəçiliyi də xatırlanmalıdır. Məlum olduğu kimi, "Sezar" artilleriya sistemlərinin bir hissəsi və digər silahlar Ermənistana İran ərazisindən çatdırılıb.

Mövzu ilə bağlı fikirlərini öyrəndiyimiz **politoloq Ramiyə Məmmədova** bildirdi ki, Ermənistan və İran arasında münasibətlər son illərdə daha da inkişaf edir. Onun sözlərinə görə, hazırda Azərbaycana münasibətdə İranın və Ermənistanın mövqeyi üst-üstə düşür. Təbii ki, İran Ermənistandan fərqli olaraq, Azərbaycan Respublikasının ərazisini işğal etməyib: "Ancaq Tehranda rəsmi şəxslər bu düşüncədədirlər ki, respublikamızın ərazisi bir vaxtlar İrana şahlığına məxsus olub. Guya, Rusiya imperiyası 1804-1813-cü və 1826-1828-ci illərdəki Rusiya–İran müharibəsi nəticəsində İranın Cənubi Qafqazdakı ərazilərini ələ keçirib. Bir neçə il əvvəl İran parlamentinin təhlükəsizlik komissiyasının üzvü Mansur Haqiqətpur "Fars" xəbər agentliyinə müsahibəsində bildirmişdi ki, Qafqazın 17 bölgəsi, o cümlədən Azərbaycan şəhərləri Qacarlar dövründə İrandan zor gücünə ayrılıb. Həqiqətpur utanıb-qızarmadan iddia etmişdi ki, guya, oradakı sakinlər İrana birləşmək istəyindədirlər. İran rəsmiləri bunu dilə gətirməsələr də, Azərbaycan torpaqlarını İran əraziləri sayırlar. Halbuki, bunun əksinədir".

R.Məmmədova qeyd etdi ki, İran–Azərbaycan münasibətlərindən fərqli olaraq, İran–Ermənistan münasibətləri hər zaman yüksək səviyyədə olub: "Bu baxımdan iki ölkənin xarici işlər nazirinin telefon danışığı aparmasına, regiondakı vəziyyəti müzakirə etməsinə, dəyərləndirmə həyata keçirmələri normal haldır. Təbii ki, onlar sıx tərəfdaş olaraq regionda baş verən bütün məsələləri müzakirə etməlidirlər və edirlər".

Müsahibimiz bildirdi ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29-un Bakıda keçirilməsi, dünyanın bir sıra dövlət və hökumət rəhbərlərinin ölkəmizə təşrif buyurması, ümumiyyətlə, ölkəmizin nüfuzunun artmasını Ermənistan özünə təhdid kimi görür. Ermənistan özünü demokratik ölkə kimi təqdim edərək Avropa İttifaqı və bütövlükdə, Qərblə yaxınlaşmağa çalışır. Ancaq buna baxmayaraq, Azərbaycanın nüfuzunun artması İrəvan üçün də bir təhdiddir".

Politoloq qeyd etdi ki, İranın milliyyətcə azərbaycanlı olan prezidenti, islahatçıların təmsilçisi Məsud Pezeşkian, bəlkə də, Azərbaycanla əlaqələri üstün səviyyəyə qaldırmaq istəyərdi. Amma Ermənistan İrana daha yaxındır. Biz bunu İran rəsmilərinin çıxışlarında da açıq-aşkar görürük: "Bütün bunları nəzərə alaraq deyə bilərik ki, İran–Azərbaycan münasibətləri müəyyən qədər yaxşılaşsa da, soyuq olaraq qalmaqda davam edir. Bu vəziyyətin yaranmasının təqsirkarı da İran özüdür. İran Ermənistana dəstək verməklə, Azərbaycana düşmənçiliyini nümayiş etdirir. Tehran rəsmiləri bu zaman İran əhalisinin çox böyük hissəsini azərbaycanlıların təşkil etdiyini nəzərə almır. Halbuki, İran və Azərbaycan arasında ortaq maraqlar, tarixi əlaqələr və digər bağlılıqlar daha möhkəmdir".

İran və Ermənistan arasında müzakirə etmək üçün bir çox məsələlərin mövcud olduğunu vurğulayan ekspert iki ölkənin əlaqələri bütün sahələrdə genişləndirməyi qarşıya əsas məqsəd qoyduqlarını vurğuladı: "İran Ermənistandan istifadə edərək Qərblə yaxınlaşmağa çalışır. Məlumdur ki, Donald Trampın hakimiyyətə qayıdışından sonra İran daha da fəal olmağa başlayıb. İran son vaxtlar uranın zəngin-



ləşdirilməsi istiqamətində fəaliyyətini də genişləndirib. İran rəsmiləri nüvə silahı əldə etmək istiqamətində işləri sürətləndirmələri ilə Qərbə ismarıc verirlər ki, siz bizimlə sövdələşməyə getməli, bir masa arxasına əyləşməli və bizi bir güc kimi qəbul etməlisiz. Çünki biz regionun ən böyük dövlətlərindən biriyik. Həqiqətən də həm ərazisinə, həm də əhalisinin sayına görə, İran Türkiyə ilə birgə bölgənin böyük dövlətləridir".

Müsahibimiz onu da bildirdi ki, bütün bu aspektlərin hər birini təhlil etdikdə İranın Ermənistanı Qərblə münasibətlərin yaxşılaşması üçün alət kimi istifadə etdiyi aydın olur. İran və Ermənistanın xarici siyasət sahəsində baxışları da üst-üstə düşür. Həmçinin iqtisadi əlaqələr də son illərdə xeyli genişlənib. Ticarət dövriyyəsində və insanların qarşılıqlı gediş-gəlişində də artım var: "Bütün bu məsələlər hamısı iki ölkə rəsmilərinin görüşlərində və telefon söhbətlərində müzakirə mövzusu olur. Amma bir daha qeyd etmək istərdim ki, burada əsas məsələ İranın Ermənistandan istifadə etməklə Qərblə yaxınlaşmağa çalışmasıdır".

***Səxavət HƏMİD***
**XQ**

Replika

# "Politico"ya yerini göstərməyin vaxtıdır

**BMT-nin iqlim dəyişikliyi ilə bağlı ən mötəbər beynəlxalq tədbirinin Azərbaycanda keçirilməsi başda erməniparəst kollektiv Qərb olmaqla, bədxahların ölkəmizə qarşı informasiya kampaniyası davam etməkdədir. Xaricdəki erməni lobbisinin, diasporunun müxtəlif ölkələrə və beynəlxalq təşkilatlara müraciət etdikləri, COP29-da iştirakdan çəkindirmək məzmununda məktub göndərdikləri barədə yazmışdıq.**

Artıq fiaskoya uğramış qarayaxma kampaniyasının önündə gedənlərin sırasında "Politico" nəşri də vardı. Həqiqətə və obyektiv media prinsiplərinə çəpəki baxan bu qəzet BMT-nin iqlim sammiti ərəfəsində yazırdı ki, Bakı dünyanın hər tərəfindən gələcək on minlərlə qonağı qəbul etmək iqtidarında deyil. Guya, Bakıda o miqdarda qonağı yerləşdirmək üçün kifayət qədər hotel və mehmanxana yoxdur. Yalan və böhtandan yoğrulmuş həmin məqalənin müəllifinin dezinformasiyanı Azərbaycan paytaxtında olmadan uydurduğu gün kimi aydın idi.

Nəşrin başqa bir ağ yalanı isə bu idi ki, Bakıda belə genişmiqyaslı beynəlxalq tədbirin – çoxsaylı konfrans və seminarların keçirilməsi üçün zəruri məkan azdır. Belə məqamlarda müdriklərimiz haqlı olaraq yalançının ünvanına yeddimərtəbəli "epitetlər" yağdırırlar. Bakıda son illərdə inşa edilmiş müasir biznes mərkəzlərində, konfrans zallarında, dünya standartlarına cavab verən beynəlxalq forum və seminarlar keçirilib.

"Politico"nun Azərbaycanın ünvanına yağdırdığı uydurma ittihamlardan biri də COP29-a bir neçə gün qalmış Donald Trampın prezident seçiləcəyi təqdirdə Vaşinqtonun Bakıya rəsmi nümayəndə heyətini göndərməyəcəyi barədə xəstə təxəyyülün məhsulu olan versiyası idi. Bunun səbəbi kimi Trampın iqlim dəyişikliyi mövzusuna laqeyd yanaşması göstərilirdi.




Artıq COP-un Bakının ev sahibliyi etdiyi 29-cu Sammiti uğurla başa çatır. "Politico"nun xəbərdarlıqlarına, ismarıclarına baxmayaraq, beynəlxalq tədbirə gözlənilmədən daha çox – 76 min qonaq gəldi. Onlar rahat otellərdə yerləşdirildi, yaradılmış şəraitdən isə hamısı məmnun qaldı.

Bunu təkcə yerli media deyil, dünyanın nüfuzlu telekanalları, xəbər agentlikləri də vurğuladılar.

* * *

"Jurnalistikanın və medianın Avropa standartlarının belə aşağı səviyyəyə enməsi ən azı utancvericidir. Avropa İttifaqı mediada yayılan qlobal dezinformasiyaya xüsusilə həssas yanaşır və narahatdır. Bu, başadüşüləndir! Bəs, Avropa mediası başqaları haqqında saxta xəbərlər və yalanlar yaydıqda reaksiya necə olur?". Bu iqtibas erməniparəst Qərbin Azərbaycana qarşı dezinformasiya şəbəkəsində "qabaqcıl mövqeyi"ni əldən buraxmaq istəməyən həmin "Politico"nun qərəzli məqaləsinə Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin şərhindəndir. Bu barədə "X" sosial şəbəkəsində paylaşım edən Prezidentin köməkçisi qəzetin məqaləsində faktların yoxlanışının olmaması, onun spekulyasiya və şayiələrlə dolu olduğunu vurğulayır.

Bircə bu fakt yazını tamamilə təkzib edir: "2024-cü ildə Azərbaycan Rusiyadan qaz idxal etməyib. Nöqtə! Azərbaycanda qaz hasilatı beynəlxalq tərəfdaşlarla əməkdaşlıq çərçivəsində həyata keçirilir. İstehsal və ixracın həcmi isə hamıya məlumdur".

Şərhdə daha sonra deyilir ki, Azərbaycan bundan sonra da mövcud resursları və razılaşdırılmış müqavilələri əsasında tərəfdaşlarının enerji təhlükəsizliyinə töhfə verməyə davam edəcək. H.Hacıyev haqlı olaraq "Politico"nun Azərbaycandan üzr istəməsi və bu saxta məqaləni geri çəkməsi tələbini irəli sürüb.

Bəli, uydurduqları yalanlar, feyk-xəbərlərlə erməni dəyirmanına su tökən "Politico"ya layiq olduğu yeri göstərməyin məqamı yetişib.

***İ.HƏSƏNQALA***
**XQ**

COP29 Baku Azerbaijan
COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024
COP29 Baku Azerbaijan

# Liderin quruculuq kursu

IV MƏQALƏ

## Azərbaycanlı hüququ dünya müstəvisində

Prezident İlham Əliyevin müasir mərhələdə ölkə üçün yeni tarixi mərhələnin başladığını bəyan etməsi tarixi hadisədir. Öncəki məqalədə vurğuladığımız kimi, burada bütövlükdə Azərbaycandan bəhs edilməsinin isə siyasi, geosiyasi, tarixi və mənəvi-ideoloji xüsusiyyətləri geniş öyrənilməli, təbliğ və təşviq edilməlidir. Bu yanaşmanın anlamı genişdir. Burada Azərbaycan məsələsinin müasir dövlətçilik tariximizdə ilk dəfə olaraq azərbaycanlı hüququnun dünya müstəvisində təmin edilməsi üzərində dayancağıq.

Öncə onu vurğulayaq ki, müstəqil dövlətçilik tarixində azərbaycanlının Azərbaycan vətəndaşı kimi qlobal miqyasda hüquqlarının təmini məsələsini dövlət kursunun tərkib hissəsi kimi təqdimatını Prezident İlham Əliyev etmişdir. Biz bunu liderliyin olduqca əhəmiyyətli faktoru hesab edirik. Çünki insan hüquqları məsələsi üzərində Azərbaycan Respublikasına qarşı müxtəlif səviyyələrdə spekulyativ, böhtançı, aşağılayıcı təzyiqlər etməyə çalışan dairələr hələ də sakitləşməmişlər. Onlar azərbaycanlılarla bağlı "insan haqları" dedikdə əsas olaraq Azərbaycan vətəndaşlarının digərləri qarşısında əbədi borclu olması kimi sərsəm və antiinsani məqamları nəzərdə tuturlar. Belə təəssürat yaranırdı ki, biz dünyada hər kəsə və hər ölkəyə əbədi borcluyuq. Kimlərəsə güzəştə getməli, kimlərisə cəmiyyət olaraq başımıza çıxarmalı və bu zaman aborigen xalq ikincidərəcəli vəziyyəti ilə barışmalıdır.

Sovet dönəmində (sirr deyildir!) bu, özünü hər bir münaqişəli situasiyada ilk olaraq azərbaycanlıya cinayətkar, bandit, xuliqan, narkoman və alverçi kimi yanaşmada ifadə olunurdu. SSRİ-də milislər yeri gəldi-gəlmədi soydaşlarımızı saxlayır və qanunsuz axtarışlar aparırdılar. Bu prosesin qarşısını xeyli dərəcədə Ulu öndər almışdı. Bununla yanaşı, Heydər Əliyevin Moskvada mərkəzi hakimiyyətdə təmsil olunmasından sonra bir sıra respublikalarda bizə qarşı daha qərəzli münasibətlər gördük. Burada yalnız erməniləri günahlandırmaq, yol azdırmaqdır – əsrlərlə məlum qlobal dairələrin türklərə, o cümlədən azərbaycanlılara qarşı hansı mənada "sivil və hüquqi" davrandıqlarının şüuri təcrübəmizdə pozulmaz obrazı mövcuddur! İlham Əliyev böyük mənada bu sindromu sındırdı.

Azərbaycan Prezidenti XXI əsrdə çox zəfərlərə imza atımışdır. Bu mövzu ilə bağlı onların ikisini vurğulamaq istərdik.

Birincisi, sübut etdi ki, Azərbaycan Respublikası öz gücünə ərazi bütövlüyünü və suverenliyini milli kimliyini və



müstəqilliyini saxlamaqla təmin etmək qüdrətindədir.

İkincisi, bütün dünya bilsin ki, Azərbaycan Respublikası müstəqil dövlət kimi azərbaycanlıların dünyanın hər yerində hüquqlarını müdafiə etməyə müvəkkildir.

Bu iki faktor sintez halında Azərbaycan Respublikasının müasir mərhələdə ilk dəfədir ki, müstəqil dövlət kimi hazırkı siyasi-coğrafi hüdudlarını aşaraq dünya miqyasında hüququn təmin olunması məsuliyyətini üzərinə götürdüyünü ifadə edir. İlham Əliyevin yeni lider kimi quruculuğunu xarakterizə edən fundamental istiqamətlərdən biri bundan ibarətdir. İzah etməyə çalışaq.

Məsələ onunla bağlıdır ki, yeni liderlikdə quruculuq anlayışının politoloji mənası öncəki dövrlərdən fərqli kriteriyalara əsaslanmalıdır. Quruculuq siyasi, iqtisadi, enerji, mədəni, mənəvi, ideoloji, iqtisadi sferalarda ayrı-ayrılıqda uğur qazanmaqla tam ifgadə edilmir. Əsas həmin yeniliklərin (uğurların, inkişafın, tərəqqinin) milli müstəqil dövlətçilik kursu daxilində strateji birliyini, harmoniyasını, sintezini təmin edə bilən xətti seçməklə bağlıdır!

İlham Əliyev məhz bu baxımdan həm yeni tarixi mərhələni müəyyən etmişdir, həm də yeni mərhələyə öncəki mərhələnin əsas nəticələri üzərində yanaşa bilmişdir. Bu da başqa faktorlarla yanaşı, Prezidentin siyasi, diplomatik, hərbi, mədəni, iqtisadi, enerji və başqa istiqamətlərdəki nailiyyətlərlə hüquqi aspekti uyğunlaşdırmasında ifadə olunmaqdadır. Vurğulanan vahid dinamikaya və məntiqə malik fəaliyyət fəlsəfəsinin Azərbaycan variantında vəhdəti, İlham Əliyevin quruculuğunun başlıca özəlliklərindən birini təşkil edir.

İndi bu tezisin fonunda yeni tarixi mərhələnin quruculuq komponenti kimi fəlsəfi və siyasi-nəzəri xüsusiyyələrinin bir neçəsinə baxa bilərik.

## Yeni tarixi mərhələ

Öncə qeyd edək ki, İlham Əliyevin lider kimi quruculuq kursu səkkiz istiqamətlə məhdudlaşmaya da bilər. Ancaq, bizim üçün "səkkiz istiqamətin" bayraqdakı səkkizguşəli ulduzla rəmzi bağlantısı da vardır. Bu sətirlərin müəllifi üçün 8 rəqəminin, ümumiyyətlə, dünyanın yaranması və mövcudluq formasının fəlsəfəsi ilə sıx bağlılığı vardır. Hər bir halda, təsadüfi və ya zəruri, İlham Əliyevin yeni tarixi mərhələ üçün quruculuq istiqamətlərini müəyyən etməyin sırf fəlsəfi, analitik və politoloji təhlili avtomatik olaraq aşağıdakı istiqamətlərə gətirib çıxardı:

- Yeni milli ideya;
- Böyük qayıdış;
- Böyük millət quruculuğu;
- Dayanıqlı strateji inkişaf;
- "Yaşıl ölkə" quruculuğu;
- Yüksək rifah cəmiyyəti quruculuğu;
- TDT quruculuğu;
- Regional-regionlararası qlobal miqyaslarda liderlik missiyası ilə fəaliyyətin yeni məzmunu.

Bizim üçün çox mühüm əhəmiyyəti olan bir sıra digər məsələləri, məsələn yeni vətənpərvər milli ruhlu nəslin tərbiyəsi, ölkənin müdafiə qüdrətinin davamlı artırılması, yeni texnologiyaların tətbiqi, təhsil və elmdə keyfiyyət dəyişikliyinə nail olmaq və s. prosesləri vurğulanan əsas istiqamətlərin tərkib elementləri kimi qəbul etməyin mümkün olduğunu düşünürük. Yeni tarixi mərhələnin fəlsəfi və politoloji anlamı prizmasında vurğulanan əsas istiqamətlərin üzərində dayanmaq gərəkdir.

## Yeni milli ideya

Avrasiya məkanında heç bir müstəqil dövlət hələlik özü üçün nə yeni tarixi mərhələ, nə də yeni milli ideya müəyyən etmişdir. Deməli, söhbət, faktiki olaraq, geniş geosiyasi məkanda ilk təcrübədən gedir. Bu təcrübəni Azərbaycanın özü yaradır. Onu başqalarından götürmək kimi bir proses yoxdur. Azərbaycan özü belə bir vacib təcrübə yaratmağa başlamışdırsa, deməli, bu dövlətin lideri yaradıcı olaraq strateji inkişafın mərhələləri ilə son məqsədini artıq konseptual ilə yanaşı, praktiki fəaliyyət aspektində də harmoniya halına gətirmişdir. Bunu quruculuğun baza tezisi kmi milli ideya kontekstində qəbul edə bilərik.

Azərbaycan Prezidenti yeni milli ideya məsələsini iki istiqamətdə ölkə gündəminə gətirmişdir. Birinci, dövlət və cəmiyyət üçün yeni tarixi mərhələni yalnız düşünülmüş və düzgün müəyyən edilmiş milli ideya əsasında müəyyənləşdirmək məqsədini bəyan etmişdir. Bu, XXI əsrdə müstəqil dövlətin davamlı inkişafı üçün çox əhəmiyyətlidir. Çünki milli ideya milli özşüur, milli identiklik, siyasi identiklik və dövlət identikliyi kontekstlərində fərdi və kollektiv miqyasları özündə ehtiva edən vacib faktordur. Bundan başqa, milli ideya ilə milli ideologiya arasında çoxaspektli və dinamik bir bağlantı mövcuddur (bu, onların eyni məzmun və məqsədə malik olduqları anlamına gəlmir).

Digər tərəfdən, yeni milli ideyanın yeni tarixi mərhələ konteksti ayrıca fəlsəfi və politoloji məna daşıyır. Yəni milli ideya strateji aspektdə quruculuğun çox mühüm parametrini təşkil edir. Çünki tarixi dövrün yeniləşməsinin əsas aparıcı və istiqamətverici faktoru milli ideyadır. Onda belə çıxır ki, faktiki olaraq fəlsəfi və politoloji anlamlarda yeni tarixi mərhələnin geniş xüsusiyyətləri milli ideyada əksini tapmalıdır. Bunun üçün öncədən milli ideyada "yeninin" nələrdən ibarət olması müəyyənləşməlidir.

Buradan Prezidentin yeni milli ideyanı ikinci istiqamətdə aktuallaşdırmasının səbəbi aydın olur. Konkret olaraq, İlham Əliyev yeni milli ideyanın məzmununun müəyyən edilməsində cəmiyyətin geniş iştirakını zəruri hesab etmişdir! Cəmiyyət, xüsusən onun ziyalı (yaradıcı) kəsimi milli ideyanın yenilik komponentlərini strateji inkişaf kursu daxilində yeni tarixi mərhələnin əsas məzmununun və məqsədinin müəyyən edilməsində nəticəverici faktorlar kimi aydınlaşdırılmasında aktivlik göstərməlidir.

Buradan İlham Əliyevin qurucu lider kimi fərqli bir keyfiyyəti özünü göstərir. İlk dəfədir ki, lider milli ideya üzərinə köklənməklə həm tarixi dövrləşdirmənin yeni cəhətlərini aydınlaşdırır, həm də cəmiyyəti yeniləşdirir, onu strateji tələblərə uyğun qurur. Bu quruculuğun da mühüm komponentləri kimi Böyük Qayıdışı və Böyük Millət Quruculuğunu göstərə bilərik.

Beləliklə, İlham Əliyevin qurucu liderlik kursu bir-biri ilə harmoniya və qarşılıqlı struktur-funksional bağlantıda olan elə bir sistemdir (şəbəkə) ki, onun tərkib hissələri inteqrasiyaedici sinerji təşkil edirlər! Bu aspektin fəlsəfəsi dərindir.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Üçüncü dünya müharibəsinə doğru?

***Ukrayna böhranı və Qərb–Rusiya ziddiyyətlərinin "raket mərhələsi"***

**(əvvəli 1-ci səhifədə)**

Zalujnının fikrini əsaslandırmaq üçün başqa nələri diqqətə çatdırmasından danışmağa lüzum görmürük. Aydındır ki, ABŞ-da keçirilmiş Prezident seçkilərindən sonra Ukrayna müharibəsinin miqyası genişlənib. Bunun ilkin simptomları da var idi. Məsələn, təxminən, bir həftə əvvəl ABŞ-nin fəaliyyətdə olan dövlət başçısı Co Bayden Ukraynanın Rusiyaya qarşı ATACMS uzaqmənzilli raketlərinin istifadəsinə icazə vermişdi. Bu qərardan sonra Fransa və Böyük Britaniyanın da Ukraynaya Rusiyanın dərinliklərinə zərbələr endirməsinə icazə verdiyi barədə məlumatlar yayılmışdı. Bildirilmişdi ki, Parisin və Londonun bilavasitə "SCALP" və "Storm Shadow" raketləri ilə Rusiyaya hücumlara razılığı var. Ardınca Almaniyanın müdafiə naziri Boris Pistoriusun belə bir açıqlaması yayılmışdı: "Mən çox şadam ki, (Ukraynaya – red.) süni intellektli hücum dronlarının çatdırılmasına başlanılır. Bu silahlar Ukrayna silahlı qüvvələrinin komanda məntəqələri və ya logistika obyektləri kimi Rusiyanın yüksək prioritetli hərbi obyektlərinə zərbələr endirməsinə imkan verəcək".

Nəhayət, noyabrın 19-da Rusiyanın Bryansk vilayəti Ukrayna Silahlı Qüvvələri tərəfindən ATACMS hücumuna məruz qaldı. Bu, müharibənin gedişində bir ilk idi. Söhbət Ukraynanın Qərb istehsalı olan raketlərdən istifadəsindən gedir. Noyabrın 21-də isə Rusiya Britaniya istehsalı olan iki "Storm Shadow" qanadlı raketinin hücumunu dəf etdi. Ölkə Prezidenti Vladimir Putin həmin raketlərin Kursk vilayətindəki komanda məntəqəsinə hücum gerçəkləşdirmək niyyəti ilə buraxıldığını açıqladı. Kreml rəhbərinin başqa nələri dediyinə diqqət yetirəcəyik.

Bəli, aydındır ki, Qərb Ukrayna müharibəsinin miqyasını genişləndirmək niyyətindədir. Bunun isə cavabı olmalı idi və cavab özünü çox gözlətmədi. Söhbət Rusiyanın Ukrayna ərazisini yeni ortamənzilli raket sistemlərindən biri olan "Oreşnik" adlı qeyri-nüvə ballistik raketi ilə atəşə tutmasından gedir. Bunu Prezident Putin də təsdiqlədi. Nəinki təsdiqlədi, eyni zamanda, Kreml rəhbəri ölkəsinin Qərbin hərəkətlərinə cavab verdiyini açıqlayaraq,



bir növ, hədə-qorxu dolu mesajlar səsləndirdi. Putinin sözlərinə görə, müasir raketdən müdafiə sistemləri, o cümlədən Avropadakı Amerika sistemləri "Oreşnik" kimi raketlərin qarşısı almaq iqtidarında deyil. Ən əsası isə Putin Qərbin uzaqmənzilli raketlərinin Rusiya ərazisinə endirilməsinin Ukraynadakı münaqişəyə qlobal xarakterli xüsusiyyətlər qazandırdığını önə çəkdi. "Biz özümüzü, silahlarımızı obyektlərimizə qarşı silahlarından istifadə etməyə icazə verən ölkələrin hərbi obyektlərinə tuşlamaq hüququna malikik", – deyən Kreml rəhbəri əlavə edib ki, münaqişə daha da gərginləşərsə, Qərbin təxribatçı siyasəti ağır nəticələrə gətirib çıxaracaq.

Qeyd edək ki, Ukrayna Hərbi Hava Qüvvələri Rusiyanın raket zərbəsinin Cənub maşınqayırma zavodunu hədəf aldığını təsdiqləyib. Bu, Ukraynanın Dneprdə yerləşən, raket və kosmik texnologiya istehsalı üzrə böyük müəssisəsidir. Ukrayna tərəfi qitələrarası ballistik raketin Həştərxan vilayəti ərazisindən buraxıldığını açıqlayıb. Putinin Ukraynanın Rusiya ərazisinə zərbə endirən hücumlarının gerçəkləşməsinə baiskar olan, yəni birincini silahla təmin edən ölkələrin də Kremlin hədəfində olduğunu vurğulaması isə kifayət qədər, ciddi məsələdir. Görünür, bu səbəbdəndir ki, Avropa İttifaqının 20-yə yaxın üzv ölkəsi əməkdaşlığın intensivləşdirilməsi və ümumi müdafiə sistemlərinin inkişafı xərclərinin bölüşdürülməsi haqqında razılığa gəlib. Onlar Avropanın hava və raketdən müdafiə imkanlarının gücləndirilməsinin hazırda Aİ çərçivəsindəki hərbi əməkdaşlığın prioritetlərindən olduğunu açıqlayıblar. Məsələ barədə izah verən Polşanın Milli müdafiə üzrə dövlət katibi Pavel Ksaveri Zalevski bunları deyib: "Söhbət raket və dron əleyhinə sistemlər də daxil olmaqla, bütün imkanlardan gedir. Bu, mühüm məqamdır, çünki hava üstünlüyü müharibənin gedişatını müəyyən edir".

Onu da deyək ki, hava hücumundan və raketdən müdafiə sistemləri Avropanın aparıcı paytaxtlarının marağına səbəb olub. Avropa Müdafiə Agentliyi (EDA) isə daha üç savaş cəbhəsini təklif edib. Bunlar Aİ-yə 14 üzv dövlətin iştirakı ilə elektron müharibə, 17 dövlətin iştirakı ilə üzən döyüş sursatları və 7 dövlətin iştirakı ilə Avropa döyüş gəmiləridir. İndiki şəraitdə istər-istəməz, düşünməyə əsas yaranır və əvvəldə fikirlərini diqqətə çatdırdığımız Valeri Zalujnının dediklərində həqiqət payının böyüklüyü təsdiqlənir.

Güman edirik, Birinci və İkinci dünya müharibələrinin bəşəriyyəti düçar etdiyi faciəli durumları yenidən təsəvvürə gətirməyə ehtiyac yoxdur. Əsəblərin tarıma çəkildiyi bir vaxtda səfir Zalujnı, sanki, belə də olmalıymış kimi, "Xoş gördük Üçüncü dünya müharibəsi" ifadəsini işlədirsə, deməli, qarşı duran tərəflər mövcud xüsusdakı prosesləri, bir növ, proqnozlaşdırıblar. Sadəlövh təsir bağışlasa da, belə bir sual səsləndirək: İnsanlığın gələcəyini düşünən varmı? Hansısa qüvvə savaşın lokallaşdırılmasını, yaxud tamamilə bitməsini təmin edə bilərmi? Aydındır ki, Rusiya geri addım atmayacaq. Moskva onsuz da 1998-ci ildən başlayaraq mövqelərini əldən verməkdə, Qərb isə onun üstünə gəlməkdədir. Yəni, birincinin artıq geri çəkilmək yeri yoxdur, limiti tam tükənib.

Bəs ABŞ? Birləşmiş Ştatlar dünyada körüklədiyi anti-Rusiya ovqatından daşınacaqmı? Bu suallar fonunda yada bir obraz gəlir – ABŞ-nin yeni seçilmiş Prezidenti Donald Tramp. Nəzərə alaq ki, seçkiqabağı təbliğat dövründə Trampı populyarlaşdıran ən başlıca tezis onun Rusiya–Ukrayna müharibəsinə son qoyacağı ilə bağlı idi. Hazırda cərəyan edən proseslərin yeni seçilmiş dövlət başçısını fakt qarşısında qoyması təəssüratı yaranır. Sanki, kimlərsə Trampın vədinin yerinə yetirilməməsi üçün zəmin hazırlayır.

Zəmindən söz düşmüşkən, V.Putinin açıqlamasına Trampın komandasından reaksiya gəlib. Onun seçki kampaniyasının sözçüsü Karolin Leavitt bildirib ki, yeni seçilmiş Prezident dünyada sülhü bərpa etməyə çalışacaq, lakin Amerikanın gücünə də diqqət yetirəcək: "Amerika xalqı Trampı yenidən prezident seçdi. Çünki onun ölkəyə rəhbərliyi həyata keçirəcəyinə və dünyada sülhü güc yolu ilə bərpa edə biləcəyinə inanır. O, Ağ evə qayıdanda bunun üçün lazımi tədbirləri görəcək".

Sonda qeyd edək ki, Karolin Leavittin "dünyada sülhü güc yolu ilə bərpa etmək" məntiqi suallar doğurur. Görəsən, Tramp vədindən geri çəkiləcək? Nəzərə alaq ki, belə bir durum yaransa, Rusiya–Ukrayna müharibəsinin Üçüncü dünya müharibəsinə çevrilmə perspektivi daha real mahiyyət daşıyacaq.

Hər bir halda, Trampın komandasının gözləmə mövqeyində dayanacağını söyləyə bilərik. Bu mövqenin ömrü 2025-ci il yanvarın 20-dəkdir. Yəni, Birləşmiş Ştatların yeni Prezidentinin öz səlahiyyət müddətinin icrasına başlamasınadək. Həmin vaxtadək Rusiya təzyiqlər qarşısında duruş gətirsə, Tramp seçki kampaniyası müddətində verdiyi sözü tutmağa, daha dəqiq desək, Putinlə dil tapmağa üstünlük verəcək və bunun üçün hansısa diskomfort hiss etməyək. İndilik isə bəşəriyyət Üçüncü dünya müharibəsi olaraq qiymətləndirilən prosesIə, yəni, qoca Conun sonuncu güllələri buraxması reallığı ilə barışmalıdır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 481**

**Bakı şəhəri, 20 noyabr 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qara və əlvan metal qırıntı və tullantıları ixracının tənzimlənməsi sahəsində əlavə tədbirlər və "Qara və əlvan metal qırıntı və tullantıları ixracının müvəqqəti dayandırılması barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 17 aprel tarixli 457 nömrəli Fərmanının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 24 iyun tarixli 112 nömrəli Fərmanının

1.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164 (Cild I); 2024, № 1, maddə 127, № 2, maddə 244, № 4, maddə 465, № 7, maddələr 891, 903; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 3 sentyabr tarixli 382 nömrəli, 25 sentyabr tarixli 443 nömrəli, 15 oktyabr tarixli 453 nömrəli və 31 oktyabr tarixli 467 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 7402 00 000 0, 7403 12 000 0, 7403 13 000 0, 7403 19 000 0, 7403 21 000 0, 7403 22 000 0, 7403 29 000 0, 7405 00 000 0, 7407 10 000 0, 7407 29 000 0 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "31.12.2024-cü il" sözləri "31.12.2029-cu il" sözləri ilə əvəz edilsin;

1.2. 7403 11 000 0, 7407 21 100 0, 7407 21 900 0, 7408 11 000 0, 7408 19 100 0, 7408 19 900 0, 7408 29 000 0, 7409 11 000 0, 7409 19 000 0, 7409 21 000 0, 7409 29 000 0, 7409 31 000 0, 7409 39 000 0, 7409 90 000 0, 7411 10 100 0, 7411 10 900 0, 7411 21 100 0, 7411 21 900 0, 7411 29 000 0, 7412 10 000 0, 7412 20 000 0, 7413 00 000 0, 7415 21 000 0, 7415 29 000 0, 7415 39 000 0, 7419 20 000 0, 7419 80 000 0 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununa "1000 kq – 15 ABŞ dolları" sözlərindən sonra ", 31.12.2029-cu il tarixinədək 1000 kq – 300 ABŞ dolları" sözləri əlavə edilsin.

**2.** Bu Qərarın 1.1-ci bəndi dərc edildiyi gündən 30 (otuz) gün sonra, 1.2-ci bəndi 2026-cı il yanvarın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 482**

**Bakı şəhəri, 20 noyabr 2024-cü il**

**"Elektron alış aktının formasının, tətbiqi, uçotu və istifadəsi Qaydalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 7 iyul tarixli 243 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Elektron alış aktının formasının, tətbiqi, uçotu və istifadəsi Qaydaları"nın təsdiq edilməsi haqqında" 2020-ci il 7 iyul tarixli 243 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 973 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1 nömrəli əlavə - "Elektron alış aktı"nın forması yeni redaksiyada verilsin (əlavə olunur).

**2.** 2 nömrəli əlavə - "Elektron alış aktının tətbiqi, uçotu və istifadəsi Qaydaları" üzrə:

2.1. 2.1-ci bəndin ikinci cümləsində "və" sözü ", vergi orqanında uçotda olmayan fiziki şəxsin öz adına qeydiyyatda olan mobil nömrəyə göndərilən SMS vasitəsilə müəyyən edilmiş qaydada təsdiq edildikdən sonra" sözləri ilə əvəz edilsin;

2.2. 2.2.5-ci yarımbənddən "seriyası, nömrəsi və" sözləri çıxarılsın;

2.3. aşağıdakı məzmunda 2.2.7-1-ci və 2.2.7-2-ci yarımbəndlər əlavə edilsin:

"2.2.7-1. malın kodu;

2.2.7-2. əmtəənin qlobal identifikasiya nömrəsi (GTIN) (olduğu halda);";

2.4. 2.2.11-ci yarımbəndə "malın" sözündən sonra "cəmi" sözü əlavə edilsin;

2.5. aşağıdakı məzmunda 2.2.12-1-ci və 2.2.12-2-ci yarımbəndlər əlavə edilsin:

"2.2.12-1. cəmi;

2.2.12-2. ödəmə mənbəyində tutulan verginin məbləği;";

2.6. 2.3.4-cü yarımbəndə "alış aktının" (birinci halda) sözlərindən sonra "tarixi" sözü əlavə edilsin və həmin yarımbənddən "seriyası, nömrəsi və" sözləri çıxarılsın;

2.7. aşağıdakı məzmunda 2.3.6-1-ci və 2.3.6-2-ci yarımbəndlər əlavə edilsin:

"2.3.6-1. "Malın kodu" sütununda – malın kodu;

2.3.6-2. "Əmtəənin qlobal identifikasiya nömrəsi (GTIN) (olduğu halda)" sütununda – Qlobal standart (GS1) tərəfindən yaradılan, üzərində ştrix kodları və rəqəmləri əks etdirən, hər bir məhsul vahidini identifikasiya edən və məhsulun növündən asılı olaraq dəyişən unikal məhsul nömrəsi (olduğu halda);";

2.8. 2.3.10-cu yarımbənddə "Məbləği" sözü "Cəmi məbləği" sözləri ilə əvəz edilsin;

2.9. 2.3.12-ci yarımbənddə "Yekun" sözü "Cəmi" sözü ilə əvəz edilsin və həmin yarımbəndə "Məbləği" sözündən əvvəl "Cəmi" sözü əlavə edilsin;

2.10. aşağıdakı məzmunda 2.3.12-1-ci yarımbənd əlavə edilsin:

"2.3.12-1. "Ödəmə mənbəyində tutulan verginin məbləği" sətrində - Azərbaycan Respublikası Vergi Məcəlləsinin 150.1.14-cü maddəsinə əsasən ödəmə mənbəyində tutulan verginin məbləği;";

2.11. 2.6-cı bənddə "qeydə alındığı" sözləri "vergi ödəyicisi tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiq edildiyi" sözləri ilə əvəz edilsin;

2.12. aşağıdakı məzmunda 3.8-ci bənd əlavə edilsin:

"3.8. Ləğv edilmiş və ya düzəliş edilmiş elektron alış aktı vergi orqanında uçotda olmayan fiziki şəxs tərəfindən öz adına qeydiyyatda olan mobil nömrəyə göndərilmiş SMS vasitəsilə müəyyən olunmuş qaydada təsdiq edilir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 484**

**Bakı şəhəri, 20 noyabr 2024-cü il**

**"Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 21 iyun tarixli 1177-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 21 iyun tarixli

1177-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 9 mart tarixli

140 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2024, № 1, maddə 78) ilə təsdiq edilmiş 5 nömrəli əlavə – "Dövlət sərhədini pozan hava gəmilərinə və uçuş aparatlarına qarşı hava hücumundan müdafiə qoşunlarının növbətçi qüvvə və döyüş texnikasının tətbiq edilməsi Qaydaları"nın 5-ci hissəsinin ikinci cümləsindən "və könüllü hərbi vətənpərvərlik texniki idman cəmiyyəti" sözləri çıxarılsın.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 25 sentyabr tarixli 193 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 600 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında fövqəladə hadisələrdən müdafiə sahəsində əhalinin hazırlanması Qaydaları"nın 1.9-cu bəndinin dördüncü abzasının birinci cümləsindən "könüllü hərbi-vətənpərvərlik texniki-idman cəmiyyətlərinin," sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatında 2024-cü ilin dekabr ayında vətəndaşların qəbulu cədvəli

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Baş nazirin birinci müavini**<br>**Eyyubov Yaqub Abdulla oğlu** | **2** |
| **Baş nazirin müavini**<br>**Mustafayev Şahin Abdulla oğlu** | **3** |
| **Aparatın rəhbəri**<br>**Məmmədov Rüfət Tofiq oğlu** | **4** |
| **İqtisadiyyat şöbəsinin müdiri**<br>**Həsənova Sevinc Telman qızı** | **5** |
| **Xarici iqtisadi əlaqələr şöbəsinin müdiri**<br>**Rüstəmli Ruslan Rüstəm oğlu** | **8** |
| **Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri**<br>**Paşayev Zakir İlqar oğlu** | **9,23** |
| **Hüquq və qanunvericilik şöbəsinin müdiri**<br>**Qasımlı Xalid Akif oğlu** | **10,24** |
| **Sosial məsələlər şöbəsinin müdiri**<br>**Rəhimov Niyazi Süleyman oğlu** | **11, 25** |
| **Humanitar məsələlər şöbəsinin müdiri**<br>**Həbibbəyli Ərəstü İsa oğlu** | **12, 26** |
| **Sənaye və energetika şöbəsinin müdiri**<br>**Hacızadə Elşən Mahmud oğlu** | **13** |
| **Aqrar və ekologiya şöbəsinin müdiri**<br>**Qasımov Lətif Cəfər oğlu** | **16** |
| **Regionların inkişafı şöbəsinin müdiri**<br>**Məcidov İlkin Sabir oğlu** | **17** |
| **Tikinti, şəhərsalma və kommunal təsərrüfat şöbəsinin müdiri**<br>**Mustafayev Feyruz Rəvayət oğlu** | **18,27** |
| **Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinin müdiri**<br>**Pənahov Musa Sədi oğlu** | **19** |
| **Təhlükəsizlik, müdafiə və səfərbərlik şöbəsinin müdiri**<br>**Məmmədov Anar Rəhim oğlu** | **6,20** |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Qəbul otağında qəbul olunurlar**
**Ünvan: Bakı şəhəri, Səbail rayonu, Lermontov küçəsi, 68.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: (012) 492-19-23, (012)492-88-96.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 489**

**Bakı şəhəri, 7 noyabr 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 14 mart tarixli 124 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əmək miqrasiyası kvotasının müəyyən edilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 14 mart tarixli 124 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 790 (Cild I) ilə təsdiq edilmiş "Əmək miqrasiyası kvotasının müəyyən edilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1.5-ci bənddə "3 (üç)" sözləri "1 (bir)" sözləri ilə əvəz edilsin.

**2.** 3.1-ci bənddə "may" sözü "avqust" sözü ilə əvəz edilsin.

**3.** 4-cü hissə üzrə:

3.1. 4.1 - 4.5-ci bəndlərdə "avqust ayının 1-dək" sözləri "sentyabr ayının 15-dək" sözləri ilə əvəz edilsin;

3.2. 4.1.4-cü yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 4.1.5-ci yarımbənd əlavə edilsin:

"4.1.5. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi üzərindən əcnəbilərin iş icazəsi əsasında qüvvədə olan əmək müqavilələri üzrə təhlillər (iqtisadi fəaliyyət növləri, əməkhaqqı qrupları, peşə və vəzifələr və s. üzrə).";

3.3. 4.3-cü bəndə "üçün" sözündən sonra "tam orta təhsil bazası üzrə ümumi təhsil müəssisələrində," sözləri əlavə edilsin;

3.4. 4.4.5-ci yarımbəndə "məlumatı" sözündən sonra "(iş icazələri qüvvədə olan əcnəbilərin adlı siyahısı göstərilməklə)" sözləri əlavə edilsin;

3.5. 4.6-cı bənddə "avqust" sözü "oktyabr" sözü ilə əvəz edilsin.

**4.** 5.2-ci bənddə "sentyabr ayının 15-dək" sözləri "noyabr ayının 10-dək" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 486**

**Bakı şəhəri, 20 noyabr 2024-cü il**

**"Riskli vergi ödəyicisinin, o cümlədən riskli əməliyyatların Meyarları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 iyul tarixli 265 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1033-VIQD nömrəli Qanununun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 dekabr tarixli 2439 nömrəli Fərmanının 2.2.1-ci yarımbəndinin və 2.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Riskli vergi ödəyicisinin, o cümlədən riskli əməliyyatların Meyarları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 995 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Adı aşağıdakı redaksiyada verilsin:

"Vergi ödəyicisinin risk meyarları və vergi ödəyicisinin riskli vergi ödəyicilərinin siyahısına daxil edilməsi, həmin siyahıdan çıxarılması Qaydası və şərtləri"nin təsdiq edilməsi haqqında".

**2.** Preambulaya "icrasını" sözündən əvvəl "və "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1033-VIQD nömrəli Qanununun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 dekabr tarixli 2439 nömrəli Fərmanının 2.2.1-ci yarımbəndinin" sözləri əlavə edilsin.

**3.** Mətni aşağıdakı redaksiyada verilsin:

"Vergi ödəyicisinin risk meyarları və vergi ödəyicisinin riskli vergi ödəyicilərinin siyahısına daxil edilməsi, həmin siyahıdan çıxarılması Qaydası və şərtləri" təsdiq edilsin (əlavə olunur).".

**4.** Həmin Qərarla təsdiq edilmiş "Riskli vergi ödəyicisinin, o cümlədən riskli əməliyyatların Meyarları" üzrə:

4.1. adı aşağıdakı redaksiyada verilsin:

"Vergi ödəyicisinin risk meyarları və vergi ödəyicisinin riskli vergi ödəyicilərinin siyahısına daxil edilməsi, həmin siyahıdan çıxarılması Qaydası və şərtləri";

4.2. 1-ci hissə üzrə:

4.2.1. 1.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1.1. Bu Sənəd Azərbaycan Respublikası Vergi Məcəlləsinin (bundan sonra - Vergi Məcəlləsi) 13.2.82-ci maddəsinə uyğun olaraq hazırlanmışdır və vergi ödəyicisinin risk meyarlarını və vergi ödəyicisinin riskli vergi ödəyicilərinin siyahısına daxil edilməsi, həmin siyahıdan çıxarılması qaydasını və şərtlərini müəyyən edir.";

4.2.2. 1.2-ci bənddə "Meyarlarda" sözü "Sənəddə" sözü ilə əvəz edilsin;

4.2.3. 1.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

"1.3. Vergi ödəyicisinin riskli vergi ödəyicisi olması barədə qəbul edilmiş qərarlar həmin qərarların qəbul edildiyi gün Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin (bundan sonra - Dövlət Vergi Xidməti) rəsmi internet saytında yerləşdirilir.";

4.2.4. 1.4-cü bənddən "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında" sözləri çıxarılsın və həmin bəndə "elektron qaimə-faktura sistemi" sözlərindən sonra "və (və ya) əlavə dəyər vergisinin depozit hesabı" sözləri əlavə edilsin;

4.3. 2-ci hissə üzrə:

4.3.1. 2.1.1-ci, 2.1.2-ci və 2.1.3-cü yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"2.1.1. təqdim edilməsi müvafiq iqtisadi resurs tələb edən (təsərrüfat obyekti, işçi qüvvəsi, əsas vəsaitlər, xammal-material ehtiyatları və fəaliyyət növünün xüsusiyyətləri nəzərə alınmaqla digər iqtisadi resurslar) iş və xidmətləri bu növ resurslar mövcud olmadan və ya mövcud resursları yetərli olmadan, yaxud subpodratçı cəlb etmədən təqdim edən şəxs;

2.1.2. qanunvericiliyin tələblərinə uyğun olaraq tərtib edilmiş elektron qaimə-faktura, malların alış aktı və yük gömrük bəyannamələri (idxal olunan mallara münasibətdə) əsasında əldə edilməyən malları (əvvəllər keçirilmiş operativ vergi nəzarəti və ya səyyar vergi yoxlaması zamanı sənədsiz mal kimi rəsmiləşdirilən mallar, notarial qaydada təsdiq edilmiş müqavilələr əsasında əldə edilmiş rəsmi reyestrdə qeydiyyata alınmış əmlaklar, istehsal zamanı əldə edilən (söküntüdən, hasilatdan) mallar və əsas vəsaitlər, o cümlədən nizamnamə kapitalına qoyulmuş əsas vəsaitlər istisna olmaqla) təqdim edən şəxs;

2.1.3.Vergi Məcəlləsinin 13.2.81-ci maddəsinə əsasən əmtəəsiz əməliyyatlar aparan şəxs. ";

4.3.2. 2.1.4 - 2.1.8-ci yarımbəndlər ləğv edilsin;

4.4. 3-cü hissə ləğv edilsin;

4.5. aşağıdakı məzmunda 4-cü hissə əlavə edilsin:

"4. Vergi ödəyicisinin riskli vergi ödəyicisi siyahısına daxil edilməsi və həmin siyahıdan çıxarılması qaydası və şərtləri

4.1. Bu Sənədin 2.1-ci bəndində nəzərdə tutulan meyarlardan ən azı birinə cavab verən əməliyyat üzrə vergi ödəyicisinə, habelə müvafiq əməliyyat üzrə həmin şəxsin təqdim etdiyi elektron qaimə-faktura üzrə malların (iş və xidmətlərin) alıcısına əməliyyatın aparıldığı (elektron qaimə-fakturanın təsdiq edildiyi) tarixdən 15 iş günü ərzində aparılmış əməliyyatın riskli olması barədə bildiriş-xəbərdarlıq göndərilir. Bildiriş-xəbərdarlıq elektron üsulla həmin şəxslərin elektron kabinetinə göndərilir. Bildiriş-xəbərdarlıqda əməliyyatların riskli hesab edilməsinə əsas yaradan halların aradan qaldırılması, əməliyyat üzrə təqdim edilmiş elektron qaimə-fakturanın ləğv edilməsi, əlavə izahat, əməliyyatın həqiqiliyini təsdiq edən məlumat və sənədlərin təqdim edilməsi tələb olunur.

4.2. Bildiriş-xəbərdarlıq göndərildikdən sonra 5 (beş) iş günü ərzində qeyd olunan hallar bütövlükdə aradan qaldırılmadıqda, əməliyyat üzrə təqdim edilmiş elektron qaimə-faktura ləğv edilmədikdə, habelə tələb olunan əlavə izahat, əməliyyatın həqiqiliyini təsdiq edən məlumat və sənədlər təqdim edilmədikdə Dövlət Vergi Xidməti tərəfindən vergi ödəyicisinin riskli vergi ödəyicisi olması barədə qərar qəbul edilərək 1 (bir) iş günü ərzində elektron üsulla vergi ödəyicisinin elektron kabinetinə göndərilir və əmtəəsiz əməliyyatla bağlı Vergi Məcəlləsinin 58.15-1-ci maddəsinə uyğun olaraq maliyyə sanksiyası tətbiq edilir. Vergi ödəyicisinin riskli vergi ödəyicisi olması barədə qərar həmin qərarın qəbul edilməsinə əsas olan əməliyyatın aparıldığı tarixdən qüvvəyə minir.

4.3. Bu Sənədin 2.1.1-ci yarımbəndinə əsasən vergi ödəyicisinin mövcud resurslarının müvafiq işlərin görülməsi və ya xidmətlərin göstərilməsi üçün yetərli olmaması halı üzrə vergi ödəyicisinin riskli vergi ödəyicilərinin siyahısına daxil edilməsi bu Sənədin 4.1-ci bəndi ilə müəyyən edilmiş müddətdə vergi orqanı tərəfindən "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 41-ci maddəsinə əsasən cəlb edilmiş mütəxəssisin yazılı şəkildə bildirdiyi fikri və ya ekspertin rəyi əsasında həyata keçirilir.

4.4. Aparılmış əməliyyat üzrə barəsində riskli vergi ödəyicisi elan edilməsi ilə bağlı qərar qəbul edilmiş vergi ödəyicisinin riskli vergi ödəyiciləri siyahısından çıxarılması bu Sənədin 4.5-ci bəndində nəzərdə tutulan tələblər nəzərə alınmaqla, vergi ödəyicisinin elektron qaydada təqdim etdiyi ərizəsi əsasında həyata keçirilir. Vergi ödəyicisinin ərizəsinə əməliyyatların riskli hesab edilməsinə əsas yaradan halların aradan qaldırılması ilə bağlı və ya əməliyyatın həqiqiliyini təsdiq edən məlumat və sənədlər əlavə edilir.

Digər dövlət orqanından (qurumundan) daxil olan məlumata və ya vergi nəzarəti tədbirinin nəticəsinə əsasən riskli vergi ödəyicisi elan edilməsi ilə bağlı qərar qəbul edilmiş vergi ödəyicisinin riskli vergi ödəyiciləri siyahısından çıxarılması vergi orqanının təşəbbüsü ilə həyata keçirilə bilər.

4.5. Aşağıdakı hallarda vergi ödəyicisinin riskli vergi ödəyicisi siyahısından çıxarılması ilə bağlı qərar qəbul edilir:

4.5.1. vergi ödəyicisinin təqdim etdiyi əlavə izahat, əməliyyatın həqiqiliyini təsdiq edən məlumat və sənədlər, keçirilmiş xronometraj müşahidələrin nəticələri barədə məlumatlar əsasında, habelə vergi nəzarəti ilə rəsmiləşdirilmiş əməliyyatlar, əməliyyatların həqiqiliyini təsdiq edən dövlət orqanlarının (qurumlarının) təsdiqedici sənədləri və ya məlumatları ilə əməliyyatların riskli hesab edilməsinə əsas yaradan halın olmadığı aşkar edildikdə;

4.5.2. aparılmış əmtəəsiz əməliyyata münasibətdə riskli vergi ödəyicisi tərəfindən Vergi Məcəlləsinin 58.15-1-ci maddəsində nəzərdə tutulmuş maliyyə sanksiyası tam həcmdə ödənildikdə.

4.6. Bu Sənədin 4.7-ci bəndi nəzərə alınmaqla, bu Sənədin 4.4-cü bəndində nəzərdə tutulan ərizə daxil olduğu tarixdən etibarən 20 iş günü müddətində vergi orqanı tərəfindən baxılaraq vergi ödəyicisinin riskli vergi ödəyicisi siyahısından çıxarılması və ya bundan imtina olunması barədə qərar qəbul edilir və 1 (bir) iş günü müddətində vergi ödəyicisinin elektron kabinetinə göndərilir.

4.7. Bu Sənədin 4.5.2-ci yarımbəndi ilə müəyyən edilmiş şərtə əməl edildikdə bu Sənədin 4.4-cü bəndində nəzərdə tutulan ərizənin daxil olduğu tarixdən 3 (üç) iş günü müddətində vergi ödəyicisinin aparılmış əməliyyat üzrə riskli vergi ödəyicisi siyahısından çıxarılması barədə qərar qəbul edilir və 1 (bir) iş günü müddətində vergi ödəyicisinin elektron kabinetinə göndərilir.

4.8. Bu Sənədin 4.5-ci bəndində göstərilən tələblərə tam və ya qismən əməl edilməməsi aparılmış əməliyyat üzrə vergi ödəyicisinin riskli vergi ödəyicisi siyahısından çıxarılması ilə bağlı müraciətinə imtina edilməsi üçün əsasdır.

4.9. Bu Sənəddə nəzərdə tutulmuş hallarda vergi ödəyicisindən sənədlərin və məlumatların tələb edilməsi Vergi Məcəlləsinin 24.2-ci maddəsinin tələbi nəzərə alınmaqla həyata keçirilir.

4.10. Vergi ödəyicisi vergi orqanı tərəfindən bu Sənədin 4.2-ci və 4.6-cı bəndlərinə uyğun olaraq qəbul edilmiş qərarlardan inzibati qaydada və məhkəməyə şikayət verə bilər.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

COP29 Baku Azerbaijan
COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024
COP29 Baku Azerbaijan

# Azərbaycan milli elmdən tərəqqi və rifah impulsları gözləyir

**Müsahibimiz AMEA-nın akademik-katibi, Elm və Təhsil Nazirliyi Fizika İnstitutunun direktoru, akademik Arif Həşimovdur.**

**– Arif müəllim, qarşıda AMEA-nın 80 illik yubileyi gəlir. Uzun illər bu elm ocağında rəhbər vəzifələrdə çalışmısınız, Azərbaycan elminin inkişafına mühüm töhfələr vermisiniz. Son illər AMEA-da aparılan islahatları, elmin tərəqqisi yönündə həyata keçirilən tədbirləri necə qiymətləndirirsiniz?**

– Əvvəlcə onu qeyd edim ki, AMEA-da aparılan islahatlar təkcə akademiyanın deyil, bütövlükdə Azərbaycan elminin gələcək inkişafına yönəlmişdir. Təkcə bu gün əldə olunan nailiyyətlərlə kifayətlənmək yox, eyni zamanda həm keçmişə, həm də gələcəyə baxmaq, bütün dövrləri təhlil etmək lazımdır. Hər kəsə məlumdur ki, AMEA-nın 80 illik yubileyi yaxınlaşır. Tarixi nöqteyi-nəzərdən 80 rəqəmi o qədər də böyük deyil. Lakin mən hesab edirəm ki, bu illər ərzində Azərbaycan elmində əhəmiyyətli nailiyyətlər əldə olunmuşdur. Həmin nailiyyətlərin qazanılmasında təkcə AMEA və onun elmi müəssisələrinin deyil, həm də respublikanın bütün elmi tədqiqat qurumları, ali təhsil ocaqları və əlbəttə ki, elmlə məşğul olan hər kəsin payı vardır.

Ölkəmizdə elm sahəsində aparılan islahatlara gəldikdə, təbii ki, indiki dövrdə bu istiqamətdə həyata keçirilən tədbirlər əsasən XXI əsrin tələblərinə, qlobal çağırışlara cavab verməli və əvvəlki illərlə müqayisədə fərqlənməlidir. Müasir dövrdə bütün cəmiyyət, bəşəriyyət elmdən daha böyük nailiyyətlər, yeniliklər gözləyir. Aydın məsələdir ki, dünyada gedən rəqəmsallaşma prosesləri, IV Sənaye İnqilabı və süni intellektin gətirdiyi yeniliklər, eyni zamanda, informasiya bolluğu elmin qarşısında yeni vəzifələr, prioritetlər qoyur. Bütün bunlar AMEA-da da dünya elminin tələblərinə cavab verən elmi tədqiqatların aparılmasını, gələcək inkişafa ünvanlanmış yeni islahatların həyata keçirilməsini tələb edir.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin rəhbərliyi dövründə və birbaşa onun təşəbbüsü ilə Azərbaycan elminin inkişafı və beynəlxalq aləmə sürətli inteqrasiyası istiqamətində yenilikçi islahatlara təkan verilib. Bu islahatların əsas fərqi ondan ibarətdir ki, elmin, alim və ziyalıların qarşısına tamamilə yeni vəzifələr qoyulub. Təbii ki, həyata keçirilən bütün tədbirlər Sovet və keçid dövründə aparılan islahatlardan fərqlənir. Bu gün Azərbaycan müstəqil və öz torpaplarını işğaldan azad etmiş bir ölkə kimi bütün dünyada yüksək nüfuza, strateji mövqeyə malikdir.

Xüsusilə qeyd etməliyəm ki, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın son illərdə qazandığı nailiyyətlər ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş məqsədyönlü siyasətin məntiqi davamı və real nəticəsidir. Təbii ki, Azərbaycan alimlərinin də, AMEA üzvlərinin də əsas ümdə vəzifələrindən biri bu strateji xəttin davamı kimi, Azərbaycan elminin inkişafını sürətləndirmək, beynəlxalq aləmə inteqrasiyasını təmin etmək, alim və ziyalılarımızın mühüm elmi nailiyyətlərini dünyaya tanıtmaqdır.

**– Müasir dövrdə ölkəmizdə energetika sahəsində aparılan tədqiqatlar və əldə olunan nəticələr sizi qane edirmi? Bu istiqamətdə hansı problemlərin araşdırılması zəruridir?**

– Bu sual təkcə elm ictimaiyyətini deyil, həm də, bütövlükdə, respublikanı əhatə edir. Çünki hər bir ölkənin inkişafı və gələcəyi onun energetika təhlükəsizliyi ilə birbaşa bağlıdır. Bu gün Azərbaycanda energetika sahəsində aparılan uğurlu dövlət siyasətinin nəticəsidir ki, ölkəmiz enerji təhlükəsizliyi baxımından özünü tam təmin edir. Əminliklə demək olar ki, Azərbaycanda elektroenergetika sistemi artıq dünyanın bu sahədə ən qabaqcıl sistemlərindən birinə çevrilmişdir. Son illər energetika sistemində tikilən ən müasir tipli elektrik stansiyaları, elektrik veriliş xətləri və həyata keçirilən digər məqsədyönlü tədbirlərin hesabına Azərbaycanda elektrik enerjisinin təminatı nəinki yaxşılaşmış, həm də onun keyfiyyəti artmış, eyni zamanda, bir kilovat/saat elektrik enerjisinə düşən yanacağın sərfi də xeyli azalmışdır. Nəticədə, böyük həcmdə yanacağa qənaət edilmişdir.

Məlumdur ki, Azərbaycanda ölkənin təbii potensialından istifadə etməklə alternativ enerji mənbələrinin inkişafı dövlət başçısı tərəfindən xüsusi diqqət yetirilən əsas məsələlərdən biridir. Bu istiqamətdə kifayət qədər işlər görülüb və hazırda da davam etdirilməkdədir.



Azərbaycanda etibarlı elektrik enerjisi təminatının, energetika sisteminin inkişafının əsasında böyük zəhmət və əmək dayanır. Çünki, sistem istehsal etdiyi enerjini həm də satmalıdır. Bu istiqamətdə də ölkəmizdə xeyli iş görülüb. Enerji sisteminin müasirləşdirilməsi, rəqəmsallaşdırılması, onun idarə olunması, eləcə də, süni intellektdən istifadə əsasında aparılan tədqiqat işləri və onların praktikada tətbiqi sistemin dayanıqlığı sahəsində ciddi uğurların əldə olunmasına gətirib çıxarmışdır. Eyni zamanda, müvafiq sahədə müasir tələblərə cavab verən yüksəkixtisaslı kadr potensialının formalaşdırılması sahəsində mühüm tədbirlər görülmüşdür.

Bundan əlavə, Azərbaycanın enerji təhlükəsizliyinin dayanıqlı, etibarlı inkişafının təmin edilməsi istiqamətində görülən işləri bir-biri ilə əlaqələndirmək lazımdır. Alternativ enerji mənbələrinin – su, Günəş, külək və s. əsasında böyük stansiyaların tikilməsi, quraşdırılması və onların sistemə qoşulması prosesində müəyyən problemlər vardır. Onların həlli üçün çevik yanaşmalar, böyük manevretmə qabiliyyətinə malik sistemin qurulması tələb olunur. Əgər bu kimi problemlər öz həllini tapmazsa, həmin enerji mənbələrinin yaradılması, sistemə qoşulması üçün müəyyən maneələr yarana bilər. Ona görə də bu gün Azərbayan energetikləri, bu sahədə fəaliyyət göstərən alim və mütəxəssislərin qarşısında çox ciddi, taleyüklü vəzifələr dayanır. Bu istiqamətdə fəaliyyət uğurla davam etdirilsə də, qarşıda görüləcək işlər hələ çoxdur. Yəni, sistemdə çevik dəyişmələrə cavab verən infrastruktur yaradılmalıdır. Nəzərinizə çatdırım ki, elektrik enerjisinin istehsala ötürülməsi və istehlakı eyni vaxtda gedir. Yəni, elektrik enerjisinin saxlanması, qorunması və istifadə edilməsi üçün də yeni yanaşmalar formalaşmışdır. Azərbaycan energetikləri, elmi-tədqiqatla məşğul olan mütəxəssislər bu sahədə də geniş səpkili işlər yerinə yetirirlər.

Onu da qeyd edim ki, yeni yanacaq növlərinin, məsələn hidrogen energetikasının istifadə problemləri üzərində də artıq bir müddətdir ki, müzakirələr aparılır, əməli addımlar atılır. Həmçinin tullantı qazlarının tutulması, gələcəkdə onlardan istifadənin qarşısının alınması və müəyyən həddə saxlanılması istiqamətində müvafiq tədbirlər görülür, praktiki işlərin yerinə yetirilməsi üçün innovativ layihələrin həyata keçirilməsi planlaşdırılır.



**– Bərpaolunan və alternativ enerji mənbələrindən istifadənin mövcud vəziyyəti və perspektivləri barədə də fikirlərinizi öyrənmək istərdik. Zəruri tədbirlər görülməzsə, cəmiyyəti hansı təhlükələr gözləyir?**

– Sualın cavabına keçməzdən əvvəl qeyd edim ki, ölkəmizdə energetika sahəsində bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi Prezident İlham Əliyev tərəfindən prioritet vəzifə olaraq irəli sürülüb. Azərbaycan 2030-cu ilə qədər bərpaolunan enerjinin payını 30 faizə çatdırmağı hədəfləyir.

Əvvəlki illərdə aparılan tədqiqatlar nəticəsində, alternativ və bərpaolunan elektrik stansiyalarında elektrik enerjisi istehsalının həcmi ümumi istehsalda artmaqdadır. Hazırda respublikamızın digər regionlarında, o cümlədən Naxçıvanda yeni Günəş elektrik stansiyalarının tikintisi davam etdirilir. Stansiyadan alınan nəticələr göstərdi ki, elektrik stansiyasının tikilməsi üçün düzgün ərazinin seçilməsi əsas şərtlərdən biridir.

Bundan başqa, dövlət başçısının iştirakı ilə respublikanın müxtəlif bölgələrində bir sıra stansiyaların təməlqoyma mərasimləri keçirilib, həmçinin ölkəmizin enerji potensialını gücləndirəcək böyük stansiyalar istifadəyə verilmə ərəfəsindədir. Günəş, külək elektrik stansiyalarından sonra işğaldan azad edilmiş Qarabağ torpaqlarında çoxlu sayda kiçik su elektrik stansiyaları tikilib. Bu ərazilərdə indiyədək 270 meqavat gücündə 32 su elektrik stansiyası istismara verilib.

Ölkəmizdə su potensialından tam səmərəli istifadə etmək üçün "AzərEnerji" ASC tərəfindən bir sıra stansiyaların tikintisi davam etdirilməkdədir. Yaxın gələcəkdə işğaldan azad olunmuş ərazilərin, ətraf rayonların elektrik enerjisi təchizatını alternativ enerji mənbələrinin, əsas da su elektrik stansiyalarının hesabına təmin etmək mümkün olacaq. Bu stansiyaların hər biri həm də ölkənin ümumi enerji sisteminə inteqrasiya olunub.

Qeyd etdiyim kimi, elektrik enerjisinin istehsalından başqa, onun ötürülməsi də böyük problemlərdən biridir. Bu səbəbdən hazırda elektrik veriliş xətlərinin çəkilməsi, bu zaman ekoloji problemlərin həlli və digər məsələlər kompleks şəkildə araşdırılır.

Bundan başqa, Azərbaycan və İran arasındakı dövlət sərhədində yerləşən, Araz çayı üzərində tikilmiş "Xudafərin" və "Qız qalası" su elektrik stansiyalarının tikintisi başa çatdıqdan sonra ucuz elektrik enerjisi istehsalı respublikamızın enerji sisteminə tam şəkildə qoşulmaqla enerji təhlükəsizliyinin, enerji təminatının keyfiyyətini daha da artıracaqdır.

Eyni zamanda, bu stansiyaların tikilməsi su problemlərinin həllində, yəni su anbarları kimi istifadə olunmasında da böyük əhəmiyyət kəsb edir.

Xatırladım ki, Azərbaycan dünyada su ehtiyatları az olan ölkələrdən biridir. Bu səbəbdən xeyli sayda su anbarları tikilmişdir. Məlumdur ki, ölkənin ən böyük çayları olan Kür və Araz öz mənbələrini başqa ölkələrdən götürürlər. Yəni, bizim su ehtiyatlarımız, adətən, qonşu dövlətlərdə formalaşır. Bu səbəbdən həmin çaylardan səmərəli istifadə etmək üçün süni göllərin yaradılmasına da ehtiyac vardır. Bu süni göllər elektrik enerjisinin alınmasında çox əhəmiyyətlidir.

Respublika ərazisində ən böyük su anbarı Mingəçevir su anbarıdır ki, Yuxarı Qarabağ, Aşağı Qarabağ kanalları bu su-elektrik stansiyasının (SES) hesabına tikilmişdir. Mingəçevir SES-in istehsal etdiyi elektrik enerjisi su ilə yanaşı, ölkəmizin enerji təchizatında da xüsusi önəm daşıyır.

**– Bildiyimiz kimi, bu il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan olunub. Həmçinin ölkəmiz COP29 kimi mötəbər bir tədbirə ev sahibliyi edir. Sizcə bu tədbir Azərbaycanda "yaşıl təfəkkür"ün formalaşması, ekoloji problemlərin həlli istiqamətində hansı töhfələr verəcək?**

– Prezident İlham Əliyevin ölkəmizdə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında sərəncamında Azərbaycanın beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verdiyi qeyd olunub. Sənəddə, eyni zamanda, respublikamızın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair 5 milli prioritetindən birinin "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyənləşdirildiyi bildirilib.

Həmin prioritetə uyğun olaraq ölkəmizdə artıq ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından, həmçinin dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin gerçəkləşdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsinə başlanılıb.

Qürur hissi ilə qeyd etməliyəm ki, ötən əsrdə iqtisadi fəaliyyətin ekosistemin ekoloji tutumundan kənara çıxmasının gözlənilən fəsadlarına dair ilk çağırışları edən ümummilli lider Heydər Əliyevin qardaşı, görkəmli alim, akademik Həsən Əliyev olmuşdur. Bu, həm də onun sübutudur ki, Azərbaycanda "yaşıl təfəkkür"ün, ekoloji düşüncənin tarixi heç də son onilliklərdəki dünyanın yeni çağırışları ilə bağlı deyildir. Bizim elmi fikir tariximizdə belə mütərəqqi yanaşmaların tarixi xeyli əvvəlki dövrlərə təsadüf edir. Belə ki, SSRİ EA və müttəfiq respublikaların elmlər akademiyaları arasında ilk dəfə olaraq 1955-ci ildə Azərbaycan EA Rəyasət Heyəti nəzdində Təbiəti Mühafizə Komissiyası təşkil edilmişdir. Bu komissiyaya akademik Həsən Əliyev başçılıq etmişdir.

Azərbaycan COP29-un evsahibi olaraq, BMT-nin bu nüfuzlu tədbirinə ciddi hazırlıq və təşkilatı işlər görmüşdür. Ona görə də tədbir gözlənildiyindən də yüksək səviyyədə baş tutmuşdur. İştirakçı ölkələr planetimizin qorunması ilə bağlı görülən işlər, mövcud problemlər və onların həlli yollarına dair hesabatlarını təqdim etmişlər. Bundan başqa, COP29 çərçivəsində qlobal təhlükəsizliyi təmin edən enerji mənbələrindən istifadənin vacibliyi diqqətə çatdırılmış və müvafiq qərarlar qəbul olunmuşdur.

Prezident İlham Əliyev COP29 öncəsi tədbir iştirakçılarına müraciətində demişdir: "Mən COP29-da tarixi razılaşmanın – "Bakı Sazişi"nin əldə olunmasını gözləyirəm". Düşünürəm ki, bu, olduqca böyük əhəmiyyətə malik çıxışdır. Əgər həmin sazişin imzalanması gerçəkləşsə, Azərbaycanın adı tarixə qızıl hərflərdə yazılacaq. Bu razılaşmanın əhəmiyyətini indi tam dərk edə bilməsək də, bir neçə ildən sonra daha dolğun şəkildə ifadə etmək mümkün olacaq. Hər bir alim öz çıxışında və hazırladığı statistik məlumatlarda tullantıların həcmi, görülən işlər və gözləntilər haqqında məlumat verir. Lakin gələcəkdə bu işləri daha da təkmilləşdirmək və problemləri aktuallaşdırmaq üçün "Bakı Sazişi"ndən böyük gözləntilər var.

COP29-un əsas vəzifələrindən biri, bütün tərəflərin ehtiyaclarını nəzərə alan iqlim maliyyəsi üçün aydın və iddialı yeni kollektiv kəmiyyət hədəfi müəyyən etməkdir. Yəni, bütün dünya bu sahədə görülən işlərin maliyyələşmə mexanizmini ortaya qoymalıdır. Bundan sonrakı işlər "Bakı Sazişi"ndən asılı olacaq və bu məsələ həllini tapsa, ölkə Prezidentinin dediyi kimi, böyük tarixi bir məsələnin həlli təmin olunacaq.

Mən ölkəmizin daha da yaxından tanıdılması baxımından COP29-un əhəmiyyətini xüsusi qeyd etməliyəm. Prezident İlham Əliyevin 2021-ci il 2 fevral tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədi müasir dünyanın çağırışlarını bütün istiqamətlərdə tam şəkildə əhatə edir. Düşünürəm ki, COP29-da bu sənəddə əks olunan məsələlər bir daha nümayiş etdiriləcək.

*Müsahibəni apardı:*
***Nərgiz QƏHRƏMANOVA,***
***AMEA Rəyasət Heyəti aparatının sektor müdiri***

# Mədən yanacağı istiləşmə mənbəyidir

## *“Təmiz” enerji növlərinə keçid isə günün zəruri tələbidir*



**Bəşəriyyət neft, təbii qaz və kömürdən istifadəni azaltmaq əvəzinə, getdikcə daha çox mədən enerji mənbələrini istehlak edir. Cari ildə bunun hesabına emissiyaların rekord həddə çatacağı gözlənilir. Bu barədə məlumatlar dünyanın müxtəlif ölkələrindən 120 alimin iştirak etdiyi beynəlxalq “Global Carbon Project” hesabatında yer alıb. Bildirilib ki, 2024-cü ildə atmosferə istixana qazları tullantılarının həcmi 2023-cü illə müqayisədə 0,8 faiz artaraq 37 milyard 400 milyon ton təşkil edəcək.**

Planetin atmosferində CO2 konsentrasiyası milyonda 422,5 hissə (hissəciklər) olacaq. Bu, sənayeləşmədən əvvəlkindən 50 faiz çoxdur. Onun azalmasına nail olmaq üçün qlobal sənayenin zərərli qazların emissiyalarını azaltması kifayət deyil. Onların istehsalını tədricən dayandırmaq lazımdır. Dünyanın iqlim dəyişikliyinin ən pis təsirlərinin qarşısını almaq üçün qlobal istiləşməni 1,5 dərəcə ilə məhdudlaşdırmaq məqsədinə çatmaq üçün cəmi bir neçə il var.

Böyük Britaniyanın Ekster Universitetindən tədqiqatçı Pierre Friedlingstein xəbərdarlıq edib ki, COP29-da toplanan dövlət və hökumət başçıları əgər istiləşməni sənayedən əvvəlki səviyyədən 2 dərəcədən çox aşağı saxlamaq istəyirsə, qalıq yanacaq emissiyalarını tez və ciddi şəkildə azaltmalıdırlar.

Tədqiqatçılar planetdəki bütün istixana qazları tullantılarının demək olar ki, üçdə birinin Çinin payına düşdüyünü bildiriblər. Amma bu il Çin üçün bu göstəricinin artımı cüzi olacaq. Cəmi 0,2 faiz artım proqnozlaşdırılır. “NewClimate Institut”-dan iqlim tədqiqatçısı Niklas Höhnenin fikrincə, bu, Çinin dönüş nöqtəsinə çatdığı anlamına gələ bilər. Alim hesab edir ki, ölkədə elektromobillərin aktiv istehsalı və istifadəsi CO2 emissiyalarının bu qədər cüzi dərəcədə artmasına səbəb olur. O ümid etdiyini bildirib ki, dünyada artan enerji aclığı fonunda bərpa olunan enerji mənbələri tezliklə bazarda qalıq yanacaqları sıxışdırıb çıxara biləcək.

Dünyadakı karbon emissiyasının 0,13 faizi isə Azərbaycanın payına düşür. Bunu İqtisadiyyat Nazirliyinin şöbə müdiri Hüseyn Hüseynov Dövlət Vergi Xidmətinin təşkilatçılığı ilə Bakıda keçirilən karbon qiymətləndirilməsi üzrə beynəlxalq konfransda “Karbon vergisinin iqtisadi təsirləri” mövzusunda sessiyada bildirib.

Onun sözlərinə görə, bu nisbət kifayət qədər kiçik olsa da, diqqətdən kənarda qalmamalıdır: “Çünki bizim başqa planetimiz yoxdur. Buna görə də qlobal çağırışlara müsbət töhfə vermək üçün siyasətimizi və karbonsuzlaşdırma strategiyalarımızı inkişaf etdirməyə davam etməliyik. Azərbaycanın 2040-cı ilədək emissiyaları 40 faiz azaltmaq öhdəliyi var. Bununla belə, biz xalis sıfır emissiya ssenarisini də nəzərdən keçirə bilərik. Bu ssenari qəbul ediləcək strategiya üçün müxtəlif iqtisadi sektorların təsirlərinin ətraflı təhlilini tələb edir”.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# İqlim maliyyəsində Qlobal Şimalın məsuliyyəti

**Böyük Britaniyanın QHT-nin nümayəndəsi Əsəd Rəhman COP29 sessiyası çərçivəsində keçirilən mətbuat konfransında bildirib ki, Qlobal Şimal ölkələri təkcə 2030-cu ilə qədər dekarbonizasiya olunmamalı, həm də iqlim böhranının təsirlərinin yumşaldılması səylərinin “pulsuz istifadəsini” dayandırmaq üçün 1 trilyon maliyyə vəsaiti təmin etməlidir. ABŞ, Böyük Britaniya, Avropa İttifaqı, Yaponiya və Avstraliya Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələrini iki və ya hətta üç dəfə artırmalıdır.**




“Oil Change International” QHT-nin nümayəndəsi Kolin Risa isə deyib ki, ABŞ-nin, eləcə də Qlobal Şimalın maliyyə çatışmazlığı ilə yanaşı, bu konfransda təsirlərin yumşaldılması və qalıq yanacaqdan imtina məsələsində də ciddi fəaliyyəti nəzərə çarpmır. Halbuki həmin ölkələr problemi həll etmək gücündədir. ABŞ-da bu gün də qalıq yanacaq hasilatının artırılması davam edir, bərpaolunan enerji mənbələri üçün bəzi subsidiyaların verilməsinə və mühüm addımların atılmasına baxmayaraq neft-qaz sənayesinə qarşı tədbirlər görülmür. Beləliklə, iqlim böhranının əsas səbəbi olan qalıq yanacaq məsələsi həllini tapmır.

“Bu tendensiya indi də davam edir, biz görürük ki, həmin Qlobal Şimal ölkələri təsirlərin daha çox yumşaldılmasını istədiklərini söyləyərək digər ölkələri aldadır. Bu problem əvvəlcə öz daxilində həll edilməlidir. Sözügedən çətinliklərin əsas günahkarları olan Qlobal Şimalın və xüsusilə ABŞ-nin qalıq yanacaqdan imtina ilə bağlı danışması böyük səhvdir”, – K.Risa bildirib.

# Son 1 ildə emissiyalar 1,3 faiz artıb

**BMT-nin Ətraf Mühit Proqramının icraçı direktoru İnger Andersen “İqlim, təbiət və insanlar üçün su həyat xəttinin təbliği” adlı konfransda çıxışı zamanı hazırda dünyada 3 milyarda yaxın insanın su qıtlığından əziyyət çəkdiyini, bir çox problemin su çatışmazlığından yarandığın,ı 2023-cü ildən bəri isə emissiyaların 1,3 faiz artdığını vurğulayıb.**



Konfransda çıxış edən digər natiqlərin gəldikləri ümumi qənaət isə belə olub ki, iqlim dəyişikliyi indi bir reallıqdır. Bunu hamı hiss edir, təkcə Azərbaycanda deyil, dünyanın bir çox ölkələrində quraqlıq və su çatışmazlığından əziyyət çəkilir. İqlim dəyişikliyinin təsirləri ilə bağlı proqnozlar da onu göstəriri ki, su ehtiyatlarının azalması bundan sonra da davam edəcək. Ölkələr bunun öhdəsindən gəlmək üçün adaptasiya planları hazırlamalıdırlar.

Azərbaycandakı mövcud su problemlərinə gəldikdə isə, şübhəsiz ki, bu, təkcə kənd təsərrüfatı və suvarma ilə bağlı deyil, həm də sudan istifadə edən bütün sahələrə aiddir. Beləliklə, su ehtiyatlarının qorunması ilə bağlı bütün cəmiyyət məsuliyyət hiss etməlidir.

# İstanbul forumunda “yaşıl” enerji müzakirələri

**İstanbul Enerji Forumu çərçivəsində Azərbaycanın energetika naziri Pərviz Şahbazov və Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktarın iştirakı ilə enerji əməkdaşlığının inkişafı məqsədilə ikitərəfli, üçtərəfli və dördtərəfli formatlarda görüşlər keçirilib. Bu barədə XQ-yə Energetika Nazirliyindən məlumat verilib.**



Bildirilib ki, nazirlərin ikitərəfli görüşündə Pərviz Şahbazov forumun keçirilməsi və BOTAŞ şirkətinin 50 illik yubileyi münasibətilə təbriklərini çatdırıb, həmçinin COP29-da iştiraka görə təşəkkürünü bildirib. Müzakirələr zamanı ikitərəfli enerji əməkdaşlığının prioritet məsələləri və gələcək perspektivləri nəzərdən keçirilib. Türkiyəyə və buradan Avropaya “yaşıl” enerji və qazın tədarükü ilə bağlı müştərək layihələrin inkişafından bəhs edilib.

Forum çərçivəsində, həmçinin Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar, Azərbaycanın energetika naziri Pərviz Şahbazov, Gürcüstanın Baş nazirinin birinci müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Levan Davitaşvili və Bolqarıstanın energetika naziri Vladimir Malinovun iştirakı ilə “yaşıl” enerji sahəsində müzakirələr aparılıb.

Söhbət zamanı Naxçıvan üzərindən “Azərbaycan – Türkiyə – Avropa” “yaşıl” enerji dəhlizi layihəsinin cari vəziyyətinə nəzər salınıb. Xəzər dənizi və Mərkəzi Asiyadan bərpaolunan enerjinin Gürcüstan və Türkiyə vasitəsilə Avropaya müxtəlif marşrutlarla çatdırılması imkanları dəyərləndirilib. Müzakirələrin nəticəsi olaraq dörd ölkə arasında “yaşıl” enerji əməkdaşlığı üzrə müvafiq addımların atılması razılaşdırılıb.

# “Azərkosmos” kiçik ada dövlətlərinə dəstək olacaq

**Millətlər Birliyi Təşkilatının baş katibi Patrisia Canet Skotland COP29 Azərbaycan Əməliyyat Şirkətinin təşkilatçılığı ilə “İqlim dəyişmələri şəraitində kiçik ada dövlətləri və icmaların ekosistemləri” adlı panel sessiyada inkişaf etməkdə olan əksər kiçik ada dövlətlərinin geoməkan məlumatlarına çıxışı olmadığını bildirib.**

O açıqlamasında deyib: “İqlim dəyişikliyi ilə mübarizədə xüsusilə inkişaf etməkdə olan kiçik ada dövlətlərinə kömək etmək üçün birlikdə çalışmalıyıq. Bu istiqamətdə ən son sənəd Millətlər Birliyi Təşkilatının Katibliyi ilə “Azərkosmos” arasında imzalanıb. Bu da bizə “Azərkosmos”un geoməkan məlumatlarından istifadə etməyə imkan verir”. P.Skotland bildirib ki, bu bilik mübadiləsi həllərin tapılmasına kömək edir, çünki əksər kiçik ada dövlətlərinin geoməkan məlumatlarına çıxışı yoxdur. Hətta bu məlumatlara çıxışları olduğu halda belə, çox vaxt onlara kömək edəcək yerli mütəxəssislər çatışmır.

Onun sözlərinə görə, Millətlər Birliyi Təşkilatına üzv olan 25 ada dövlətindən azı 23-ü təbiət əsaslı dəniz səddinə ehtiyac duyur. İndi həmin ada dövlətlərində geoməkan məlumatları və süni intellekt simulyatoru var. Üstəlik, müəyyən maliyyələşmə ilə bağlı COP29-un lazımi resursları



təmin edəcəyinə böyük ümid bəslənilir.

“Azərkosmos”un nümayəndəsi Murad Camalov isə təmsil etdiyi qurumun iqlim dəyişikliklərinin aşkarlanması və ya hər hansı fövqəladə vəziyyətdə kömək üçün istənilən kiçik ada dövlətinin geoməkanını təhlil etməyə hazır olduğunu bildirib.

M.Camalov qeyd edib ki, Qafqazda, xüsusilə Azərbaycanda layihə üzərində işləyərkən buludlarla bağlı heç bir problem olmayıb. Lakin kiçik ada ölkələrinə yaxınlaşdığımız zaman bulud örtüyü səbəbindən görüntülərdə problem yaranırdı. Ancaq süni intellekt və “Cloud” hesablama kimi qabaqcıl texnologiyaların köməyi ilə məkan məlumatlarını asanlıqla tapa bildik. Əvvəlcə çox çətin idi, amma məkan məlumatlarını təhlil etmək üçün çox yaxşı vasitələr və fantastik komanda var.

O bildirib ki, məkan məlumatları, xüsusilə peyk monitorinqi olmadan, çox qısa müddətdə fövqəladə vəziyyətləri təhlil etmək mümkün deyil. Məsələn, 6 ay ərzində Papua-Yeni Qvineyanın bütün meşə ərazilərini təhlil etdik. Həmin zaman məsafəsi bu əraziləri təhlil etmək üçün çox yaxşı müddətdir: “İndi “Azərkosmos” və komandamız iqlim dəyişikliklərin aşkarlanması və ya hər hansı fövqəladə vəziyyətdə kömək üçün istənilən kiçik ada dövlətinin geoməkanını təhlil etməyə hazırdır. Biz açıq, daşqın təhlükələri və ya digər təhlükəli məsələlər kimi Dayanıqlı İnkişaf Məqsədləri ilə bağlı problemləri həll etməyi hədəfləyirik”.

# Su böhranı ərzaq təhlükəsizliyini təhdid edir



**Niderlandın su məsələləri üzrə xüsusi elçisi Meike Van Ginneken COP29 çərçivəsində keçirilən “İqlim, təbiət və insanlar üçün suyun həyat xəttini qeyd edirik” adlı tədbirdə Qlobal Su İqtisadiyyatı Komissiyasının hesablamalarına əsaslanaraq bu gün su böhranının dünya ərzaq istehsalını təhlükə ilə üzləşdirdiyini, belə vəziyyətin isə 2050-ci ilə qədər ölkələrin ÜDM-lərində 8 faizdən 15 faizə qədər itkiyə səbəb olacağının proqnozlaşdırıldığını bildirib.**

M.Ginnekenin sözlərinə görə, Bakı Bəyannaməsi suyun qlobal iqlim gündəminə daxil edilməsi istiqamətində irəliyə atılan mühüm bir addımdır. Bu prosesi sürətləndirmək artıq beynəlxalq aləmin üzərinə düşən önəmli bir vəzifədir: “Su iqlim dəyişikliyinin təsirlərini göstərən bir vasitə olmaqla yanaşı, həm də bu problemin həllində əsas rol oynayır. Daşqınlar evləri su altında qoyur, duzlu yeraltı sular məhsulları məhv edir, yağışların gecikməsi isə aclıq yaradır. Ona görə də su ilə bağlı fəaliyyət diqqətdə saxlanılmalıdır və bu istiqamətdə ciddi layihələr gerçəkləşdirilməlidir”.

O, iqlim dəyişikliyinə uyğunlaşmaq üçün su idarəçiliyinə böyük sərmayələrin yatırıldığını vurğulayıb. Eyni zamanda, ölkələrin nizamsız yağıntılar, dəniz səviyyəsinin artması və duzlu su basqınları kimi risklərə qarşı innovativ texnologiyalar tətbiq etdiyini, bataqlıqları, gölləri və çayları qoruma ğa üstünlük verdiyini bildirib.

Niderland nümayəndəsi diqqətə çatdırıb ki, su və torpaq resursları məkan planlaşdırma qərarlarında əsas prinsip olaraq qəbul edilməlidir. Hətta rütubətli bir ölkədə belə daha uzun quraqlıq dövrlərinə hazırlıqlar görülməlidir. Buna görə də su idarəçiliyində innovativ həllərə xüsusi diqqət yetirilməlidir.

Niderlandın xüsusi elçisi sektorlararası əməkdaşlığın genişləndirilməsinin vacibliyini də vurğulayıb: “Su yalnız bir sektor deyil. Su resurslarının idarə olunmasında kənd təsərrüfatı, şəhərlər və məkan planlaşdırması kimi sahələrdə birgə işləməliyik. Niderland öz bilik və təcrübəsini paylaşmağa və qlobal səviyyədə su təhlükəsizliyinə nail olmaq üçün əməkdaşlığa hazırdır”.

**Səhifəni hazırladılar:**
**Vaqif BAYRAMOV,**
**Mirbağır YAQUBZADƏ**
**XQ**

COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024

# Leyla Əliyeva və Arzu Əliyeva Milli İncəsənət Muzeyinin sərgilərində



**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva noyabrın 21-də Azərbaycan Milli İncəsənət Muzeyində "Səttar Bəhlulzadə – təbiətin ecazkar nağılı", "1920-1980-ci illər Azərbaycan rəngkarlığı və qrafikası" və "Vəcihə Səmədova-100: sənətkar ömrünün səhifələri" adlı sərgilərlə tanış olublar.**

Ziyarət zamanı Leyla Əliyevaya və Arzu Əliyevaya sərgilər haqqında ətraflı məlumat verilib.

**XQ**

# Bakıda yaşıl aksiya



**"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində noyabrın 22-də Bakıda Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın iştirakı ilə növbəti ağacəkmə aksiyası həyata keçirilib. IDEA könüllülərinin iştirakı ilə keçirilən budəfəki aksiya zamanı 1000 ədəd Eldar şamı əkilib və ərazidə müvafiq abadlıq işləri aparılıb.**





IDEA İctimai Birliyi ekoloji aksiyaların mütəmadi olaraq təşkili ilə ətraf mühitin mühafizəsinin vacibliyini insanların, xüsusilə, gənc nəslin diqqətinə çatdırır və onları ekoloji problemlərə qarşı mübarizədə birgə fəaliyyətə səsləyir. Vətəndaşlar qanunsuz ağac kəsilməsi halları ilə rastlaşdıqda şikayət və təkliflərini şəhər və ya mobil telefonlardan 1113 qaynar xətt vasitəsilə IDEA İctimai Birliyinə çatdıra bilərlər.

Qeyd edək ki, "1113 - Təbiətin təcili yardımı" qaynar xətti və mobil qrupu 2014-cü ildə Leyla Əliyevanın təşəbbüsü ilə "Ağacların kəsilməsinə yox!" proqramı çərçivəsində yaradılıb. Sözügedən qaynar xəttə daxil olmuş minlərlə vətəndaş şikayəti üzrə tədbir görülüb.

***XQ***

# Əmək bazarına ədalətli keçid

**COP29 çərçivəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Beynəlxalq Əmək Təşkilatının təşkilatçılığı ilə keçirilən "Hər kəsə ədalətli keçid üçün nəzəriyyədən təcrübəyə: regionlararası yüksək səviyyəli cənub-cənub siyasi dialoqu" müzakirələri 2 gün davam edib.**

yaşıl iş yerlərinin yaradılması, gender bərabərliyinin təmin edilməsi sahələrində mövcud vəziyyət və aparılan siyasətlərdən bəhs olunub, təcrübələr təqdim edilib.

Yaşıl iqtisadiyyata əmək bazarında ədalətli keçid üçün hamı üçün layiqli yaşıl iş yerlərinin inkişafının, dairəvi iqtisadiyyat yanaşmalarının təşviqi, bu sahədə təcrübə mübadilələrinin aparılması, BƏT-in təlimatlarının tətbiqi məsələləri müzakirə edilib.



Müxtəlif ölkələrdən, BMT və digər beynəlxalq təşkilatlardan yüksək səviyyəli rəsmilərin iştirak etdiyi tədbirdə Şərqdə əmək münasibətləri üzrə ilk kollektiv müqavilə olan "Mazut Konstitusiyası"nın 120 illiyinə həsr olunmuş videoçarx nümayiş olunub.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev iqlim dəyişikliyinin nəticələrinin yumşaldılması və təsirinin azaldılmasının yalnız birgə səylərlə mümkün olacağını bildirib. Yaşıl iqtisadiyyata keçid dövründə əmək bazarı ilə bağlı çağırışlara uyğun olaraq ölkəmizdə görülən tədbirləri, həmçinin sosial müdafiə sisteminin gücləndirilməsi üçün atılan addımları diqqətə çatdırıb. Nazirliyin xidmət sahələrində rəqəmsal həllərdən və süni intellektin üstünlüklərindən istifadə etdiyini, 160 xidmətin 90 faizdən çoxunu rəqəmsallaşdırdığını qeyd edib. E-sosial portalının, "Əmək və Məşğulluq" altsisteminin və digər rəqəmsal alətlərin önəmini, rəqəmsal transformasiyanın sosial islahatların uğuru üçün vacibliyini və sosial müdafiə sisteminin daha çevik və dayanıqlı olmasına imkan verdiyini bildirib.

BMT İnkişaf Proqramının Baş katibinin köməkçisi, Siyasət və Proqrama Dəstək Bürosunun direktoru Markos Neto, regional direktor Beate Andres, BMT Avropa İqtisadi Komissiyasının icra katibinin müavini Dmitri Mariyasin, Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının Baş katibinin müavini Erik Manzi, Beynəlxalq İşəgötürənlər Təşkilatının Asiya ölkələri üzrə vitse-prezidenti Sonya Janahinin çıxışları dinlənilib. Onlar yaşıl iş yerlərinin inkişaf etdirilməsinin, bu istiqamətdə fəaliyyətin təşviqinin yaşıl iqtisadiyyata keçid üçün vacibliyini vurğulayıblar.

Müzakirə panel sessiyalarla, müvafiq sahələrdə təcrübələrin mübadiləsi ilə davam edib. Sessiyaların açılışında BƏT-in Müəssisələr Departamentinin direktoru, Yaşıl İqtisadiyyat üzrə Fəaliyyət Tərəfdaşlığının İdarə Heyətinin üzvü Rie Vejs-Kjeldgaard, COP29 Fəaliyyət Gündəliyinin Qlobal Təşəbbüslər Qrupunun həmsədri Elmar Məmmədov, Braziliyanın ölkəmizdəki səfiri Manuel Adalberto Karlos Monteneqro Lopes da Kruz çıxış ediblər.

Çıxışlarda konfransın önəmi və fəal, səmərəli təcrübə mübadilələrinə imkan yaratdığı vurğulanıb. Kömür mədəni regionlarında, habelə Asiya–Sakit Okean regionunda yaşıl enerjiyə keçid, bərpa olunan enerji mənbələrindən istifadənin təşviqi,

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov müzakirələrin yekununda çıxış edərək yaşıl iqtisadiyyata əmək bazarında ədalətli keçidə nail olmaq üçün ölkələr arasında əməkdaşlığın genişləndirilməsinin xüsusi önəmini diqqətə çatdırıb. O, layiqli əməyin təminatı sahəsində fəal siyasətə malik Azərbaycanın bu sahədə BƏT-lə davamlı əməkdaşlığını, ötən dövrdə həmin Təşkilatın 59 Konvensiya və 1 Protokolunu ratifikasiya etdiyini bildirib.

Yaşıl iqtisadiyyata ədalətli keçidin işçilərin rifahı, iqtisadi artım və ətraf mühitin mühafizəsini birləşdirən modelin qurulmasına xidmət etdiyini vurğulayan nazir müavini bu istiqamətdə əməkdaşlığın daha da genişlənməsinin birgə səylərlə uğurlu nəticələr verəcəyinə əminliyini diqqətə çatdırıb.

***Zərifə HÜSEYNOVA***
***XQ***

# Xəzərin Azərbaycan sahillərinin ekosistemi zənginləşdirilir

**COP29-un Yaşıl Zonasında yerləşən Milli QHT Forumu pavilyonunda Azərbaycan Botaniklər Cəmiyyəti İctimai Birliyinin həyata keçirdiyi "Azərbaycanın Xəzəryanı sahillərində karbon emissiyasını azaldan yosun biokultivatorlarının yaradılması" mövzusunda layihə təqdim olunub.**

Yerli və xarici alimlərin də iştirak etdikləri təqdimatda Azərbaycanın Botanika İnstitutunun və Rusiyanın Çelyabinsk Dövlət Universitetinin əməkdaşları tərəfindən həyata keçirilən "Azərbaycanın Xəzəryanı sahillərində karbon emissiyasını azaldan yosun biokultivatorlarının yaradılması" adlı layihəyə dair tədqiqatlar haqqında ətraflı məlumat verilib.

Qeyd olunub ki, layihə çərçivəsində Xəzər dənizinin Azərbaycan sektorunda yayılmış yosun növünün tədqiqi və laborator tədqiqatlarının fasiləsizliyinin təmin olunması üçün yosun kolleksiyasının yaradılması qarşıya əsas məqsəd kimi qoyulub. Bununla yanaşı, layihə çərçivəsində sənaye-məişət obyektlərində, açıq ərazilərdə becərilməsi üçün karbon qazının konsentrasiyasını azaltmaq və akvakultura sahəsində yosunlardan alınan məhsulların istifadəsi texnologiyasının öyrənilməsi də nəzərdə tutulur. Bu da Azərbaycanın regionları üzrə istixana qazlarının emissiyalarının kompensasiya edilməsi, şirin



və dəniz sularının təmizlənməsində yosunlardan istifadəyə imkan yaradacaq.

Təqdimat çərçivəsində pavilyonda təşkil olunmuş sərgidə sözügedən layihənin işinə uyğun yosunlar, həmçinin Botanika Muzeyinə aid eksponatlar və kitabçalar nümayiş olunub.

Xatırladaq ki, tədbir Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin birgə elan etdiyi "COP29-la bağlı beynəlxalq təşəbbüslər" qrant müsabiqəsi çərçivəsində icra olunur.

**XQ**

# COP29 danışıqlar qruplarının qurultayı




**(əvvəli 1-ci səhifədə)**

Daha sonra COP29-un prezidenti iştirakçıları təqdim olunan layihə ilə bağlı fikirlərini bildirməyə dəvət edib.

Tədbirdə tənqidi yanaşmadan tutmuş dəstəyi ehtiva edən fərdi paraqraflara qədər ən əks mövqeləri ifadə edən iştirakçılar fikirlərini bildiriblər. Sənəd layihəsi ilə bağlı rəy bildirənlər arasında, demək olar ki, bütün milli nümayəndə heyətlərinin, eləcə də Avropa İttifaqının nümayəndələri olublar. Xüsusilə, Uqanda və Türkiyədən olan nümayəndələr Azərbaycanın Sədrliyinin gərgin işinə heyran olduqlarını vurğulayaraq həmkarlarını yekun sənədi hazırlamadan Bakını tərk etməməyə çağırıblar.

Pakistan, Boliviya və digər inkişaf etməkdə olan dövlətlərin nümayəndələri bu ölkələrin ayrılmış vəsaitlərə çıxışının olması barədə razılığa gəlməyə səsləyiblər.

**XQ**

# İstiləşmə kabusu və canlı aləmin gələcəyi

**COP29-un Azərbaycan pavilyonunda "İqlim və biomüxtəliflik arasında əlaqə: dayanıqlı gələcək üçün inteqrasiya olunmuş həllər" mövzusunda müzakirə keçirilib.**



Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşkilatçılığı ilə keçirilən müzakirələrdə Bioloji Müxtəliflik üzrə Konvensiyanın, Cənub-Şərqi Asiya Ölkələri Assosiasiyası Biomüxtəliflik Mərkəzinin, Su-bataqlıq Əraziləri üzrə Konvensiyanın, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının, Tacikistan Respublikası Hökuməti yanında Ətraf Mühitin Mühafizəsi Komitəsinin, Ümumdünya Vəhşi Təbiətin Mühafizəsi Fondu Azərbaycan ofisinin və digər təşkilatların nümayəndələri iştirak ediblər. Tədbirdən məqsəd iqlim dəyişikliyi və biomüxtəliflik arasında əlaqə, bu sahədə inteqrasiya olunmuş yanaşmalarla həll yollarının araşdırılması və effektiv nəticələrin əldə olunması istiqamətində müzakirələrin aparılması olub.

Toplantıda çıxış edən ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov bildirib ki, Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərdə qarşıya yeni strateji mərhələdə qlobal iqlim dəyişikliklərinə cavab verən yüksəkkeyfiyyətli təmiz ekoloji mühitin təmin olunması kimi mühüm vəzifə qoyulub. Onun sözlərinə görə, ölkəmizdə ətraf mühitin mühafizəsini və təbii ehtiyatların səmərəli istifadəsini təmin edən ekoloji təhlükəsizlik sisteminin keyfiyyətcə yeni mərhələdə davam etdirilməsi prioritet istiqamətlərdən olmaqla, bioloji müxtəlifliyin qorunması əsas hədəflərdəndir.

İqlim dəyişmələri və onların canlı aləmə təsirinin dünya ictimaiyyətini getdikcə daha çox narahat etdiyini xatırladan nazir müavini deyib ki, təbii ekosistemlərə mənfi təsir göstərən bu amil bitki və heyvan növlərini məhv olmaq təhlükəsi ilə üzbəüz qoya bilər: "Bioloji müxtəlifliyin indiki və gələcək nəsillər üçün çox böyük dəyərə malik qlobal sərvət olduğu artıq hamılıqla qəbul edilir. Növlər və ekosistemlər üçün təhlükə heç vaxt indiki qədər böyük olmayıb. Ölkəmizdə son 30 ildə orta illik havanın temperaturu əvvəlki dövrlə müqayisədə orta hesabla 0,9 dərəcə yüksəlib, əksər ərazilərdə yağıntının miqdarı orta hesabla 4 faiz azalıb".

Müzakirələrdə iqlim dəyişmələrinin təbii ekosistemlərə mənfi təsirinin azaldılması üçün ölkəmizdə həyata keçirilən fəaliyyətlər, əsas prioritet sahələrdən olan meşə ekosisteminin qorunması, bərpası, yeni yaşıllıqların salınması, bitki və heyvan növlərinin mühafizəsi, bərpası sahəsində görülən işlər barədə məlumat verilib. Bununla yanaşı, iqlim dəyişikliyinə uyğunlaşma və təsirlərin azaldılması üzrə ən yaxşı təcrübələr dinlənilib, iqlim dəyişikliyinin təsirlərinin azaldılmasında əsas rol oynayan təbii ekosistemlərin qorunması və bərpası strategiyaları, qarşılıqlı əməkdaşlıq məsələləri müzakirə edilib, təcrübə və fikir mübadiləsi aparılıb.

# Ekoloji tarazlıq və aqroərzaq sistemlərinin dayanıqlığı

**İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (İSESCO) COP29-un Mavi Zonasında yerləşən pavilyonunda "İqlim dəyişikliyi ilə mübarizə və Su-Enerji-Qida-Ekosisteminin qarşılıqlı idarəedilməsi tədbirləri vasitəsilə aqroərzaq sistemlərinin dayanıqlığına nail olunması" mövzusunda panel müzakirələr keçirilib. Bu barədə XQ-yə Kənd Təsərrüfatı Nazirliyindən məlumat verilib.**



Bildirilib ki, İCESCO-nun elm və ətraf mühit sektoru üzrə eksperti Fahman Fathurrahman moderatorluğu ilə keçirilən tədbirdə dayanıqlı aqro-ərzaq sistemlərinə nail olmaq üçün strategiyalar, iqlim böhranı şəraitində su, enerji və ərzaq ehtiyatlarının davamlı və düzgün idarə olunmasını dəstəkləyən ən yaxşı təcrübələri, siyasət çərçivələrini və texnoloji yenilikləri müzakirə edilib.

Tədbirdə çıxış edən kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova bildirib ki, iqlim dəyişikliyi ərzaq təhlükəsizliyinin təmin olunması, suya əlçatanlıq və enerji istifadəsi ilə bağlı problemlərin yaranmasına gətirib çıxarır ki, bu da aqro-ərzaq sistemlərində davamlılığın yaradılması üçün həll yollarının müzakirəsinə zərurət yaradır. Bu problemlərin həllinin fermerlər və icmaların ehtiyaclarının təcili ödənilməsini balanslaşdıran innovativ, inteqrasiya olunmuş yanaşmalar tələb etdiyini diqqətə çatdıran nazir müavini deyib ki, Azərbaycanda dayanıqlı kənd təsərrüfatına keçid prosesinin asanlaşdırılması üçün hərtərəfli dövlət proqramları və maliyyə dəstəyi alətləri tətbiq edilir.

Onun sözlərinə görə, ölkədə su və torpaq resurslarından səmərəli istifadə, biomüxtəlifliyin qorunmasının iqlimə uyğunlaşma strategiyalarının əsasını təşkil edir, səmərəliliyi və davamlılığı artıran iqliməuyğun ağıllı kənd təsərrüfatı təcrübələrinə üstünlük verilir. Ölkəmizdə damcı və çiləyici texnologiyaların tətbiqi ilə suvarma sistemlərinin müasirləşdirildiyini vurğulayan nazir müavini fermerlərin sudan səmərəli istifadə üsullarını mənimsəməsi üçün onlara subsidiyalar və aşağı faizli kreditlər verildiyini diqqətə çatdırıb.

Panel müzakirələrdə Pakistanın milli qida təhlükəsizliyi və tədqiqatlar üzrə federal naziri Rana Tanveer Hussain, Aralıq Dənizi İttifaqının baş katibinin müavini Grammenos Mastrojeni, Beynəlxalq Bioşoran Kənd Təsərrüfatı Mərkəzinin baş katibi Tarifa Al Zaabi, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının torpaqların idarə edilməsi və su bölməsinin mütəxəssisi Virciniya Gillet, İslam İnkişaf Bankının qlobal təcrübələr və tərəfdaşlıqlar üzrə baş direktoru İssa Faye və başqaları ərzaq itkilərinin qarşısının alınması və ərzaq təhlükəsizliyinin təmini, qlobal iqlim dəyişikliyi və biomüxtəliflik, iqlimə davamlılığın gücləndirilməsi, ekosistemin qorunması, rəqəmsal texnologiyaların kənd təsərrüfatında tətbiqi, kənd təsərrüfatı sektorunda innovativ proseslərin inkişafı, dayanıqlı təchizat zəncirinin formalaşdırılması, eləcə də bu sahələrdə qadınların rolunun artırılması ilə bağlı fikirlərini bölüşüblər.

# Qobustan GES-in tikintisinə başlandı



**Dünən Bakı iqlim konfransı çərçivəsində Avropa Yenidənqurma və İnkişaf Bankının dəstəyi ilə həyata keçirilən 100 meqavat gücündə "Qobustan" Günəş Elektrik Stansiyasının tikintisi üzrə hərracın qalibi elan olunub. Bu, hərrac prosesində hər kilovat-saat elektrik enerjisi üçün ən aşağı təklif verən "Universal International Holdings Limited" şirkətidir.**

Hərracın nəticələriniəə həsr olunmuş tədbirdə çıxış edən Avropa Yenidənqurma və İnkişaf Bankının Qafqaz üzrə regional direktoru Alkis Vryenios Drakinos bildirib ki, Azərbaycanın ilk bərpaolunan enerji hərracının uğurla başa çatması bank üçün böyük nailiyyətdir. O deyib: "Biz "yaşıl" enerji layihələrinin maliyyələşdirilməsi və bu istiqamətdə siyasətlərin dəstəklənməsi üzrə uzun illər davam edən işlərimizin nəticəsini görməkdən məmnunuq. Bu layihənin həyata keçirilməsində iştirak edən bütün tərəfləri təbrik edirik".

Xatırladaq ki, hərrac Azərbaycan Prezidentinin 2023-cü il 2 avqust tarixli 2285 nömrəli fərmanı ilə təsdiq edilmiş "Bərpaolunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi Qaydası"na uyğun olaraq keçirilib. 2027-ci ildə istismara verilməsi nəzərdə tutulan stansiyada hər il, təxminən, 260 milyon kilovat-saat elektrik enerjisi istehsalı proqnozlaşdırılır. Bu isə ildə 57 milyon kubmetr həcmində təbii qaza qənaət etməklə yanaşı, atmosferə atılan karbon emissiyalarını 124 min ton azaltmağa imkan verəcək.

Yeri gəlmişkən, Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin direktoru Cavid Abdullayev jurnalistlərə müsahibəsində bildirib ki, 20-25 gün ərzində müqavilələr tam yekunlaşacaq və daha dəqiq istismara verilmə tarixi məlum olacaq. Azərbaycanda ilk bərpaolunan enerji hərracında iştirak üçün 130-dan çox şirkətə dəvət göndərildiyini xatırladan agentlik rəhbərinin sözlərinə görə, iki mərhələdə keçirilən hərrac prosesi, ümumilikdə, 6 saat davam edib və nəticədə "Universal International Holdings Limited" şirkəti qalib gələrək "Qobustan" Günəş Elektrik Stansiyasını inşa etmək hüququ qazanıb.

# Ölkəmiz qlobal biomüxtəliflik konfransına da evsahibliyi edəcək

**Gələn ilin iyun ayında ölkəmizdə "Davamlı meşəçilik və biomüxtəliflik üçün sinerji: yaşıl dünya naminə əməkdaşlıq dialoqu" adlı beynəlxalq konfrans keçiriləcək. Bunu Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov COP29 çərçivəsində "İqlim və biomüxtəliflik arasında əlaqə: dayanıqlı gələcək üçün inteqrasiya olunmuş həllər" adlı tədbirdəki çıxışı zamanı bildirib.**



Qeyd olunub ki, tədbir meşəçilik və biomüxtəliflik sahəsində qlobal çağırışları müzakirə etmək üçün elm adamlarını, ekoloqları, siyasətçiləri, beynəlxalq təşkilatları, özəl sektor və vətəndaş cəmiyyəti nümayəndələrini bir araya gətirəcək. Bütün maraqlı tərəfləri bu konfransda iştirak etməyə dəvət edən nazir müavini deyib ki, gələcəkdə az meşə örtüyünə malik ölkələrin çətinliklərin aradan qaldırılmasına, qlobal dayanıqlığa töhfə verən innovativ həlləri təşviq etməyə və tərəfdaşlıqları gücləndirməyə çalışacağıq. Onun sözlərinə görə, konfrans ən yaxşı təcrübələrin bölüşülməsi və daha yaşıl gələcək üçün əməkdaşlığın inkişafı üçün mühüm platforma olacaq.

# Azərbaycan – Türkiyə su ehtiyatları əməkdaşlığı

**COP29-un Mavi Zonasında təşkil olunan Türkiyə pavilyonunda Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov və qardaş ölkənin Dövlət Su İşləri Baş İdarəsinin rəisi Mehmet Akif Balta arasında görüş keçirilib.**



Görüşdə su ehtiyatlarının idarə edilməsində əməkdaşlıq perspektivləri, su təsərrüfatı sahəsində innovativ texnologiyaların tətbiqi və beynəlxalq təcrübə barədə fikir mübadiləsi aparılıb. Eyni zamanda, iqlim dəyişikliklərinin su ehtiyatlarına təsirlərinin azaldılması istiqamətində tədbirlər, sərhədyanı su ehtiyatlarının idarə olunması, regional əməkdaşlıq və gələcək layihələrin həyata keçirilməsi imkanlarına nəzər salınıb.

# Xəzərin ətraf mühitə "həssas"lığı onun taleyinə həssaslıq tələb edir

**COP29-un İqlim dəyişmələri üzrə yüksəksəviyyəli çempionu Nigar Arpadarai Xəzər dənizinin ekologiyası mövzusunda keçirilən QHT-lərin beynəlxalq forumunda iqlim dəyişikliyinin mənfi təsirinin və Xəzər dənizinin bu təhlükələrə həssaslığının hər gün müşahidə edildiyini bildirib. O, Xəzərin unikal, dünyanın ən böyük daxili su hövzəsi olduğunu, bu dənizə Azərbaycanda və regionda tarixən mühüm sərvət kimi yanaşıldığını, eləcə də sahilyanı dövlətlər üçün biomüxtəlifliyin, iqtisadiyyatın və icmaların inkişafında ən böyük təbii resurs rolu oynadığını vurğulayıb.**



N.Arpadarai qeyd edib ki, Xəzər ətrafdakı ölkələr üçün biomüxtəlifik mənbəyidir və bu ölkələrin iqlim sistemlərinin və ekosisteminin çox mühüm hissəsidir. Xəzər qapalı dəniz olduğu üçün çox "həssas"dır. Onun ekoloji tarazlığı asanlıqla pozulur və artıq uzun illərdir ki, Xəzər dənizi araşdırılsa da, onun mürəkkəblikləri və davranışının dəyişməsi hələ də tam bilinmir.

"COP29 kontekstində qlobal, regional və milli gündəmlər mövcuddur. Xəzər isə unikal və mürəkkəb regional gündəliyin çox parlaq nümunəsidir ki, bu da onu əhatə edən ölkələr üçün vahid baxış və iqlim gündəmini birləşdirməyə, müəyyən etməyə əla imkan yaradır. Hər şeyi düzgün etsək, təkcə iqlim və ətraf mühitə deyil, həm də iqtisadiyyata və onu əhatə edən icmalara müsbət təsir göstərəcəyik. Xəzər dənizini qorumaq üçün davamlı həll yollarının işlənib hazırlanmasında qeyri-dövlət subyektlərinin, o cümlədən biznes, universitetlər, elm və akademiyaların rolu çox vacibdir", – deyə N. Arpadarai əlavə edib.

# Ümumdünya Şəhər Forumu da Bakıda keçiriləcək

**Birləşmiş Millətlər Təşkilatının Məskunlaşma Proqramı (UN-Habitat) COP29 çərçivəsində Şəhərsalma Günü təşkil etməklə urbanizasiya və iqlim dəyişikliyinin kəsişməsində duran ən aktual məsələlərin müzakirəsi üçün açıq və konstruktiv dialoq imkanı yaradıb. Bunu Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev COP29 çərçivəsində təşkil olunmuş çoxsəviyyəli və çoxsektorlu iqlim fəaliyyəti üzrə yüksək səviyyəli açılışda bildirib.**



Komitə sədri 2026-cı ildə keçiriləcək növbəti Ümumdünya Şəhər Forumu (WUF13) və Ümumdünya Ətraf Mühit Gününün Azərbaycana həvalə olunmasının ölkəmiz üçün xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayaraq deyib."Biz şəhərlərin həm qlobal gələcəyini, həm də planetimizin inkişafında oynadığı rolu yüksək dəyərləndiririk. Urbanizasiyanın sürətlə inkişaf etdiyi regionlardan biri kimi Azərbaycan bu prosesin yaratdığı çağırışlara cavab verməyə, onun təqdim etdiyi imkanlardan faydalanmağa sadiqdir. Biz Şəhər İqlim Fəaliyyəti üzrə Xüsusi Nümayəndə institutunu təsis etməkdən və öhdəliklərimizin əyani nəticələr yaratmasına yönəlik praktiki tədbirlər görməkdən məmnun olacağıq. Bu baxımdan mən Bakı Davamlılıq Koalisiyasının yaradılmasından qürur duyuram. Bu qrupdakı həmkarlarımıza – Misir, Birləşmiş Ərəb Əmirlikləri, Braziliya və BMT – Habitat-a təşəkkürümüzü bildiririk".

**Səhifəni hazırladılar:**
**Vaqif BAYRAMOV,**
**Mirbağır YAQUBZADƏ**
**XQ**




# Azərbaycan mediasının COP29 sınağı

**Çağdaş tarixi bir-birindən əlamətdar və yaddaqalan hadisələrlə zəngin olan müstəqil Azərbaycan bu dəfə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi edərək dünyanın diqqətini özünə çəkdi. Bu möhtəşəm tədbirdə iştirak üçün xaricdən Bakıya on minlərlə insan gəlmişdi. Təkcə nüfuzlu media qurumlarını təmsil edən jurnalistlərin sayı 3600 nəfərdən çox idi.**

Təbii ki, əcnəbi medianın diqqət mərkəzində olan belə bir möhtəşəm tədbir Azərbaycan mediasının da üzərinə böyük məsuliyyət qoyurdu və həmkarlarımızın bu işin öhdəsindən peşəkarlıqla gəldiklərini, mötəbər toplantını yüksək səviyyədə işıqlandırmağı bacardıqlarını əminliklə söyləyə bilərik. COP29-un birinci günündən son gününə qədər keçirilən çoxsaylı tədbirlərin yaddaqalan epizod və nüanslarının təhlili də qənaətimizi möhkəmləndirir. Əlbəttə, bu mənzərə sevindirici, eyni zamanda, qürurvericidir. Belə böyük miqyaslı tədbirin özü isə mediamız üçün bir təcrübədir.

Əvvəla, tədbirin iştirakçılarının sayının çoxluğu və onlarla fəal ünsiyyət, ilk növbədə, media təmsilçilərimizin kommunikabelliyinin güclənməsinə ciddi təsir göstərdi. Bundan əlavə, bütövlükdə sessiyanın və onun tərkib hissəsi olan panel müzakirələrin işıqlandırılması, müxtəlif ölkələrdən gələn yüksək çinli iştirakçılarla, ictimai-siyasi xadimlərlə müsahibələrin aparılması zamanı jurnalistlərimizin xarici dil biliklərini nümayiş etdirmələri çox təqdirəlayiq hal idi. Ayrı-ayrı media qurumlarımızın əməkdaşları qonaqlarla birbaşa ünsiyyət saxlayır, onların fikir və düşüncələrini bölüşmələrini təmin edirdilər.



**Rəşad MƏCİD,**
**Azərbaycan Mətbuat Şurasının sədri**

O ki qaldı COP29-un başlıca mövzusuna, iqlim dəyişmələri, ekoloji vəziyyət və onun təzahürlərinə dair qlobal məsələləri öyrənmək özü ayrıca təcrübədir. Bakının bu məsələlərin geniş miqyasda müzakirə meydanına çevrilməsi, istər-istəməz, mediamızın da mövcud istiqamətdə yeni biliklərə yiyələnməsinə, peşəkarlığının artmasına şərait yaratdı. Nəzərə alaq ki, kommunikabellik və xarici qonaqlarla yüksək səviyyəli ünsiyyət həm də mövzuya yaxşı bələdçilik tələb edir. Bunun üçün isə məlumatlanmaq, maariflənmək əsas şərtdir. Hesab edirəm ki, COP29 jurnalistlərimizin yeniliklərlə tanış olmaları üçün, bir növ, katalizator rolunu oynadı.

Daha bir vacib məqam ondan ibarət idi ki, Azərbaycan mediası COP29-la bağlı məsələlərin işıqlandırılmasında xarici media üçün istinad mənbəyi oldu. İstinad, təbii ki, etimad və etibarlılıq mövcud olduğu təqdirdə yaranır. Hesab edirəm ki, jurnalistlərimiz COP29 çərçivəsində reallaşmış ayrı-ayrı tədbirlərin mahiyyətini düzgün formada, yüksək peşəkarlıqla çatdırdıqlarından, verilən mesajları səlis şəkildə işıqlandırdıqlarından onlara ciddi inam yarandı. Heç şübhəsiz, bu inam gələcəkdə digər fəaliyyət istiqamətlərinə də öz müsbət təsirini göstərəcək.

Azərbaycan mediası bu günlərdə həm də cəmiyyətdə COP29 aktivliyinin təmin edilməsinə nail oldu. Burada yalnız ayrı-ayrı tədbirlərin işıqlandırılması yox, eyni zamanda, həmin tədbirlər ətrafında müzakirələrin təşkili, ekspert və mütəxəssislərin mövqelərinin çatdırılması da zəruri və əhəmiyyətli idi. Jurnalistlərimiz bu vəzifənin öhdəsindən də layiqli şəkildə gəldilər və belə demək mümkünsə, cəmiyyətimizin COP fəallığının formalaşmasına töhfələrini verdilər. Fəallıq isə ətraf mühit məsələlərinə həssas yanaşma baxımından şərtdir.

Daha bir sevindirici hal Azərbaycan mediasının COP29-un işıqlandırılmasında yeni texnologiyalar və innovativ metodlardan istifadəsi idi. Bu, tədbirin verdiyi mesajların cəmiyyət tərəfindən mənimsənilməsinə dəstək deməkdir. Nəzərə alaq ki, insanlarımız canlı yayımlara, sosial media kampaniyalarına, habelə interaktiv məzmuna daha çox üstünlük verirlər.

Bundan başqa, COP29-un miqyasının böyüklüyü və bunun nəticəsi olaraq ölkəmizə jurnalist axınının güclənməsi yerli media təmsilçilərimizin xarici həmkarları ilə birbaşa əlaqələrinin möhkəmlənməsinə də təkan verdi. Bunun özü kifayət qədər ciddi dividend sayıla bilər. O baxımdan ki, xaricdəki həmkarlarla şəxsi tanışlıq dünya təcrübəsinin mənimsənilməsində, informasiya mübadiləsinin güclənməsində mühüm amildir.

Nəhayət, ümumən, ölkəmizin təbliğatı və Azərbaycan həqiqətlərinin çatdırılması amilini də unutmaq olmaz. Nəzərə alaq ki, COP29-da dünyanın müxtəlif yerlərindən 70 mindən çox insan iştirak etdi. Onların arasında yüksək ranqlı, nüfuzlu şəxslər vardı. Yeri gəlmişkən, qeyd edim ki, jurnalistlərimiz prezidentlərlə, baş nazirlərlə müsahibələrə can atırdılar, kifayət qədər sərbəst davranmağı bacarırdılar. Nəticədə ölkəmizin təbliğatı baxımından da xeyli əlverişli mühit formalaşdı. Yəni, jurnalistlərimiz fürsətdən lazımınca bəhrələndilər. Onlar qonaqların Azərbaycan tarixi, mədəniyyəti, məişəti, mətbəxi, həmçinin COP29-un təşkili barədə təəssüratlarını bölüşmələri istiqamətində çalışdılar və mövcud xüsusda hazırladıqları materialları xaricdə də yaymaqla son dərəcə vacib təbliğat işinin öhdəsindən ustalıqla gəldilər. Bütün bunlar isə COP29-la bağlı dünyadakı bəzi qüvvələrin, o cümlədən, ermənipərəst dairələrin antiazərbaycan mahiyyətli ritorikalarına layiqli cavab idi.





Ayrıca COP29 ərəfəsində ölkəmizdə ingilisdilli telekanalın fəaliyyətə başlaması ümumi media mənzərəsinin tamamlanması baxımından, bir növ, yerinə düşdü. Telekanalın əməkdaşlarının fəallıqları, peşəkar yayımları diqqətimdən yayınmadı. Habelə, onların ayrı-ayrı yüksək vəzifəli xaricilərlə ünsiyyət ahəngdarlığını hiss etdim. O cümlədən, səmimi və nəzakətli davranışlarını da. Bunlar jurnalistikada son dərəcə önəmli məqamlardır. Fikrimcə, jurnalist, media təmsilçisi əlaqə saxladığı müsahibin yalnız dilində danışmalı deyil, eyni zamanda, ünsiyyəti də həmin şəxsin mental xüsusiyyətlərdən irəli gələn anlayış tərzinə uyğun qurmalı, mimika və jestikulyasiyaları yerində etməyi bacarmalıdır. Bunu görmək, həqiqətən, çox sevindirici idi.

Azərbaycan mediasının COP29-un işıqlandırılmasında mühüm rol oynadığını beynəlxaq tədqiqat mərkəzlərinin təhlilləri də təsdiqlədi. Dəyərləndirmələrin dəqiq müəyyənləşdirilmiş ölçülərə və meyarlara əsasən aparıldığını nəzərə alsaq, deyə bilərik ki, bu qiymət obyektiv idi, heç də ölkəmizin nüfuzlu beynəlxalq tədbirə ev sahibliyini gerçəkləşdirməsindən irəli gəlmirdi.

COP29-da mediaya yaradılmış şərait üzərində də dayanmaq istərdim. Media mərkəzi ilə şəxsən tanış olduğumdan deyə bilərəm ki, istər yerli, istərsə də xarici jurnalistlərin dinamik fəliyyət göstərmələrində şərait amili də öz sözünü dedi. COP29-un media koordinatoru Aleksandr Sayerin açıqlaması da pozitiv mənzərəyə aydınlıq gətirdi. Cənab Sayer konkret statistika üzərində dayandı və bildirdi ki, Olimpia Stadionunda yazılı mətbuat üçün təxminən 300 yerlik sahə var, beynəlxalq media üçün isə 60-a yaxın otaq ayrılıb: "Hər şey müzakirə olunaraq, planlaşdırılaraq yüksək səviyyədə təşkil edilib. Təkcə media mərkəzi deyil, bütün məkanda hər şey yaxşı hazırlanıb".

Bir sözlə, bu gün hər anlamda demək olar ki, Azərbaycan dövləti kimi, ölkəmizin jurnalistikası da COP29 sınağından üzüağ və alnıaçıq çıxdı. Bu münasibətlə həmkarlarımı təbrik edir, onlara uğurlar, Vətənimizi ucalarda tutacaq daha böyük tədbirləri işıqlandırmalarını arzulayıram.

# Bakı konfransı Türk dünyasını iqlim savaşında ön mövqeyə çıxardı

**Bakıda 2 həftədən bəri davam edən COP29 marafonunun uğuru finişə yaxınlaşır. Ötən günlərin çoxsaylı məclisləri, qəbul edilən önəmli qərarlar bütün dünyaya göstərdi ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının Azərbaycanda keçirilməsi həm ölkəmiz, həm də dünya üçün misilsiz bir hadisədir.**

Bakı konfransı həm regional, həm də qlobal əhəmiyyət daşıyan bir müzakirə kimi Azərbaycanın beynəlxalq mövqeyini yeni bir mərhələyə yüksəltdi. COP29 dünya siyasətində güc mərkəzi kimi önəmini artıran Türk dövlətləri birliyinin ekoloji fəlakətə qarşı həssaslığını, məsuliyyətini və səylərini də nümayiş etdirdi.

**Bu barədə qəzetimizə müsahibə verən Bakı Dövlət Universitetinin türk filologiyası kafedrasının müdiri, professor Rüfət Rüstəmov aşağıdakıları söylədi:**

– COP29 kimi beynəlxalq əhəmiyyətli qlobal ekoloji missiyanın həyata keçirilməsində Azərbaycanın rolu o qədər böyükdür ki, onu sözlə ifadə eləmək çətindir. Çünki bu konfransı təşkil etməyin özü mürəkkəb bir prosesdir. Azərbaycan Prezidenti İlham Əliyev Liderlər Sammitinin açılış mərasimində bu barədə bildirirdi: "Mənim sonuncu mesajım, təxminən bir ildir ki, boykotu təşviq edən dairələrədir. Onlar əllərində olan bütün alətlərdən istifadə etdilər ki, Bakıda COP29-u boykot kampaniyası başlansın. Onlara pis xəbər var: bizim 196 ölkədən gəlmiş və qeydiyyatdan keçmiş 72 min iştirakçımız var. Onların sırasında 80 prezident, vitse-prezident və Baş nazirlər var".

Prezidentin bu açıqlaması bir daha təsdiqləyir ki, COP29 iqlim dəyişikliyi ilə mübarizədə dünya ölkələrinin üzləşdiyi çətinlikləri geniş müzakirəyə çıxaran, möhtəşəm həmrəliyə nail olan bir forumdur. Azərbaycanın bu sessiyanı ən yüksək səviyədə təşkil etməsi və keçirməsi ölkəmizin qlobal iqlim siyasətində fəal rolunu, nüfuzlu mövqeini nümayiş etdirdi. Bütün dünya gördü və əmin oldu ki, Azərbaycan iqlim savaşı ilə bağlı beynəlxalq əməkdaşlığın önəmli iştirakçı olmaqla yanaşı, həm



də geniş həmrəylik və ciddi səfərbərlik yaratmağa qadirdir. Azərbaycan bu gün iqlim dəyişikliyinin qarşısını almaq üçün müasir texnologiyalardan istifadəyə, yenilənə bilən enerji mənbələrinin inkişafına və ekoloji cəhətdən dayanıqlı inkişaf strategiyalarının tətbiqinə asanlıqla nail ola bilən, önəmli təcürbələr ortaya qoyan, səmərəli çağırışları gerçəkləşdirən bir ölkədir.

COP29-un Azərbaycanda keçirilməsi ölkəmizin iqlim dəyişiklikləri ilə mübarizədə yalnız öz milli maraqlarını deyil, həm də qlobal miqyasda bəşəriyyətin gələcəyi ilə bağlı beynəlxalq səyləri dəstəklədiyini sübut etdi. Bu, Azərbaycana olan beynəlxalq diqqəti və etibarı yüksəltdi, ölkənin iqlim siyasəti və ətraf mühit sahəsindəki təşəbbüslərinə yeni tərəfdaşlar qazandırdı.

**– Konfransda türk ölkələri liderlərinin fəal iştirakı və ortaq mövqeyi Türk Dövlətləri Təşkilatının da nüfuzunu artırdı.**

– COP29-un Azərbaycanda keçirilməsi Türk Dövlətləri Təşkilatının beynəlxalq arenada artan təsirini nümayiş etdirmək baxımından növbəti fürsət oldu. TDT müxtəlif tarixi və mədəni köklərlə bağlı olan xalqların birliyini təmsil edərək, bəşəriyyətin qarşılaşdığı qlobal problemlərdən çıxış yolları tapmaqda birgə fəaliyyət göstərməyi də önəmli məqsədinə çevirib. Bakı konfransı Türk dövlətlərinin birgə əməkdaşlığının və həmrəyliyinin nə qədər güclü və bəşəri məramlı olduğunu aydın göstərdi. Türk Dövlətləri Təşkilatına üzv ölkələri ekologiya və iqlim dəyişikliyi ilə bağlı öz təcrübələrini birləşdirərək bu sahədə müştərək layihələr həyata keçirməyi qərara aldılar. Bu hədəflər inkişaf etməkdə olan regionlarda iqlim dəyişikliklərinin təsirlərinin azaldılması, su resurslarının idarəsi və təbii sərvətlərin dayanıqlı istifadəsi kimi məsələlərdə də əhəmiyyətli olacaq.

**– Bakı konfransı iqlim dəyişikliyi ilə mübarizədə TDT üçün hansı perspektivləri aktuallaşdırdı?**

– COP29-un qərar və çağırışlarının həyata vəsiqə alması Türk dünyası üçün yeni perspektivlər açacaq. Türk dövlətləri iqlim dəyişikliyi ilə bağlı ortaq siyasi xətt hazırlamaqla və təcrübə mübadiləsi aparmaqla qlobal fəlakətin qarşısının alınmasına öz töhfələrini verəcəklər. Türk dünyası coğrafi və iqlim şəraiti baxımından bu gün bir çox müştərək problemlərlə qarşılaşır. Konfransda aparılan müzakirələr bu problemlərin həllində təsirli olacaq.

Eyni zamanda, Azərbaycanın qlobal iqlim savaşı platformasında önəmli bir rola sahib olması onun yaşıl hərəkatda liderliyini daha da möhkəmləndirəcək və artıracaq. Azərbaycan Prezidenti İlham Əliyev Liderlər Sammitinin açılış mərasimindəki çıxışında Azərbaycana, eləcə də türk dünyasının bugünkü inkişafını görmək istəməyənlərə də tutarlı cavab verdi: "Dənizdə ilk neft quyusu da Azərbaycan neftçiləri tərəfindən Xəzər dənizində XX əsrin ortalarında qazılmışdır. XIX əsrdə qlobal neft hasilatının yarısı Azərbaycanın payına düşürdü. Əgər o vaxt bəzi Qərb siyasətçiləri və media bizi neft dövləti adlandırsaydı, bu, bəlkə də anlaşılan olardı. Lakin əgər onlar indi, yəni bu gün də bizi neft dövləti adlandırırlarsa, bu, ədalətsizlikdir və yalnız siyasi mədəniyyət və biliklərin çatışmamasından xəbər verir". Heç şübhəsiz, Türk dövlətləri bundan sonra da ekoloji fəlakət və iqlim dəyişikliyi məsələlərində birgə fəaliyyət göstəcək, qlobal iqlim müqavilələrinin həyata keçirilməsinə öz töhfələrini verəcəklər.

Nəhayət, COP29-un Azərbaycanda təşkil olunması bütün Türk dünyası üçün həm qürur mənbəyidir, həm də böyük bir uğurdur. Bakı təntənələri Türk dövlətlərinin gücünü və beynəlxalq aləmdəki mövqeyini möhkəmləndirdi. Türk dünyası, qarşısına çıxan iqlim dəyişiklikləri və digər ətraf mühit problemləri ilə mübarizədə yalnız milli səviyyədə deyil, həm də beynəlxalq platformada həmrəylik və əməkdaşlıq yolu ilə daha uğurlu nəticələr əldə edəcək.

**– Müsahibə üçün sağ olun.**

***Söhbəti hazırladı:***
***Namiq QƏDİMOĞLU***
***XQ***



COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024

# COP29 iqlim diplomatiyasında yeni mərhələ açdı

**"GLOBE" təşkilatının baş icraçı direktoru Malini Mehra Azərbaycan mediasına müsahibəsində 29-cu iqlim diplomatiyasında irəliləyişə çevriləcəyinə əminliyini ifadə edib. O, eyni zamanda, BMT-nin iqlim prosesi çərçivəsində dünya qanunvericilərinin əsas rolunu vurğulayıb və bu tədbiri parlament üzvləri və onların seçiciləri üçün diqqət mərkəzi adlandırıb.**



"İl ərzində biz parlament üzvlərinin COP prosesini, iqlim dəyişikliyinin əhəmiyyətini və bu prosesdə necə iştirak edə biləcəkləri barədə məlumatlılığı artırmaq üçün Monqolustandan Malaviyə qədər bütün dünyada maarifləndirmə işləri aparırıq. COP-dakı əsas mesajımız budur ki, konfransların nəticə verməsini təmin edən məhz parlamentlərdir. Burada gördüyünüz insanlar icraedici hakimiyyətin nümayəndələridir. Amma daha iki hakimiyyət qolu var – qanunvericilik və məhkəmə. Parlamentlərin rolu olduqca vacibdir, çünki onlar 3 əsas funksiyanı yerinə yetirirlər. Birinci – bu razılaşmalardan irəli gələn hüquqi çərçivələrin yaradılmasıdır", – deyə o qeyd edib.

M.Mehra qeyd edib ki, ikincisi, parlamentarilər nəzarətin həyata keçirilməsində əsas rol oynayırlar. Onlar beynəlxalq konfranslar çərçivəsində üzərlərinə götürülən öhdəliklərin yerinə yetirilməsinə cavabdeh olan hökumətlərin işinə nəzarət edirlər. Üçüncü və ən vacib funksiya isə maliyyə ilə bağlıdır. COP29 maliyyə COP-udur. Parlamentlər büdcələri idarə edir və təsdiqləyirlər. Burada onların rolunun ən vacib tərəfi – vəsaitlərin istifadəsinə nəzarət üzə çıxır. Bu, donor ölkələrin dövlət pullarının, yəni vergi ödəyicilərinin vəsaitlərinin alıcı ölkələrdə necə istifadə olunduğunu səmərəli şəkildə izləməsi üçün vacibdir. Əsas məsələ bu vəsaitlərin, həqiqətən, nəzərdə tutulduğu şəxslərə fayda verməsidir.

"GLOBE"nin baş icraçı direktorunun sözlərinə görə, parlamentlərin hökumətlərinə konkret fəaliyyətlərin razılaşdırılması üçün mandat vermələri kritik əhəmiyyət kəsb edir. Məhz bu məsələdə ən böyük çətinliklər ortaya çıxır. Bütün hökumətlər konfransa konkret hədəflərə nail olmaq üçün parlament mandatı ilə gəlmir. Bu, qərar qəbul etmə prosesini əhəmiyyətli dərəcədə çətinləşdirir, çünki onlar öz ölkələrinə qayıtdıqdan sonra mövqelərini müdafiə etmək məcburiyyətində qalırlar. Buna görə də parlamentlərin bu prosesdə rolu əvəzedilməzdir.

# BMT Azərbaycanın ekoloji səylərini yüksək qiymətləndirir

**BMT Azərbaycanın iqlim dəyişmələrinə qarşı tədbirlərini yüksək qiymətləndirir. Bu fikri Birləşmiş Millətlər Təşkilatının Baş katibinin köməkçisi, qurumun İnkişaf Proqramının Siyasət və Proqrama Dəstək Bürosunun direktoru Markos Neto COP29 çərçivəsində keçirilən "Qafqaz dağları və ətrafı üçün dayanıqlılıq tədbirləri: milli adaptasiya planları və regional yanaşmalar" mövzusunda tədbirdə səsləndirib.**




Baş katib köməkçisi Azərbaycan hökumətini BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına öz milli adaptasiya planını təqdim etməsi münasibətilə təbrik edib, təşkilatın bu nailiyyətə dəstək verdiyini vurğulayıb. O, Azərbaycanla BMT-nin İnkişaf Proqramı arasında mövcud əməkdaşlığın iqlim dəyişikliklərinə uyğunlaşma və karbon emissiyalarının azaldılması istiqamətində mühüm əhəmiyyət daşıdığını diqqətə çatdırıb.

Azərbaycan hökuməti ilə tərəfdaşlıq çərçivəsində bərpaolunan enerji strategiyasının inteqrasiyası, enerji səmərəliliyinin artırılması və əsaslı yanaşmalar vasitəsilə biomüxtəlifliyin qorunması istiqamətində mühüm işlər görüldüyünü bildirən Markos Neto xüsusilə dağ ekosistemlərində və həssas icmalarda iqlim dəyişikliklərinin yaratdığı risklərə qarşı tədbirlərin həyata keçirilməsinin vacibliyini vurğulayıb.

BMT rəsmisi diqqəti iqlim dəyişikliklərinə adaptasiya üçün maliyyə resurslarının çatışmazlığına yönəldərək deyib ki, hazırda inkişaf etməkdə olan ölkələrin illik adaptasiya ehtiyacları, ən azı, 250 milyard ABŞ dolları təşkil edir: "Bununla belə, mövcud beynəlxalq maliyyə axınları bu ehtiyacları qarşılamaq üçün kifayət deyil. BMT-nin İnkişaf Proqramı 2025-ci ilə qədər iqlim dəyişikliyi ilə mübarizəni gücləndirmək və adaptasiya tədbirlərini genişləndirmək məqsədilə BMT sistemi ilə birgə fəaliyyət göstərir. Milli və regional səviyyədə strateji yanaşma adaptasiya tədbirlərinin daha geniş miqyasda həyata keçirilməsinə töhfə verəcək".

Qeyd olunub ki, BMT-nin İnkişaf Proqramı 2017-ci ildən etibarən Yaşıl İqlim Fondu vasitəsilə 42 ölkəyə texniki dəstək göstərərək onların milli adaptasiya proseslərini inkişaf etdirməsinə yardım edib.

# Tuqay meşələrinin karbontutma potensialı yüksəkdir




**COP29 konfransı çərçivəsində "Tuqay meşələrinin karbontutma potensialının qiymətləndirilməsi" mövzusunda təqdimat keçirilib. Tədbirdə "Regional İnkişaf" İctimai Birliyinin gerçəkləşdirdiyi "Tuqay meşələrinin karbontutma potensialının qiymətləndirilməsi, meşə ekosisteminin bərpası" layihəsinin Kür və Araz çaylarının subasarında yerləşən Tuqay meşələrinin karbon dinamikasının qiymətləndirilməsi ilə bağlı olduğu bildirilib.**

Ekologiya və təbii sərvətlər, Elm və təhsil nazirlikləri, Bakı Dövlət Universiteti və Aviasiya Akademiyasının mütəxəssislərinin, eləcə də layihənin tərəfdaşı olan Qana Respublikasının "Abibiman Foundation LBG" qeyri-hökumət təşkilatının nümayəndələrinin iştirak etdikləri mərasimdə çıxış edən "Regional İnkişaf" İctimai Birliyinin meneceri Gülbağda Leysanova layihənin məqsədi haqqında ətraflı məlumat verib, ölkəmizdə biomüxtəlifliyin qorunmasına yönəlmiş layihələrin icrasının əhəmiyyətinə diqqət çəkib.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidmətinin meşəbərpa şöbəsinin müdiri Vahid Fərzəliyev və Bakı Dövlət Universitetinin biologiya fakültəsinin dekan müavini Yusif Abiyev Tuqay meşələrinin biomüxtəlifliyin qorunması və inkişafı, eləcə də atmosferdə karbon emissiyasının azaldılması rolundan, uzun müddət ciddi mühafizə edilməməsi, iqlim dəyişikliyi ilə əlaqədar Kür çayının hidroloji rejiminin dəyişməsi, eləcə də ağacların cins tərkibinin əhəmiyyətli dərəcədə dəyişməsi barədə danışıblar.

Natiqlər meşə ekosisteminin bərpası və karbon dinamikasının qiymətləndirilməsi, əldə olunan nəticələrin meşələrin salınması və ya bərpası işlərinin planlaşdırılması, habelə digər məqsədlər üçün istifadəsinin əhəmiyyətini qeyd edərək, layihə çərçivəsində sahə tədqiqatlarının aparılması məqsədilə alınmış avadanlıqlar barədə məlumat veriblər. Türkiyəli mütəxəssis, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı təşkilatının nümayəndəsi Cuma Uykun "Meşələrdə biokütlə və karbon hesablanması metodologiyası: anlayışlar, problemlər və həllər" mövzusunda iştirakçılara ətraflı məlumat çatdırıb.

Sonra layihə çərçivəsində Hacıqabul rayonu ərazisində Tuqay meşə ekosisteminin bərpasına yönəlmiş ağacəkmə aksiyasından bəhs edən videoçarx nümayiş olunub. Bildirilib ki, aksiya zamanı 1,5 hektar ərazidə Tuqay meşəsinə aid 1800 ədəd ağac tingi, eləcə də 20 sot ərazinin mühafizəsi təşkil edilməklə nəsli kəsilməkdə olan 200-dən çox müxtəlif ağac növü əkilib.

Qeyd edək ki, təqdimatı keçirilən layihə Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin birgə təşkilatçılığı ilə QHT-lər üçün reallaşdırılan "COP29-la bağlı beynəlxalq təşəbbüslər" müsabiqəsi çərçivəsində icra olunur.

# Bakı konfransının təcrübəsi beynəlxalq önəm daşıyır




**Noyabrın 22-də "Gələcəyin qurulması: Azərbaycanda və dünyada keçirilən COP29-un irsi" mövzusunda panel müzakirə keçirilib. İclasdaAzərbaycanın COP29-a evsahibliyi etməsinin dayanıqlı inkişaf üzərindəki uzunmüddətli təsirləri diqqət mərkəzində olub.**

Azərbaycanda Amerika Ticarət Palatasının Dayanıqlı İnkişaf və Korporativ Təsir Komitəsinin sədr müavini Ceyhun Atayevin moderatorluğu ilə keçirilən panel müzakirəsində Azərbaycan Sahibkarlar Konfederasiyasının baş icraçı direktoru və COP29 Təşkilat Komitəsinin üzvü Natəvan Məmmədova, Azərbaycan Tekstil Assosiasiyasının İcraçı direktoru Fəridə Axundova, "GLOBE International" şirkətinin baş direktoru Malini Mehra və BMT İnkişaf Proqramının Dayanıqlı Maliyyə Mərkəzinin direktoru Markos Neto çıxış edərək ölkəmizin iqlim dəyişikliklərinə qarşı mübarizə sahəsindəki səylərini yüksək qiymətləndiriblər. COP29-un ölkəyə gətirdiyi iqtisadi, sosial və ekoloji faydaları vurğulayan natiqlər qeyd ediblər ki, bu konfrans Azərbaycanın qlobal iqlim gündəliyindəki mövqeyini gücləndirib və Dayanıqlı İnkişaf Məqsədlərinə çatmaq üçün yeni imkanlar yaradıb.

Müzakirələrdə COP29 çərçivəsində həyata keçirilən tədbirlərin yerli və beynəlxalq əhəmiyyəti vurğulanıb. Qeyd olunub ki, Azərbaycan bu tədbirlər vasitəsilə davamlı enerji həlləri, yaşıl texnologiyalar və ekoloji maarifləndirmə təşəbbüslərini həyata keçirir. Məclisdə Azərbaycanın dayanıqlı şəhər inkişafı, bərpaolunan enerji layihələri və ekoloji turizmin genişləndirilməsi sahəsindəki nailiyyətləri təqdim olunub. COP29-un uzunmüddətli təsirləri ilə bağlı müzakirələrdə ekspertlər və iştirakçılar Azərbaycan təcrübəsinin gələcək beynəlxalq tədbirlər üçün nümunə ola biləcəyini vurğulayıblar.

Sonda iştirakçılar COP29-un nəticələrinin ölkə və dünya üçün strateji əhəmiyyət daşıdığını vurğulayaraq gələcək üçün əməkdaşlıq perspektivləri barədə təkliflər səsləndiriblər.

# Həyatın yaşıl qalması üçün su!




**COP29 çərçivəsində "İqlim, təbiət və insanlar üçün su həyat xəttinin təbliği" tədbirinin yüksəksəviyyəli açılış mərasimi keçirilib. Toplantıda qlobal iqlim fəaliyyəti çərçivəsində daha güclü su ölçüsü yaratmaqla İqlim fəaliyyəti naminə su üzrə Bakı Dialoquna rəsmi start verilib.**

Açılış nitqi ilə çıxış edən ekologiya və təbii sərvətlər naziri, COP29-un prezidenti Muxtar Babayev susuzluq probleminin Bakı iqlim konfransının müzakirələrində prioritet məsələlərdən biri olduğuna diqqət çəkib. Suyun iqlim problemlərinin aradan qaldırılmasında həlledici rol oynadığını vurğulayan nazir buna rəğmən məsələnin uzun illər qlobal iqlim müzakirələrindən kənarda qaldığını diqqətə çatdırıb.

Qeyd olunub ki, iqlim dəyişiklikləri ilə bağlı məsələlərin həllində susuzluq probleminə bütün aspektlərdən nəzər yetirilməlidir: "Su həyatdır. Məhz bu səbəbdən COP29 Sədrliyi su məsələsini prioritetə çevirib. Dialoqları sürətləndirmək tərəfdaşlığın artırılmasına təkan verəcək. Biz iqlim fəaliyyəti çərçivəsində su tərəfdaşları tapmalıyıq. Fəaliyyətlərə təkan üçün Bakı Dialoqu mühümdür".

BMT-nin Ətraf Mühit Proqramının icraçı direktoru İnger Andersen bildirib ki, dünyada 3 milyarda yaxın insan su qıtlığından əziyyət çəkir. O deyib: "Bir çox problem su çatışmazlığından yaranır. 2023-cü ildən bəri emissiyalar 1,3 faiz artıb. Qlobal istilik artımı həddinin 1,5 dərəcə səviyyəsində qalmasını təmin etmək üçün hələlik götürdüyümüz öhdəlikdən uzağıq, həmçinin istixana qazlarının emissiyasında artım qeydə alınır".

Emissiyaların azaldılmasına diqqət çəkən İnger Andersen deyib ki, əgər emissiyalar azaldılmasa, 1,5 dərəcə hədəfinə nail olunmayacaq. O, su probleminin həlli üçün tədbir görülməsinin vacibliyini vurğulayaraq bildirib ki, uzunmüddətli dayanıqlığı, su resurslarının dözümlülüyünü təmin etmək üçün su resurslarının keyfiyyətinin idarə edilməsi həyata keçirilməlidir, həmçinin ətraf mühit və iqlim məsələlərinin toqquşduğu məqamlar nəzərə alınmalıdır.

Daha sonra BMT-nin Ətraf Mühit Proqramının icraçı direktoru İnger Andersen və ekologiya və təbii sərvətlər naziri, COP29-un prezidenti Muxtar Babayev iqlim fəaliyyəti üçün su üzrə Bakı Dialoqu təşəbbüsünə dair niyyət protokolunu imzalayıblar. Qeyd edilib ki, niyyət protokolu təşəbbüsün gələcək fəaliyyətlərinin icrasına dəstəyi nəzərdə tutub.

# İnnovativ strategiyalar biomüxtəlifliyin qorunmasına yönəlib

**Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev COP29 çərçivəsində təşkil olunan "Qlobal liderlərin dəyirmi masası" konfransında innovativ strategiyaların biomüxtəlifliyin qorunması, bərpası və davamlı inkişafında önəmli rol oynadığını, maliyyə və investisiyaların artırılmasına müsbət təsir göstərdiyini bildirib.**

Onun sözlərinə görə, dövlət–özəl sektor tərəfdaşlığının dərinləşdirilməsi, təbiətə əsaslanan həllərin diqqətdə saxlanılması iqlim dəyişikliyi ilə bağlı məqsədlərin gerçəkləşdirilməsini şərtləndirir. Bu məqsədlər 2030-cu ilə qədər planetin quru ərazisinin və okeanlarının azı 30 faizini qorumağı, biomüxtəlifliyəmənfi təsiri azaltmağı, iqlimə davamlılığı artırmağı və gələcək nəsillər üçün davamlı inkişafı reallaşdırmağı nəzərdə tutur. Təbiətə əsaslanan həllərə investisiya qoymaqla iqtisadi imkanları artırmaq, davamlılığı gücləndirmək və davamlı gələcəyin təməlini qoymaq mümkündür.



Nazir qeyd edib ki, bu gün qarşıya qoyulan 3 vəzifədən birincisi milli siyasətin uyğunlaşdırılmasıdır ki, bura iqlim, biomüxtəliflik təşəbbüslərinin milliləşdirilməsi üçün strategiyaların araşdırılmasıdır. İkincisi, dövlət və özəl sektorlar arasında əməkdaşlığın gücləndirilməsidir: Hökumət siyasətini və korporativ rəhbərliyi birləşdirərək ekosistemləri qoruyaraq ədalətli nəticələr təmin etməkdir. Nəhayət, mühafizə üçün maliyyə artımını gerçəkləşdirməkdir.

**Səhifəni hazırladılar:
Vaqif BAYRAMOV,
Mirbağır YAQUBZADƏ
XQ**

**Uğurlu nəticəni bəri başdan qeyd etməyə dəyər: COP29 çərçivəsində futbol klublarının iqlim dəyişikliyi ilə mübarizə alyansı yaradıldı. Bu, BMT-nin qlobal iqlim sammitləri tarixində ilk presedentdir. İmza Azərbaycana məxsusdur.**

# COP29 Dünya idmanını da yaşıla bürüdü

## *Bakının məşhur futbol qonaqları – İnfantino, Fatih Terim, Joan Laporta, Ronaldinyo…*




İndi isə Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Sazişinin Tərəflər Konfransının 29-cu Sessiyası (COP29) ilə bağlı Azərbaycana gələn məşhur futbol adamları barədə söhbətimizə başlayaq. Dünyanın ən nüfuzlu idman təşkilatlarından olan FIFA-nın prezidenti Canni İnfantino COP29-da iştirak etmək üçün ölkəmizə səfər edib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də beynəlxalq futbol federasiyasının rəhbəri ilə görüşüb.

Əvvəlcə İnfantino xatirə hədiyyələrini və xüsusi olaraq hazırlanmış, üstündə Azərbaycan Prezidentinin adı və soyadı olan topu dövlətimizin başçısına təqdim edib. Prezident İlham Əliyev COP29-da iştirak etdiyinə görə FIFA prezidentinə təşəkkürünü bildirib. Qonaq da öz növbəsində, COP29-a dəvətə və bu mötəbər tədbirin yüksək səviyyədə təşkilinə görə dövlətimizin başçısına minnətdarlığını ifadə edib.

Söhbət zamanı Azərbaycanda idmanın bütün növləri kimi, futbola da göstərilən dövlət qayğısı qeyd olunub, İnfantinonun ölkəmizdə futbolun inkişafına verdiyi dəstəyə görə minnətdarlıq bildirilib. Görüşdə Azərbaycan ilə FIFA arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi məmnunluqla vurğulanıb, bu əməkdaşlığın gələcəkdə də davam edəcəyinə əminlik ifadə olunub. Azərbaycanda FIFA-nın təşkilatçılığı ilə tədbirlərin keçirilməsi məsələsi müzakirə edilib.

FIFA-nın İnfantinonun Bakı səfərinə həsr edilmiş məlumatında deyilir: "FIFA prezidenti Azərbaycan Prezidenti İlham Əliyevin dəvəti ilə COP29 Sammitində iştirak edib, həmçinin müxtəlif dövlət və hökumət başçıları ilə görüşüb. Sammit 2018/19 UEFA Avropa Liqasının final matçının və UEFA Avro 2020 turnirinin bəzi oyunlarının keçirildiyi Bakı Olimpiya Stadionunda keçirilir".

Canni İnfantino da şəxsi "Instagram" hesabında COP29 ilə bağlı paylaşım edib: "Qlobal iqlim problemlərini həll etmək üçün dünya liderlərinin toplaşdığı Bakıda keçirilən COP29-a dəvət almaq şərəfli idi. FIFA beynəlxalq təşkilat olaraq, ətraf mühit və iqlimin qorunmasına ciddi yanaşır. Biz iqlimlə bağlı fəaliyyətə dəstək olmaq və töhfə vermək üçün proqramlar hazırlamış və həyata keçirmişik. Çox məmnun oldum ki, iştirak edən hər kəsin ümumi məqsədi var: uşaqlarımız və onların gələcəyi. FIFA iqlim dəyişikliyi ilə bağlı mühüm qlobal məsələdə öz rolunu oynamağa davam edəcək. Prezident İlham Əliyevə, AFFA-ya və Azərbaycandakı hər kəsə təşəkkür edirəm".




* **

COP29 ilə bağlı Azərbaycana səfər edən məşhur simalardan biri də əfsanəvi futbolçu Ronaldinyo olub. Noyabrın 12-də Bakıya gələn braziliyalı ölkəmizdə müxtəlif tədbirlərdə iştirak edib. Ronaldinyo Azərbaycan klublarının aşağı yaş qruplarından ibarət komandalarının futbolçuları ilə görüşüb. "Qarabağ", "Neftçi", "Sabah", "Zirə" və "Marset" Futbol Akademiyasının yeniyetmə və gənc oyunçuları 2002-ci ilin dünya çempionu ilə ünsiyyətdə olublar.

Ronaldinyo COP29-un keçirildiyi məkana da baş çəkib. O, Braziliya, Azərbaycan və digər ölkələrin pavilyonları, həmçinin Heydər Əliyev Fondunun stendi ilə tanış olub. 2005-ci il "Qızıl top"unun sahibi səfər müddətində "Dəniz Mall" ticarət mərkəzində xüsusi qayğıya ehtiyacı olan uşaqlarla da görüşüb. O, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin 1 saylı Uşaq evi və 1 saylı Əlilliyi müəyyən edilmiş şəxslər üçün sosial xidmət müəssisəsinin benefisiarları ilə görüş zamanı onlara hədiyyələr təqdim edib və şəkil çəkdirib.

Bakıda Ronaldinyoya Qarabağ xalçası, Azərbaycan millisinin 10 nömrəli forması və digər hədiyyələr təqdim olunub.

Ölkəmizi tərk etdikdən sonra Braziliya millisinin və "Barselona" klubunun sabiq futbolçusu Azərbaycana səfəri ilə bağlı paylaşım edib. O, sosial şəbəkə hesabında COP29 çərçivəsində Bakıda keçirdiyi görüşlərin görüntülərini bölüşüb.

***

"Qarabağ" Futbol Klubunun təşəbbüsü ilə Bakıda COP29 çərçivəsində futbol klublarının iqlim dəyişikliyi ilə mübarizə alyansı yaradılıb. Bununla bağlı tədbir noyabrın 16-da Mavi zonanın "Nəsimi" zalında keçirilib.

"Sky Sports"un məşhur idman şərhçisi David Qarridonun moderatorluğu ilə təşkil olunan "İqlim naminə futbol" tədbirində dünyanın bir sıra nüfuzlu futbol klubları iqlim dəyişmələrinə qarşı mübarizədə öz öhdəliklərini əks etdirən bəyanatlarla çıxış ediblər.

Gənclər və idman naziri Fərid Qayıbov Azərbaycanın Avropa və İslam Həmrəylik Oyunları, "Formula 1" kimi böyük turnirlərə və 2019-cu ildə UEFA Avropa Liqasında "Çelsi" və "Arsenal" komandaları arasında keçirilmiş final matçına evsahibliyi etdiyini, Bakının idman tədbirlərinin mərkəzinə çevrildiyini xatırladıb. O, 4 milyarddan çox izləyiciyə sahib futbolun mühüm iqlim konfransının bir parçası olmasının əhəmiyyətindən danışıb.




COP29-un baş sözçüsü Yalçın Rəfiyev misilsiz təşəbbüsə rəhbərlik etdiyinə görə "Qarabağ"a, bu təşəbbüsün əhəmiyyətini dərk etdiyinə və dəstək verdiyinə görə Avropa Klublar Assosiasiyasına (ECA) təşəkkür edib. O, alyansın dünyada ən aktual problemlərindən biri olan iqlim dəyişikliyinin həllinə öz töhfəsini verəcəyini bildirib.

"Qarabağ"ın prezidenti Tahir Gözəl isə dünyanın ən nüfuzlu klublarının bu təşəbbüs ətrafında toplaşmasının qürurverici hal olduğunu vurğulayıb. Onun sözlərinə görə, təşəbbüs futbolun iqlim dəyişmələrinə qarşı mübarizəsində populyarlığından istifadə etmək məqsədi daşıyır.

Sonra iqlim dəyişikliyi ilə mübarizədə idmanın təsiri haqqında geniş müzakirələr aparılıb. İqlimlə bağlı mövzularda daim həssas davranan, inkişaf edən və hazırda dünya futbolunda dayanıqlılıq lideri olan "Liverpul" və bu sahədə liderlərdən sayılan "Udineze" klublarının nümayəndələri zəngin təcrübələrini digər iştirakçılarla bölüşüblər. Klublar dayanıqlılıqla bağlı sınaqdan keçirdikləri unikal layihələr barədə təqdimat ediblər.

Təqdimatlardan sonra tanınmış futbol klublarının iqlim dəyişikliyi ilə mübarizədə birgə alyansı yaradılıb. Alyansda Azərbaycan təmsilçisi ilə yanaşı, iqlim dəyişikliyi ilə mübarizədə və dayanıqlılıq mövzularında böyük təcrübəyə malik 10 klub – "Liverpul", "Tottenhem" (hər ikisi İngiltərə), "Atletiko Madrid", "Real Betis" (hər ikisi İspaniya), "Qalatasaray", "Fənərbağça" (hər ikisi Türkiyə), "Udineze" (İtaliya), "Portu" (Portuqaliya), "Flamenqo" (Braziliya) və "Malmö" (İsveç) yer alıblar.

İqlim mövzusuna həssas yanaşan və bununla bağlı yaddaqalan layihələr reallaşdıran həmin klublar alyansın yaradılması barədə sənədə imza atıblar. Bununla da həmin 11 tanınmış klub qurumun yaradıcıları hesab olunub, öz öhdəliklərinin bəyannaməsini imzalamaqla və insanları iqlim dəyişmələri üçün hərəkətə keçməyə çağırmaqla həmrəylik nümayiş etdiriblər. Bu məqsədlə futbol klubları dayanıqlı təcrübələr tətbiq etmək, məlumatlılığı artırmaq, futbolun populyarlığından istifadə etməklə iqlim dəyişmələrinə qarşı mübarizəni təşviq etməyə, təkcə bir-biri ilə deyil, "İqlim fəaliyyəti üçün UNFCCC idman" da daxil olmaqla, digər müvafiq təşkilatlarla əməkdaşlıq etməyə hazır olduqlarını bildiriblər.

Bu mərasim dünya mətbuatının da diqqət mərkəzində olub. Məşhur "Forbes" jurnalı tanınmış futbol klublarının Bakıda bir araya gəlməsinə xüsusi diqqət ayırıb və önəm verib: "Azərbaycanın "Qarabağ" klubunun və ECA-nın birgə rəhbərlik etdiyi İqlim üzrə Futbol Klubları Alyansına ilk olaraq 11 klub qoşulub. Bu alyansın əsas məqsədi daha çox futbol klubunu təşəbbüsə qoşulmağa həvəsləndirməkdir. Əlavə öhdəliklərə isə klubun ətraf mühitə təsirini minimuma endirmək, azarkeşləri iqlimlə bağlı tədbirlər görməyə ruhlandırmaqdır".




İtaliyanın məşhur "RAI" agentliyi "Qarabağ"ın təşəbbüskarı olduğu alyansın gələcək naminə bir araya gəldiyini vurğulayıb: "Udineze"nin stadionunun işıqlandırılması üçün Günəş elektrostansiyası bütün İtaliya üçün nümunədir. ECA-nın dayanıqlılıq inkişafı üzrə İşçi qrupunun üzvü olan "Udine" klubu yeni alyansın təsis edilməsi sənədini imzalayanlar sırasındadır. Bu klublar iqlim dəyişiklikləri ilə birgə mübarizə üçün öz üzərinə öhdəliklər götürüblər. Bu alyans dayanıqlı gələcək üçün birgə fəaliyyətlər həyata keçirəcək".

"Sky Sport" Bakıda alyans yaradılmasını tarixi hadisə sayıb: "Futbol dünyasının və ECA-nın COP tədbirində tarixi iştirakı Bakıda gerçəkləşib. Burada son illərdə sosial və ekoloji məsələlərdə həssaslıq göstərən klublar iştirak ediblər. Alyans yaradan 11 klub iqlim dəyişiklikləri ilə mübarizədə öhdəlikləri imzalayıblar. Tarixdə ilk dəfə idman klubları iqlimlə bağlı mümkün böhranla mübarizədə səylərini birləşdiriblər".

"Corriere" qəzeti də alyansın yaradılmasını futbol adına böyük addım hesab edib: "Futbol da artıq Bakıda COP-29 meydanındadır. Bu, tarixdə ilk dəfədir. Dünyanın aparıcı klubları dayanıqlılıqdakı fəaliyyətlərini nümayiş etdirmək üçün bir araya gəliblər. "Qarabağ"ın təşəbbüsü ilə yeni dövrə – klubların alyansda birləşərək iqlim dəyişikliyi ilə birgə mübarizəsinə start verilib. ECA isə quruma üzv olan 700 klub adından birləşməyə çağırış edib".

***

Tanınmış türkiyəli mütəxəssis Fatih Terim "Qarabağ"ın dəvəti ilə COP29 çərçivəsində futbol klublarının iqlim dəyişikliyi ilə mübarizədə birgə alyansının yaradılması ilə bağlı tədbirdə fəxri qonaq kimi iştirak edib. Türkiyəli qonaqlar arasında "Qalatasaray" İdarə Heyətinin üzvü İbrahim Hatipoğlu da olub.

Səfər zamanı Fatih Terim gənclər və idman naziri Fərid Qayıbovla görüşüb. Qonağı salamlayan nazir ölkəmizdə idman sahəsində görülən işlər və qazanılan uğurlar barədə məlumat verib. Fatih Terim səmimi qəbula görə təşəkkür edib, ilk dəfə ölkəmizə 1996-cı ildə gəldiyini və Azərbaycan futbolu ilə bağlı maraqlı xatirələrinin olduğunu bildirib.

Görüş zamanı iki qardaş ölkədə futbolun hazırkı vəziyyəti və uşaq futbolunun inkişafı yolları müzakirə edilib. İbrahim Hatipoğlu, "Qalatasaray" İdarə Heyətinin azərbaycanlı üzvü Emin İmanov da iştirak ediblər. Fatih Terimin jurnalistlər üçün brifinqi də təşkil olunub. Tədbirdə Türkiyə millisinin sabiq baş məşqçisi çıxışında Azərbaycan və Qurban Qurbanovdan danışıb, Rəşad Sadıqovu salamlayıb.

Xatırladaq ki, Fatih Terimin rəhbərliyilə Türkiyə millisi Azərbaycan komandası ilə üç yoldaşlıq görüşü keçirib ki, onlardan da ikisi Bakıda olub. Millimizin Tofiq Bəhramov adına Respublika Stadionunda keçirilən ilk oyununda – 1996-cı ildə Türkiyə komandası 1:0 hesabı ilə qalib gəlib, 2006-cı ildəki qarşılaşma isə heç-heçə nəticələnib (1:1). Nəhayət, 2009-cu ildə Kayserideki oyun da Türkiyə futbolçularının 2:0 hesablı qələbəsi ilə başa çatıb. Bundan başqa, Fatih Terimin rəhbərlik etdiyi "Qalatasaray" 2020-ci ildə Bakıda Avropa Liqasının seçmə oyununda "Neftçi"yə 3:1 hesabı ilə qalib gəlib.

***

İspaniyanın məşhur "Barselona" klubunun prezidenti Joan Laporta da Bakıda olub. O, açıqlamasında dəvətə görə Azərbaycana təşəkkür edib: "Mən Bakıya sammitə görə gəlmişəm. Ölkənizdə olmaqdan məmnunam. Azərbaycana təşəkkür edirəm".

Laporta COP29-un keçirildiyi məkanda yerləşən Mavi zonanı ziyarət edib. Kataloniya təmsilçisinin rəhbəri oradakı pavilyonlarla tanış olub və insanlarla fikir mübadiləsi aparıb.

O, Zəfər parkını da ziyarət edib. Azərbaycanın 44 günlük Vətən müharibəsində ərazi bütövlüyünü bərpa etməsi barədə ona ətraflı məlumat verilib. "Barselona"nın rəhbəri Azərbaycanın aşağı yaş qruplarından ibarət komandalarının üzvləri – "Qarabağ", "Neftçi", "Sabah", "Zirə", ASTA Futbol Akademiyası və "Marset" Futbol Akademiyasının yeniyetmə və gənc oyunçuları ilə də görüşüb.

Noyabrın 17-də isə Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov fəxri qonaqla görüşüb. Görüş zamanı Laportanın COP29-da iştirakının əhəmiyyəti vurğulanıb. Sonra Azərbaycan futbolunun inkişafı ilə bağlı fikir mübadiləsi aparılıb, dünyanın aparıcı futbol klublarından biri olan "Barselona" ilə birgə layihələrin həyata keçirilməsi, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

Yeri gəlmişkən, "Barselona" rəsmi "Instagram" hesabında prezident Laportanın Bakıya səfəri ilə bağlı video paylaşıb. Kluba məxsus 137 milyonluq səhifədəki video COP29 çərçivəsində keçirilən görüşləri əks etdirir.

Xatırladaq ki, Laportanın 2003-2010-cu illərdə "Barselona"ya rəhbərliyi dövründə komanda dörd dəfə La Liqa, iki dəfə də Çempionlar Liqasını qazanmaqla ümumilikdə 12 kuboka sahib olub. 2009-cu ildə isə "Barselona" il ərzində altı kubok qazanıb və rekorda imza atıb. O, 2021-ci ilin martın 7-də yenidən "Barselona"nın prezidenti seçilib və bu müddətdə klub hələ ki, cəmi bir dəfə İspaniya çempionu (2023) olub.

Beləliklə, COP29 həm ilk dəfə idmanı, həm də onun avanqard növü sayılan futbolu "yaşıl dünya" çağırışlarına qoşmaqla yaddaşlarda qalacaq…

***Rasim MÖVSÜMZADƏ,***
***idman şərhçisi***




**Dünyanın coğrafi xəritəsində qocaman Xəzərin sahilində qərar tutan bir gənclik şəhəri var. Bura Cənubi Qafqazın 2-ci sənaye mərkəzi olan Sumqayıtdır. Yaranmasından cəmi 75 il ötür, amma burada qısa müddətdə neçə əsrə sığmayan möhtəşəm quruculuq işləri görülüb. Unudulmaz Xalq şairi Nəbi Xəzri demişkən, bu gözəl, müasir şəhər olmasaydı, bəlkə də, yer üzü bir qədər boş görünərdi...**

# Arzulardan boy atan şəhər



Sumqayıt İkinci Dünya müharibəsindən sonra keçmiş SSRİ-nin kimya və metallurgiya sənayesinin inkişafı üçün əsas bazalardan biri olaraq yaradılıb. Bakıdan bir qədər şimalda pərvəriş tapan bu sənaye sektoru on illərlə neft-kimya məhsullarının istehsalı mərkəzi kimi fəaliyyət göstərərək, iqtisadiyyatın mühüm sütunu olub. Paralel şəkildə evlər, təhsil, səhiyyə və mədəniyyət ocaqları, kitabxanalar tikilib, yaşıllıqlar salınıb və nəhayət, 1949-cu ildə Sumqayıta şəhər statusu verilib.

Düz yarım əsr əvvəl, hakimiyyətə gəlişinin 5-ci ilində – 1974-cü ilin noyabrında Azərbaycan rəhbəri Heydər Əliyev Sumqayıt Dövlət Dram Teatrının indiki binasında (o vaxt Səməd Vurğun adına mədəniyyət sarayı idi) şəhərin 25 illiyinə həsr olunan təntənəli yubiley mərasimində çıxış edib. Gənc şəhərin önəmini diqqətə çatdırıb, Sumqayıtın planlaşdırılması, yaşıllaşdırılması, arxitekturasına yüksək qiymət verib. Ulu öndər hər zaman yeni sahil şəhərinin inkişafını diqqətində saxlayıb: sovet dönəmində 10 dəfə, müstəqillik illərində isə 6 dəfə buraya səfər edib. Unudulmaz dahi şəxsiyyətin hər səfəri sumqayıtlılardan ötrü tarixi hadisəyə çevrilib, xeyir-bərəkət, inkişaf, tərəqqi rəmzi olub.

Ümummilli liderin Azərbaycana rəhbərlik etdiyi ilk dönəmdə – ötən əsrin 70–80-ci illərində Sumqayıt iqtisadi potensialına görə keçmiş SSRİ məkanında və onun hüdudlarından kənarda tanınan bir şəhərə çevrilib. Buradakı müəssisələrin çeşidli məhsulları ittifaqın 700-dən çox şəhərinə və xarici dövlətlərə ixrac olunurdu.

Prezident İlham Əliyev hakimiyyətdə olduğu 21 il ərzində Sumqayıta 30 dəfədən çox səfər edib və onun inkişafı üçün onlarla sərəncam imzalayıb. Dövlət başçısı hər səfərində modern sənaye sahələri, müəssisələrlə bərabər, müxtəlif sosial-mədəni obyektlərin açılışını reallaşdırıb. Qədirbilən sakinlər fəxrlə deyirlər ki, Prezidentimizin bir əli daim Sumqayıtın üstündədir. İndi Sumqayıt büdcədən dotasiya almayan, yeni əldə etdiyi gəlirlə yerli xərclərini qarşılamaq imkanına sahib olan şəhər statusundadır. Təkcə son 8 ildə gənclik şəhərində infrastruktur layihələrinə 6 milyard 500 milyon manatdan çox investisiya qoyulub.



Bu böyük sənaye mərkəzi ölkəmizin makroiqtisadi göstəricilərinin artmasında xüsusi yer tutur. Yeni əsrdə yaradılan sənaye parklarında kimya, metallurgiya, elektroenergetika, tikinti və toxuculuq, qida sənayesi müəssisələri müasir, modern üslubda ərsəyə gətirilib. “Novus Plastica” MMC-nin Polimer qatqıları istehsalı müəssisəsi, Keramik Plitələr, Əlvan Metallar və Ferroərintilər, “Azgüntex” zavodları, tərkibinə çörək sexləri, taxıl anbarı, dəyirman və logistik mərkəz daxil olan “Sağlam qida” Aqrar-Sənaye Kompleksi, “Gilan” Tekstil Parkı, “SOCAR Karbamid” və “SOCAR Polymer” kimi zavodlar burada fəaliyyət göstərən faydalı iş əmsallı müəssisələrin yalnız bir qismidir. Fərəhli haldır ki, ötən əsrdə adı atmosferi çirkləndirən sənaye məkanları sırasında öndə çəkilən Sumqayıt artıq turizm obyektlərinin inşasının həyata keçirildiyi şəhərdir. Prezident İlham Əliyevin gənclik şəhərinə səfərlərində bu barədə verdiyi tapşırıqlar lazımınca icra olunur.

Son günlər Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) iştirakçılarından bir qismi Sumqayıt–Novxanı aralığındakı otellərdə qalır və onlar şəhərlə tanışlıq gəzintilərinə də çıxırlar. Qonaqlar paytaxt Bakının 30 kilometrliyində “göylərə meydan oxuyan, ayağı torpaqda möhkəm dayanan” müasir şəhərin gözəlliklərinə heyran qalırlar.

Yeri gəlmişkən qeyd edək ki, Sumqayıt ölkəmizin ən yaşıl şəhəridir. Burada özünəməxsus ekoloji standartlar formalaşıb. Hər sakinə 26 kvadratmetr yaşıllıq düşür. Parklarda, xiyabanlarda saysız-hesabsız, növbənöv ağaclar əkilib, “yaşıl ada”lar salınıb. Sumqayıtda bir ağac da var ki, bəlkə də, dünyada misli yoxdur. Bu, son vaxtlar əsaslı təmir edilmiş müqəddəs məkan – Şəhidlər xiyabanındakı “Zəfər ağacı”dır. Sumqayıt yetirməsi olan Milli Qəhrəman Polad Həşimovun anası Səmayə Həşimovanın, Milli Qəhrəman Qorxmaz Eyvazovun oğlu Asəm Eyvazovun, həmçinin Vətən Müharibəsi Qəhrəmanları Anar Şükürov, Ramiz Cəfərov, Sübhan Cəbrayılov, Camal İsmayılov və Mehrab Niftəliyevin ailə üzvləri şəhidlərimizin əziz xatirəsinə ucaldılmış “Qalib Azərbaycan əsgəri” abidəsi ilə bərabər, “Zəfər ağacı”nın da açılışında kövrək və qürurlu anlar yaşayıblar. Ölkəmizdə bir ilk olan, budaqlarından hərəsi bir şəhidin adına olan 3 min yarpaq-lövhəcik asılmış “Zəfər ağacı” bu müqəddəs məkana gələn hər kəsin diqqətini çəkir. Abidə “Sumqayıt Texnologiyalar Parkı” (STP) Şirkətlər Qrupu tərəfindən yaradılıb. Xiyabanın ziyarətçiləri, toy edən cütlüklər bu qəhrəmanlıq rəmzinin fonunda ehtiramla şəkil çəkdirirlər.

Sumqayıtlılar və şəhərin indiki rəhbərliyi bu gözəl məkanın inkişafında zəhməti olan, ona şan-şöhrət gətirən insanları da unutmurlar. Yəhya Məmmədov, Kamran Hüseynov, Kərim Axundov kimi şəxslər ilk dövrlərdə Sumqayıtda sənaye və metallurgiyanın inkişafında böyük rol oynayıblar. Fədakar zəhmətləri ilə tanınmış Əmək Qəhrəmanları Məzahir Abdullayev, Zəminə Həsənova, Murad Zeynalov, Tofiq Kərimov, Şəmşad Pənahov, Dadaş Dadaşov, Aslan Osmanov, Əsəd Məmmədəliyev, Məşədi Əliyev, Ağaxan Ağayev Sumqayıtın adını ucaldanlar olublar. Təsadüfi deyil ki, onların adlarına şəhərdə küçələr var, abidələri qoyulub, yaşadıqları evlərin divarına xatirə barelyefləri vurulub. Sumqayıtın fəxri sayılan tanınmış şəxslər də çox olub: İzzət Sadıxov, Nərgə Ağayev, Nurəddin Babayev, Ərşad Kərimov, Zamin Hüseynov və başqaları xoş hisslərlə xatırlanırlar.

Bir neçə il əvvəl Azərbaycanın ilk qadın metallurqu, Sosialist Əməyi Qəhrəmanı, Sumqayıtın fəxri vətəndaşı Zəminə Həsənovanın 100 yaşı tamam olanda doğulduğu Corat qəsəbəsində büstü qoyuldu. Açılış mərasimində Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov çıxış edərək dedi ki, unudulmaz insanlar Sumqayıtın tarixinin “qızıl fondu” sayılırlar. Onu da deyək ki, Zakir müəllim təntənəli gecələrə, yubiley mərasimlərinə hazırda aramızda olan sabiq rəhbərləri, şəhərin tanınmış ağsaqqallarını dəvət edib yan-yana əyləşməkdən də zövq alır. Məsələn, ötən əsrin son 7 ilində icra başçısı olmuş Şakir Abışova dəfələrlə ümumşəhər məclislərinin başında hörmət-izzətlə yer verildiyini görmüşük. Əməkdar mühəndis Təbrik Quliyev, Prezidentin fərdi təqaüdçüləri olan şairlər Əşrəf Veysəlli, Ofelya Babayeva, eləcə də tanınmış müəllim-şair Əvəz Mahmud Lələdağ və başqaları uca urvatda tutulmalarından həmişə məmnun olurlar.

**Sumqayıt Ağsaqqallar Şurasının sədri, Dövlət mükafatı laureatı, Prezidentin fərdi təqaüdçüsü, kimya elmləri namizədi Təbrik Quliyevin dedikləri:**

– Fəxr edirəm ki, bu gün mən də 1970-ci ildən bəri özümə ünvan seçdiyim Sumqayıtın 75 yaşını qeyd edənlərin arasındayam. Sumqayıtın təməli hələ 1931-ci ildən qoyulub, 1941-ci ildə ilk İES işə düşüb. Sonra İkinci Dünya müharibəsinə görə Sumqayıtın şəhər kimi təvəllüdü gecikib. Nəhayət, 1949-cu ildə, mənim 3 yaşım olanda ona şəhər statusu verilib. Özüm ali təhsilli mütəxəssis olsam da, burada fəhlə kimi işə başlamışam. Tədricən vəzifələrə işə çəkilmişəm və uzun illər kimya müəssisələrinin rəhbəri işləmişəm. Sumqayıta taleyimin şəhəri deyirəm. Bu şəhəri ərsəyə gətirmək üçün çox böyük zəhmət çəkilib. Bura Ulu öndər Heydər Əliyevin arzuladığı, Prezident İlham Əliyevin isə müasir şəhər kimi dirçəltdiyi bir məkandır. Böyük inkişaf və intibah dövrünü yaşayır. Yüksək diqqət və qayğı sayəsində, ardıcıl və məqsədyönlü fəaliyyət nəticəsində Sumqayıt Cənubi Qafqazın böyük sənaye mərkəzinə, Azərbaycanın abad, gözəl və firavan şəhərinə çevrilib.

Şöhrəti dünyaya yayılan Sumqayıtın Avropa və Asiya ölkələrindən 19 şəhərlə qardaşlıq əlaqələri yaradılıb. Onlardan biri – Sumqayıtla 40 illik qardaşlıq tarixi olan Lüdviqshafenin (AFR) şərəfinə gənclik şəhərində gözəl bir istirahət parkı salınıb. Bu il sentyabrın sonunda isə Sumqayıtın 10 illik dostu – Polşanın Belostok şəhərinin meri Tadeuş Truskolyaski buraya səfərə gəlmişdi. İşgüzar görüşdə ikitərəfli münasibətlərin müxtəlif aspektləri və qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıldı. Qonaq şəhərlə yaxından tanış oldu, Mehdi Hüseynzadə adına stadiona, Heydər Əliyev Mərkəzinə, Şahmat Məktəbinə və şəhərin parklarına baş çəkdi, gördüyü gözəlliklərdən vəcdə gəldiyini söylədi.

...Bakıda keçirilən Avrasiya Yazıçılarının Festivalı iştirakçılarının başda dünya şöhrətli yazıçı Oljas Süleymenov olmaqla böyük bir qrupu Sumqayıta gəlmişdi. Müasir, yaşıl şəhərə doğrudan-doğruya heyran qaldılar. Səfərdən sonra Oljas əkə Prezident İlham Əliyevə məktub yazaraq, Sumqayıt haqqında təəssüratlarını bölüşdü və ən xoş sözlərini ifadə etdi. Dünyada gəzmədiyi yer qalmayan ünlü bir yazarın Sumqayıtla bağlı özəl duyğu və düşüncələri, əlbəttə, mötəbər faktdır.

Hazırda Sumqayıtın “zümrüd boyunbağı”sına gözəl Dənizkənarı Park-Bulvar Kompleksi, Bayraq Muzeyi, Muğam Mərkəzi, Heydər Əliyev Parkı, Dəmiryol vağzalı, yeni memarlıq abidələri, xəstəxanalar, məktəb binaları, universitet, 100-ə qədər “Nümunəvi məhəllə”, necə deyərlər, muncuq-muncuq düzülüb. Bulvardakı 2 saylı “Asan Xidmət” Mərkəzi, 500 metr uzunluğunda tərsanə, burada, eləcə də şəhərin mərkəzində və əsas giriş yolunda yaradılmış Bayraq meydanları, möhtəşəm Paralimpiya və Olimpiya idman kompleksləri, “Nizami” kinoteatrı, Əlillərin Bərpa Mərkəzi, Məhkəmə Kompleksi... şəhərin yeni ünvanlarıdır.

Sumqayıtlılar doğma şəhərin qədrini bilir, onu təmiz və yaraşıqlı saxlamağı şərəf işi sayırlar. Gənclik şəhərində 70-dən artıq “Nümunəvi məhəllə” var. “Qartal” tikinti firmasının təşəbbüsü ilə 75 illik yubiley ərəfəsində 47-ci məhəllədə daha bir belə istirahət guşəsi yaradılıb. Orada kölgəliklər, uşaq əyləncə qurğuları, yaşıllıqlar salınıb, sakinlərin ürəkləri istəyən kimi dincəlməsinə lazımi şərait yaradılıb.

**“Qartal”ın direktoru, Azərbaycan Sahibkarlar Konfederasiyasının Sumqayıt şəhər nümayəndəsi Şahin Məmmədov:**

– İnşaat Mühəndisləri İnstitutunu bitirdikdən sonra gənc mütəxəssis kimi təyinatla kimya sənayesi istehsalat birliyinə gəlmiş və taleyimi ömürlük Sumqayıta bağlamışam. Yadına gəlirsə, eyni korpusda oturурduq: mən oradakı layihə-memarlıq şöbəsində, sən isə “Kimyaçı” çoxtirajlı qəzeti redaksiyasında. Sonralar mən zavodun baş memarı oldum, sənsə respublika mətbuatında işləməyə getdin.

Azərbaycanda ilk dəfə məhz Sumqayıtda “Gənclik” yaşayış kompleksinin inşasını reallaşdırmışam. Özü də mənzil almaq istəyən 70 nəfər o kompleksin inşasında çalışıb və az müddətdə ev-eşik sahibi olub. “Qartal” isə Sumqayıtın ilk sahibkarlıq subyektidir. Müxtəlif tikintilərdə yaxından iştirak etmişik.

Sumqayıta bu gün öz yetirmələri rəhbərlik edirlər, onu təəssübkeşlik duyğusu ilə gözəlləşdirirlər. Düşünürəm ki, hər bir sahibkarın yaşadığı şəhər qarşısında bir mənəvi borcu olmalıdır, onun inkişafı üçün dövlət qurumlarına, icra strukturlarına dəstək verməli, bacardığı qədər gözəllik naxışları çəkməlidir. Dənizkənarı bulvardakı fontan komplekslərindən biri bizim firmanın doğma şəhərə töhfəsidir. Mən nəvələrimlə orada gəzəndə qürur hissi keçirirəm. Kollektivimiz bundan sonra da Sumqayıtın tərəqqisinə zəhmət sərf etmək əzmindədir. Sumqayıtın yüksəlişi hər birimizin fəxridir. Yubileyimiz mübarək olsun!

Şahin müəllimin dediyi bulvarda gəzintimizi davam etdirdik. Adam inana bilmir ki, buralar uzun illər ərzində baxımsız vəziyyətdə olmuş, zir-zibil məkanına çevrilmişdi. Cəmi 8 aya tikilib abadlaşdırılıb. Həmin müddətdə Zakir müəllimin hər iş günü məhz buradan başlayıb, burada da qurtarıb. İndi ərazi açıq səma altında yaşıl muzeyi xatırladır. Buna görə də bulvar kompleksi beynəlxalq mükafata layiq görülüb. Dövlətimizin başçısı ilham Əliyev buranı “cənnət guşəsi” adlandırıb. İlin bütün fəsillərində sakinlər parkda dincəlir, uşaqlar əyləncə guşələrində oynamaqdan yorulmurlar. Bulvara ictimai nəqliyyat marşrutu da açılıb.

Ərazisi 100 hektardan çox, uzunluğu artıq 5 kilometri ötən bulvarda müxtəlif attraksionlar, yay estradası, idman meydançaları, kiçikölçülü gəzinti avtobusları var. “ASAN” Xidmət nərkəzi, Bayraq Muzeyi, Muğam Mərkəzi burada yerləşir.

**Sumqayıt bulvarının yanında, Sahil küçəsi boyunca “göydələn”lərdən ibarət yaşayış kompleksi də var. Oradakı binaların birində yaşayan dostum Hümbət Quliyev dedi:**



– Eyvanda oturub çay içmək, bulvarın gözəlliyindən zövq almaq ayrı bir aləmdir. Dənizə açılan mənzərəsi, təmiz havası ruh oxşayır. Ərazinin genişliyi burada insan xəyalını qartal kimi mavi ənginliklərə qanadlandırır. Məncə, bu əsrarəngiz məkan bulvar adlı gözəlliyi ərsəyə gətirənlərin özlərinə ucaltdıqları əbədi bir abidədir. Sumqayıt onu sevənlərin “şah əsəri” sayılır. Yaradan, quran əllərə alqış!

Son illər ərzində şəhərin sanitar vəziyyətinin normal saxlanılması, məişət tullantılarının idarə olunması gündəlik nəzarətdə saxlanılan əsas məsələlərdən birinə çevrilib. Şəhər rəhbərliyinin ciddi tələbkarlığı sayəsində məişət tullantılarının yığılması və zərərsizləşdirilməsi sahəsində mütəmadi tədbirlər keçirilir və hər tərəf, necə deyərlər, gül qoxuyur.

Sumqayıtın idarəetməsində bir üstün cəhət də budur ki, hazırkı icra hakimiyyəti ilk gündən şəhər sakinləri ilə ünsiyyətə açıq olması ilə nüfuzunu daha da artırıb. Bir qayda olaraq, hər həftə şəhərin müxtəlif ərazilərində əhali ilə görüşlər keçirilir. Vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılır. İş cədvəlinin ən gərgin vaxtlarında belə Zakir müəllim bu görüşləri təxirə salmır. Sözünün dinlənildiyini, müşkülünün diqqətsiz qalmadığını görən hər kəsin dövlət oranlarına ehtiramı daha da artır.

Bir neçə aydır ki, Sumqayıtda silsilə yubiley tədbirləri davam edir. Küçələr, parklar al-əlvan bəzədilib, şəhərin mənzərələri üzə gülür, gecə görüntüləri xüsusilə göz oxşayır. Elə Sumqayıtda doğulub böyüməmiş və burada yaşayan sakin kimi biz hər axşam gəzintiyə çıxıb gözəllikləri gözümüzə, könlümüzə köçürməyə adət etmişik. Bir gün əvvəl də adətimiz üzrə şəhərin seyrinə çıxdıq. Milli Qəhrəman Polad Həşimovun adını daşıyan küçədən keçərək, Səməd Vurğun küçəsinə yön aldıq. Üzərinə “Sumqayıt – 75” yazılmış işıq bəzəkləri sanki alışıb yanırdı. Şəhərin “Azərbaycan”, Heydər Əliyev prospektləri də öz gözəllikləri ilə əsrarəngiz tablo təsir bağışlayırdı. Sanki günortaymış kimi, küçə və meydanları gəzib-dolaşan adamlar küləyə, soyuğa məhəl qoymadan mənzərələrdən zövq alırdılar. Bütün bunları bir daha müşahidə etdikcə necə gözəl şəhərin sakini olmağımızla yenə də fəxr elədik.

Yubiley ərəfəsində Sumqayıtda mədəniyyət festivalları, kitab yarmarkaları, yeni obyektlərin açılış mərasimləri, möhtəşəm konsert proqramları bir-birini əvəz edir. Hər kəs yubileyə öz töhfəsini verməyə çalışır. Bu gün 75 yaşlı gənclik şəhərinin yalnız sənaye ilə tanınmadığını göstərən ən mühüm cəhətlərdən biri onun mədəniyyət və incəsənət sahəsindəki uğurlarıdır. Burada teatrlar, konsert zalları, muzeylər və incəsənət mərkəzləri məhsuldar fəaliyyət göstərir. Sumqayıtın nisbətən köhnə mədəniyyət ocaqları da yeni görkəm alıb. Kimyaçı Mədəniyyət Sarayı və Sumqayıt Dövlət Dram Teatrının binası ən müasir üslubda əsaslı təmir olunaraq istifadəyə verilib.

Şəhər icra hakimiyyəti ilə üzbəüzdə, möhtəşəm Bayraq Meydanının yanında yerləşən teatr da bayram ovqatındadır. Yeri gəlmişkən, bu il Sumqayıt teatrı da özünün yubileyini yaşayır: ilk dəfə səhnə pərdələrini açmasından düz 55 il ötür. Yubileylə bağlı teatrda yazıçı-dramaturq, Əməkdar incəsənət xadimi Əli Əmirlinin şəhərin tarixindən, quruculuq salnaməsindən bəhs edən “Sevgilim Sumqayıt” tamaşası hazırlanıb və repertuarda önəmli yer tutur. Sənət məbədinin baş rejissoru, Xalq artisti Firudin Məhərrəmovun quruluş verdiyi səhnə əsərində həyat sınaqları ilə üzləşən kimsəsiz gənc qız yeni şəhərə üz tutur. Sumqayıt ona bir ana kimi qucaq açır, o, burada zəhməti sayəsində tanınır, dəyər qazanır, Vətənə layiqli bir oğul böyüdür. Tamaşanın sonunda günümüz təsvir edilir. Əksər sumqayıtlıların taleyinin tamaşası olan əsər hər baxışda alqışlara qarşılanır.

Sumqayıtda yaradıcı insanlara da xüsusi diqqət yetirilir. On illərlə şəhərin müxtəlif bucaqlarında məskunlaşmış Əli Kərim adına “Poeziya klubu”nun, nəhayət, ofis problemi həll olunub. Belə ki, Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcovun tapşırığına əsasən, Heydər Əliyev parkında yerləşən geniş, bütün şəraiti olan bir mərkəz şəhərin söz-sənət sahiblərinin ixtiyarına verilib. “Poeziya Evi” adlandırılan sözügedən obyekt əli qələm tutan hər kəs üçün doğma ocağa çevrilib. Klubun rəhbərliyi AYB Sumqayıt bölməsi ilə birlikdə burada həftədə bir neçə maraqlı, yaddaqalan görüş, tədqimat keçirir. Sumqayıt yazarları qayğıya, dəyərə cavab olaraq doğma şəhəri öz əsərlərində daha böyük ilhamla vəsf edirlər. Məsələn, İbrahim İlyaslı “Ağ günlər eşqiylə yaranan şəhər” adlı şeirində yazır:

**Həyatın özünə verdik imtahan,**
**Adınla gecəni gündüzə qatdıq.**
**Alın tərimizlə yoğruldu mayan,**
**Səni qarış-qarış qurub yaratdıq.**

**Yaşıl bağlar saldıq, ağ məhəllələr,**
**Zülmət gecələri çıraqban etdik.**
**Gündüz fəhlən olduq, axşam tələbən,**
**Halal haqqın ilə murada yetdik.**

**Doğma ağuşunda sevdik, sevildik,**
**Sevgilər yaşadıq sulardan təmiz.**
**Qubalı, qazaxlı, qəbələlidik,**
**Sumqayıtlı oldu körpələrimiz...**

Bəli, yarım milyona qədər insanın özünə doğma od-ocaq bildiyi 75 yaşlı Sumqayıt öz sakinlərinə ard-arda fərəh bəxş etməkdədir. Yubilyar şəhərin gələcək inkişaf strategiyasında hədəf yerli sənaye potensialını daha da artıracaq texnologiya və innovasiya mərkəzləri ilə yanaşı, yaşıl zonaların genişləndirilməsi, yeni parkların və ictimai məkanların yaradılması, sakinlər və qonaqlar üçün daha cəlbedici bir mühit yaradılmasıdır.

Yubileyin mübarək, Sumqayıt!

*Əli NƏCƏFXANLI*
*XQ*

Maraq dünyamız

# Bakıdan sonra Danimarkada...

## Söhbət binasürüşdürmə təcrübəsindən gedir



**Hamının yadındadır, 2013-cü ilin aprelində paytaxtın Füzuli küçəsində ağırlığı 18 min ton olan tarixi yaşayış binası 4 gün ərzində 10,5 metr geri sürüşdürülmüşdü. Məqsəd həmin ərazidə yaradılan yeni parkın ətrafındakı binalar arasında həmahənglilik yaradılması idi. Tarixi memarlıq abidəsinin sökülməməsi üçün onun yerinin dəyişdirilməsi məqsədəuyğun sayılmış və icra olunmuşdu.**

Aradan 6 il keçəndən sonra isə Danimarkada çəkisi 720 ton olan 120 illik mayakın köçürülməsi barədə məlumat oxumuşduq. Ancaq Azərbaycandakı anoloji hadisə ilə Danimarkadakı fakt arasında müəyyən fərqlər var idi. Əvvəla, Bakıdakı sürüşdürülən binanın ağırlığı 18 min ton, Danimarkadakı mayakın çəkisi isə cəmi 720 ton idi. İkinci, Bakıdakı bina 4 gündə 10 metrdən çox, Danimarkadakı mayak isə saatda 8 metr sürüşdürülmüşdü.

Rusiyalı həmkarlarımız yazırlar ki, (https://1969ja.livejournal.com/803261.html) Danimarkada 120 illik mayak eroziyalar nəticəsində sahilə yaxınlaşan dəniz dalğalarından xilas edilmək üçün relslər üzərində 70 metr kənara çəkilib. Xatırladaq ki, "Rubjerg Knud" mayakı ölkənin şimalındakı eyniadlı bölgədə – Şimal dənizi sahilində bir qaya üzərində tikilmişdi. 23 metrlik mayakın tikintisinə 1899-cu ildə başlanılmış və ilk dəfə 1900-cü ildə yeni tikili işıqlandırılmışdı.

Mayak sahildən 200 metr aralıda yerləşir. Sahil xəttinin aşınması səbəbindən dalğaların ona çatmasına cəmi altı metr qalmışdı. Amma bu tikintinin başqa bir problemi də var idi. Belə ki, sahil suları onun uçub dənizə tökülməsi təhlükəsini yaradırdısa, əks tərəfdən əsən güclü şimal küləklərinin yaratdığı qum təpələri binanın yarıdan çoxunu görünməz edirdi.

Bildirilir ki, mayakın "köçürülməsi" təxminən 10 saat çəkmişdir.

Əlavə edilir ki, "Rubjerg Knud" Danimarkanın görməli yerlərindən biridir. Hər il 250 min insan bu ərazini və mayakı ziyarət edir. Mayak binasının içərisində muzey və kafe var. Binanın yerinin dəyişdirilməsi ölkə büdcəsinə 5 milyon Danimarka kronuna (745,2 min dollar) başa gəlib. Mütəxəssislərin fikrincə, mayak bundan sonra daha 40 il təhlükəsiz şəkildə gəmilərə yol göstərə biləcək.

***İttifaq MİRZƏBƏYLİ***

# Aliment cəzadır, yoxsa çıxış yolu?

## *Onu ödəməyəndə ikiqat cəzaya çevrilir*

**Ailədə psixoloji mühitin sağlamlığı şiddətdən, xəyanətdən və yalandan uzaq olmaq, etibarlı və sağlam ünsiyyət qurmaq, sevgi və hörmət hissini gücləndirməklə formalaşır. Bəzən bu dəyərlər pozulur və ailənin dağılmasına səbəb olur. Dövlət Statistika Komitəsindən verilən məlumata görə, bu ilin 9 ayında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 36 min 651 nikah və 15 min 964 boşanma halı qeydə alınıb.**

Ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər min nəfərinə nikahların sayı azalaraq 5,1-dən 4,8-ə düşüb, boşanmaların sayı isə dəyişməyərək eyni səviyyədə (2,1) qalıb. Rəqəmlərdən də aydın olur ki, evlənənlərin 43 faizi boşanıb. Son on ildə boşanma əmsalı 0,8 artıb.



### Uşaqlar hansı valideynə verilməlidir ?

Təbii ki, boşanmanın müxtəlif obyektiv və subyektiv səbəbləri var. Ər-arvadın arasında mövcud olan rəsmi nikah məhkəmə qaydasında xitam verildikdə məhkəmənin münasibət bildirməli olduğu ən vacib məqamlardan biri həmin nikahdan olan birgə uşaqların hansı valideynə verilməsidir. Vəkil Qulam İsmayılzadənin sözlərinə görə, Ailə Məcəlləsinin 22-ci maddəsinə əsasən nikah məhkəmə qaydasında pozularkən, ər-arvad məhkəməyə yetkinlik yaşına çatmayan uşaqlarının kiminlə qaldığını, uşaqların və (və ya) ehtiyacı olan və əmək qabiliyyəti olmayan ərin (arvadın) saxlanması üçün vəsaitin ödənilmə qaydasını, bu vəsaitin miqdarını və ər-arvadın ümumi birgə mülkiyyətinin bölünməsini müəyyən edən saziş təqdim edə bilərlər. Adətən, ölkəmizdə ailə quran və ya nikaha xitam verən zaman tərəflər arasında saziş mövcud olmur, yaxud tərəflər bu sazişin şərtləri barədə razılığa gələ bilmirlər: "Belə olan hallarda qanunvericiliyin tələbinə əsasən, işə baxan məhkəmə mübahisəni uşaqların hüquq və mənafelərini, onların rəyini və sair halları (uşaqların qardaş və bacılarına, valideynlərdən hər birinə olan bağlılığı, valideynlərin əxlaqi və digər şəxsi keyfiyyətləri, uşağın yaşı, onun inkişafı və tərbiyəsi üçün şərait yaradılması) nəzərə almaqla həll edir.

Bu, uşaqların qanunla qorunan mənafelərinə daha uyğun sayılır. Bir qayda olaraq, yetkinlik yaşına çatmamış uşaqlar məhkəmə tərəfindən analarının yanında saxlanılır".

Bəs nə üçün ana? Axı Konstitusiyada, Ailə Məcəlləsində ana və atanın hüquqları, vəzifələri bərabərdir. Bununla bağlı vəkil bildirdi ki, əsas səbəblərindən biri südəmər uşaqlar üçün ana südünün vacib olması, azyaşlıların daha çox ana qayğısına ehtiyac duymalarıdır: "Azyaşlı uşaqlar müstəsna hallardan başqa, anasından alına bilməz. Burada müstəsna hallar dedikdə, ananın psixi xəstəliyi, narkomaniya, alkoqolizm və ağır xəstəlikdən əziyyət çəkməsi, uşaqla qəddar rəftara yol verməsi, onlara qarşı psixi və fiziki zor tətbiq etməsi, valideynlik hüquqlarından sui-istifadə etməsi, əxlaqsızlıqla məşğul olması və s. daxildir. Sadaladığımız bu hallar məhkəmə tərəfindən müəyyən olunarsa, yetkinlik yaşına çatmayan uşaq anasından alınıb atasına verilə bilər.

Bəs yetkinlik yaşına çatmış uşaqların taleyi necə həll olunur? Yetkinlik yaşına çatmış uşaqların valideynlərdən hansının yanında qalması məsələsi məhkəmə tərəfindən uşaqların mənafelərindən çıxış edilərək və onların fikrləri mütləq nəzərə alınaraq həll olunur".

### Alimentin məbləği

"Azərbaycan Respublikasında 2024-cü il üçün yaşayış minimumu haqqında" Qanuna əsasən, yaşayış minimumu uşaqlar üçün 235 manat məbləğində müəyyən edilib. Beləliklə, qanunvericiliyə əsasən 2024-cü ildə bir uşağın saxlanılması üçün minumum 235 manat tələb edilir. Bu barədə Q.Ismayilzadə deyir: "Ailə Məcəlləsinə əsasən, alimentin ödənilməsi barədə razılıq olmadıqda məhkəmə tərəfindən bir uşağa görə qazancın, yaxud da gəlirlərin 1/4 hissəsi, iki uşağa görə qazancın və ya gəlirlərin 1/3 hissəsi, üç və daha çox uşağa görə isə qazancın və yaxud gəlirlərin yarısı aliment olaraq hesablanır.

Aliment öhdəliyi olan şəxs işləmirsə və ya heç bir gəliri yoxdursa, bu zaman məhkəmə həmin şəxsə alimentin ödənilməsini sabit pul məbləğində təyin edir. Alimentin sabit pul məbləği uşaqlar üçün yaşayış minimumuna uyğun, yəni, 2024-cü il üçün 235 manatdır. Bu məbləğin 2025-ci ildə dəyişəcək və yanvarın 1-dən etibarən alimentin minimum məbləği 235 manatdan 246 manata çatdırılması gözlənilir. Məsələ Milli Məclisin Əmək və sosial siyasət və İqtisadi siyasət, sənaye və sahibkarlıq komitələrinin birgə iclasının müzakirəsinə çıxarılıb. Bildirilib ki, "Azərbaycan Respublikasında 2025-ci il üçün yaşayış minimumu haqqında" qanun layihəsində yaşayış minimumu uşaqlar üçün 246 manat məbləğində müəyyən edilib. Bu, həm də alimentin minimum məbləği deməkdir".

### Bəs nikahdankənar doğulan uşaqlar?!

Əgər uşaqlar və ya uşaqların biri nikahdan kənar doğularsa, atalıq faktı təsdiq olunmalıdır. Atalıq faktının təsdiq olunması ilk növbədə Vətəndaş Vəziyyətlərinin Aktları İdarəsində aparıla bilər. Atalıq faktının təsdiq olunması barədə şəhadətnamə alındıqdan sonra artıq uşaqlar hansı valideyndədirsə, o valideyn həmin şəhadətnamə əsasında məhkəməyə müraciət edərək alimentlə bağlı iddia irəli sürə bilər. Əksər hallarda bu iddia uğurlu iddialardan hesab olunur və nikahdankənar doğulan uşaqların saxlanması üçün də aliment təyin edilir.

### Aliment ödəməyən şəxs cəzalandırılırmı?

Vəkilin sözlərinə görə, şəxs alimenti ödəməzsə, ilk növbədə tələb onun əmlakına yönəldilir: "Əgər şəxsin adına hər hansı bir daşınar və ya daşınmaz əmlak varsa, onun üzərinə həbs qoyulur. Bu əmlak borc məbləğinə uyğun olaraq alimentin yerinə iddiaçıya təqdim edilir. Əgər ondan imtina edilərsə, həmin əmlak hərracda satılaraq əldə olunmuş vəsait alimentin əvəzinə ödənilir.

Şəxsin əmlakı olmadıqda və məhkəmə onu təqsirli bilərsə, onda o, 500 manatdan 1000 manatadək cərimə və yaxud 10 gündən 30 günədək inzibati həbs oluna bilər. Həmçinin aliment ödəməyən şəxsin borcu əhəmiyyətli dərəcədə olduqda (adətən 1000 manatdan yuxarı) məhkəmənin qərarı ilə ölkədən getmək hüququ məhdudlaşdırılır. Bundan başqa, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 306.1-ci maddəsinə əsasən, qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsini qərəzli olaraq icra etməməyə görə, şəxs cinayət məsuliyyətinə cəlb edilə və cəzalandırıla bilər.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

Beynəlxalq həyat

# Rusiya–Ukrayna savaşı: dünya həyəcan içindədir

**Az qala 3 ilə yaxın davam edən Rusiya–Ukrayna müharibəsi son günlər, xüsusilə, kəskin mərhələyə qədəm qoyub. Belə ki, hücum edən tərəf ən qorxulu variantı – nüvə silahından istifadəni gündəmə gətirir. İndi təkcə Ukrayna və region dövlətləri deyil, bütün planet narahatdır.**

Moskvanın öz arqumentləri var. O, Qərbin Ukraynanın tərəfində vuruşduğunu iddia edir və buna qarşı "adekvat cavablar" atacağını bildirir. Qərb Rusiyanın nəyə işarə etdiyini yaxşı başa düşür.

İki gün qabaq Prezident Vladimir Putin xalqa müraciətində bildirib ki, Qərb raketlərinin Rusiya Federasiyasına hücumundan sonra Ukraynada münaqişə qlobal xarakter alıb. Onun sözlərinə görə, Rusiyanın hava hücumundan müdafiə sistemləri Qərbin uzaqmənzilli raketlərinin hücumlarını dəf edib və rəqib qarşıya qoyduğu məqsədlərə nail ola bilməyib.



Dövlət başçısı əlavə edib ki, Moskva eskalasiyaya qəti və sərt cavab verəcək. Rusiyalı ekspertlər isə bildirirlər ki, Moskvanın "Oreşnik" raketindən istifadə etməsi ABŞ-ın orta, qısamənzilli raketlərin istehsalı və yerləşdirilməsi planlarına cavabdır.

UNİAN agentliyi isə xəbər verir ki, dünən Rusiya Həştərxan vilayətindən qitələrarası ballistik raket (ICBM) buraxıb. Hava qüvvələri hücumun müxtəlif tipli raketlərlə Dnepr şəhərini hədəf aldığını bildirir.

İlk dəfədir ki, Rusiya münaqişə zamanı Ukraynaya doğru ICBM atır. Bu raketlər minlərlə kilometr məsafə qət etməyə qadirdir. Ukrayna ordusunun sözçüsü bildirib ki, Rusiya raketlərinin çoxu havadaca vurulub.

Həftənin əvvəlində isə Vaşinqton Kiyevə Rusiya hərbi bazalarını hədəf almaq üçün ATACMS tipli uzaqmənzilli raketlərdən istifadə etməyə icazə verib. Bu, Moskva tərəfindən ciddi narazılıqla qarşılanıb. Bundan başqa, Ukrayna Rusiya ərazisinə ilk dəfə olaraq Böyük Britaniyanın verdiyi uzaqmənzilli "Storm shadow" raketlərini atıb.

Britaniyanın müdafiə naziri Con Healey xəbəri təsdiqləməsə də, dünən İcmalar Palatasında çıxışında belə bir şərh verib: "Ukraynanın döyüş meydanındakı hərəkəti öz sözünü deyir". Ukraynanın müdafiə naziri Rustam Umerov da bu faktı etiraf etməyib, lakin deyib ki, "Ukrayna özünü qorumaq qabiliyyətindədir".

Dünən Rusiya tərəfindən raket zərbələri təhlükəsi ilə əlaqədar Kiyev və Ukraynanın 10 vilayətində hava həyəcanı elan edilib. Kiyevdəki bir neçə səfirlik hava hücumu təhlükəsi səbəbindən işini müvəqqəti dayandırıb. İspaniya, İtaliya və Yunanıstan ABŞ-dan sonra hücum təhlükəsinə görə Kiyevdəki səfirliklərini bağladıqlarını elan ediblər.

Müharibənin taleyi əlbəttə, cəbhədə həll olunur. Rusiya hərbçiləri Donbas və Novorossiyada demək olar ki, hər gün az da olsa irəliləyişə nail olurlar. Qərbdə düşünürlər ki, Ukrayna münaqişə başlanan andan ən zəif vəziyyətə düşüb.

ABŞ və Britaniyanın Ukraynaya uzaqmənzilli raketlərdən istifadəyə icazə verməsinin əsas səbəbi Rusiyanın artan hücumlarını zəiflətməkdir. Hələlik bunu etmək mümkün olmur və cəbhənin bütün təmas xətti boyu eskalasiya güclənir.

Bu arada NATO-nun Baş katibi Mark Rutte yaxın vaxtlarda Ukrayna məsələsini müzakirə etmək məqsədilə yeni seçilmiş prezident Donald Trampla görüşmək üçün ABŞ-a səfər edə bilər. Bu barədə "The Washington Post" etibarlı mənbələrə istinadən məlumat yayıb.

Qəzet yazır ki, M.Rutte yaxın vaxtlarda Trampla onun Mar-a-Laqo iqamətgahına gedərək Ukrayna üçün təhlükəsizlik zəmanətləri təmin edəcək ədalətli və uzunmüddətli sülhün zəruriliyini gündəmə gətirəcək. Bununla bərabər, Qərb Rusiyanın hərəkətlərini təşviq etməyəcək qərarlar qəbul etməyə üstünlük verməyə çalışır.

Qeyd edək ki, Tramp seçkiöncəsi və qələbə qazandıqdan sonrakı çıxışlarında Ukrayna münaqişəsinə qısa müddət ərzində son qoymaq niyyətində olduğunu bəyan edib. Lakin bunun asanlıqla əldə olunacağına inanmaq sadəlövhlük olardı. Bütün hallarda sülhə böyük ehtiyac var.

***Məsaim ABDULLAYEV***
***XQ***

# İlk azərbaycanlı konfutsiçi

**Pekində Çin filosofu Konfutsinin anadan olmasının 2 min 575 illiyinə həsr edilmiş beynəlxalq konfrans və Beynəlxalq Konfutsiçilik Assosiasiyasının (BKA) 7-ci qurultayı keçirilib. Bu barədə Diasporla İş üzrə Dövlət Komitəsindən məlumat verilib.**




Məlumata görə, konfransa 110 ölkədən 800-ə yaxın çinşünas alim qatılıb. Pekin Xarici Dillər Universitetinin Asiya fakültəsinin Azərbaycan dili kafedrasının müdiri, Xəzər Universiteti Çin Tədqiqatlar Mərkəzinin direktoru, filologiya üzrə fəlsəfə doktoru Aqşin Əliyev Beynəlxalq Konfutsiçilik Assosiasiyasının 7-ci Şurasının ilk azərbaycanlı üzvü seçilib.

Qeyd edək ki, 1994-cü ildə yaradılan Beynəlxalq Konfutsiçilik Assosiasiyası özündə dünyanın 80 ölkəsindən filosofları, dilçiləri, tərcüməçiləri və ədəbiyyatşünasları birləşdirir.

***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 258 (30662) 23 noyabr 2024-cü il, şənbə

İdman xəbərləri

## AKB-nin müraciəti

**Avropa Klublar Birliyinin (AKB) iclasında COP29-da yaradılan alyansla bağlı rəsmi müraciət olacaq.**



Avropanın bütün klublarına Bakıda COP29 çərçivəsində "Qarabağ"ın təşəbbüsü ilə yaradılmış iqlim dəyişikliyinə qarşı birgə alyansa qoşulmaq təklif olunacaq.

"Qarabağ" və AKB-nin İdarə Heyətinin üzvü Asif Əsgərov məlumat verib. Onun sözlərinə görə, müraciət ECA-nın dekabrın əvvəlində planlaşdırılan iclasında ediləcək və quruma üzv olan Azərbaycan təmsilçilərinə də şamil olunacaq.

Qeyd edək ki, birgə alyans noyabrın 16-da Bakıda "Qarabağ", "Liverpul", "Tottenhem" (hər ikisi İngiltərə), "Atletiko Madrid", "Real Betis" (hər ikisi İspaniya), "Fənərbağça", "Qalatasaray" (hər ikisi Türkiyə), "Udineze" (İtaliya), "Portu" (Portuqaliya), "Flamenqo" (Braziliya) və "Malmö" (İsveç) klublarının iştirakı ilə yaradılıb..

## Kikboksçumuz Dünya çempionu olub

**Türkiyənin Antalya şəhərində hərbçilər arasında kikboksinq üzrə dünya çempionatında Azərbaycan komandası ilk medalını qazanıb.**



Təmsilçimiz Elvin Məmmədov 54 kiloqram çəki dərəcəsində uğurla çıxış edərək qızıl medala sahib çıxıb. O, finalda türkiyəli Bilal Durala qalib gəlib.

*LQ URBANOVA*
*XQ*

Hava

## Yağmursuz və dumanlı şənbə...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, noyabrın 23-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**



Lakin gecəyə doğru bəzi şəhərətrafı ərazilərdə az çiskinli olacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şimal-qərb küləyi əsəcək, gündüz mülayim cənub-şərq küləyi ilə əvəz olunacaq. Gecə 9-12°, gündüz 13-18° isti olacaq.

Atmosfer təzyiqi 767 mm civə sütunundan 763 mm civə sütununa enəcək, nisbi rütubət 75-85 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Şərq küləyi əsəcək, bəzi şərq rayonlarında arabir güclənəcək. Havanın temperaturu gecə 5-10°, gündüz 15-20°, dağlarda gecə 0-5°, gündüz 8-13° isti olacaq.

*QQ ASIMOV*
*XQ*

Dünəndən gələn səslər

# "Şəmkir qülləsi"nin sorağında...

## *Tarixdə izi qalmış əzəmət zirvəsi*

**Bu qüllə indi yoxdur. Şəmkirdə kimdən soruşduq, gördüm deyən olmadı. Haqqında bir-iki nəfər "eşitmişik" dedi, vəssalam!**



Heç kimi qınamırıq, 850–900 il qabaq ucaldılan nəhəng minarə–qüllənin bu günə gəlib çıxması bəlkə də möcüzə olardı. Müharibələr, zəlzələlər, digər dağıntılar, təbii fəlakətlər... İndiyədək minarəmi qalardı?

Şəmkir Regional Mədəniyyət İdarəsinin rayon üzrə nümayəndəsi Sənan Məmmədli ilə söhbət edirəm. Deyir, oxuduqlarımızdan, eşitdiklərimizdən, mütəxəssislərin söylədiklərindən belə məlum olur ki, möhtəşəm bir abidə olub. Təəssüf ki, bugünümüzə gəlib çatmayıb. Neçə vaxtdır Şəmkir qalası qoruğunun ərazisində torpaq-qazıntı işləri aparılır. Deyilənə görə, bu qaladan cəmi 2 kilometr aralıda olub həmin qüllə. Ümüd edirik ki, çox keçməyəcək, Şərqdə ən böyük qüllələrdən hesab olunan Şəmkir qülləsinin müəyyən qalıqları üzə çıxacaq və onun daha dərindən tədqiq olunması həyata keçiriləcəkdir.

– Bəs, heç olmasa, minarənin kiçik formada oxşarını hazırlamaq və haradasa şəhərin görməli yerində ucaltmaq, Şəmkirə gələn qonaqlara bu barədə məlumat vermək mümkün deyilmi?

S.Məmmədli bu işlə nümayəndəlik deyil, nazirliyin başqa bir qurumunun məşğul ola biləcəyini xatırlatdı. Sonra isə rəssam Fərman Hüseynovla bizi tanış etdi. Yaşı artıq 70-i haqlayan Fərman müəllimlə tarix-diyarşünaslıq muzeyinə getdik. Özünün burada emalatxanası var, yerli icra strukturları ona yaxşı iş şəraiti yaradıblar. Təcrübəli rəssam da ona ayrılmış otaqlardan birində uşaqlara və yeniyetmələrə rəssamlığın sirlərini öyrədir.

...Muzeyin foyesində "Azərbaycan toyu" mövzusunda miniatür divar rəsmi diqqətimizi cəlb edir. F.Hüseynov deyir ki, 73 kvadratmetr olan bu əsər həcminə görə dünyada ən böyük miniatür divar rəsmlərindən biri, bəlkə də, birincisidir.

Əsər, doğrudan da, adamı ilk baxışdan özünə çəkir. Lakin bizi daha çox dəvə karvanının arxasından görünən və tarixi sorağına çıxdığımız uca Şəmkir qülləsinin təsviri cəlb edir.

– Mən Şəmkiri bu qüllələsiz təsəvvür edə bilmirəm. Əsrlər boyu möhtəşəm abidə-minarə bizim qədim torpağın nişanı olub, deyir. – Qüllə haqqında kifayət qədər məlumatım var. Məsələn, əgər iki məşhur rəssam-səyyahlar – rus rəssamı Qriqoru Qaqarin və fransız rəssamı Dübua de Mentpere XIX əsrin ortalarında Qafqazda olarkən, qüllənin bir-birlərindən xəbərləri olmadan, demək olar ki, eyni cür rəsmini çəkiblərsə, belə düşünürəm ki, həmin vaxtadək qüllə XIII əsrdə monqolların Şəmkirə hücumu zamanı ziyan çəksə də, tam dağılmayıbmış və elə onların çəkdikləri kimi olub.



Muzeyə tez-tez xarici turistlər gəlir, maraqlı söhbətlərimiz olur. Divar rəsmlərinin önündə şəkil çəkdirməyi xoşlayırlar. Bəzən mənim də onlarla yanaşı dayanmağımı xahiş edirlər. Deyirəm, gəlin, elə dayanaq ki, bizim qülləmiz də düşsün...



Hiss olunur ki, qocaman rəssam Şəmkirin tarixini pis bilmir. Yeri gəlmişkən qeyd edək ki, bu gün Şəmkir muzeyində ixtisaslı, ali təhsilli kadrlara böyük ehtiyac var. Doğrudur, uzun illərdir muzeydə çalışan işçilər müəyyən təcrübə toplaya biliblər və onların zəhmətini dana bilmərik. Lakin muzey bizim tariximizi, adət-ənənələrmizi, keçmişimizi özündə əks etdirən əvəzsiz mənbədir, bir xəzinədir. Burada cüzi biliklərlə, orta təhsillə həmin işin öhdəsindən gəlmək, muzeyə gələnlərə tam, dolğun məlumat vermək bir qədər çətin olur...

Rəsmlərin birində qüllə ətrafında gedən döyüş təsvir olunur. Güman etmək olar ki, qüllənin fonunda Cavadxanın və bütövlükdə, Gəncəbasarın, o cümlədən Şəmkirin XIX əsrin əvvəllərində rus ordusuna, general Sisiyanova qarşı qəhrəmancasına vuruşmasından bəhs edilir. Deməli, Nizami Gəncəvinin yaşadığı illərdə tikilmiş minarə həmin dövrlərə kimi gəlib çıxmışdır. Hətta dünyaca məşhur səyyah-tədqiqatçı, palentoloq, professor Eduard Eyxvalt 1826-cı ildə minarəni gördüyündən yazıb. Lakin digər səyyah Bons Domm Şəmkir qəsəbəsi ərazisinə gələndə onun yalnız xarabalıqlarını tapıb və buranın dağıdılması barədə məlumat verib. 1970-ci ildə Şəmkirə qaz çəkilişi zamanı qədim Şəmkir yaşayış məskəninin yerində kufi yazısı aşkar edilmişdir.

1836-cı ildə nəşr olunmuş "Qafqazda rus mülkləri haqqında icmal" əsərində qüllə haqqında ətraflı məlumat var. Qeyd olunur ki, "orada (Gəncəbasar nəzərdə tutulur – müəllif) olan bütün abidələrdən ən diqqətçəkəni Şəmkir sütunudur. Şəhərdən 25 verst aralıda, Şəmkir çayının sol sahilində düzənliklər arasında tikilmiş və demək olar ki, 30 verstdən görünən Şəmkir qülləsidir. Qalanın əsası kub biçimlidir və onun eni 7, hündürlüyü 5 arşındır. Üzərində diametri əsasda 5, yuxarıda 4 arşınacan olan dairəvi sütun yüksəlir. Üst hissə hər tərəfi 5 arşın olan dördbucaqlı karnizlə dövrələnib. Karnizin altında kufi xətti ilə yazılmış böyük kitabə var. Qüllənin ortasında 124 iri, demək olar ki, dağılmış dolama pilləkən var ki, onunla qalxmaq xeyli çətindir. Qüllə kərpicdən, qum və xırda daşla qarışdırılmış gəclə tikilib. İş olduqca gözəl və möhkəmdir. Sement məhlulu elə bərkdir ki, kərpiclə tamam birləşib. Zamanın artıq çox yerdən bu gözəl abidəni dağıtdığına heyfslənmədən baxmaq olmur və hətta qüllənin əyilməsi də aydınca hiss edilir. Çox güman ki, bu, minarədən başqa bir şey deyildi, onun zirvəsindən müsəlmanlar azan oxuyurdular..."

Hündürlüyü 60 metrə çatan Şəmkir qülləsinin yalnız gözətçi məntəqəsi və ya müdafiə məqsədi ilə tikildiyi iddia olunsa da, tanınmış alim-memar Cəfər Qiyasi yazır ki, bu fikirlərin elmi əsası yoxdur. Abidə bütün göstəriciləri ilə Böyük Səlcuq İmperiyasının müxtəlif şəhərlərində cümə məscidləri yanında ucaldılan və ayrıca dayanan minarə tipinin–mil minarənin bitkin örnəklərindən biridir.

...Minarə onu deməyə bir daha imkan verir ki, Şəmkir çox qədim tarixə malik, inkişaf etmiş Azərbaycan ərazilərindən biridir. Güman edilir ki, bu qüllə İpək Yolunun üstündə salınıb və Şəmkirdə məhz qüllənin ətrafında geniş ticarət bazarı olub.

Bu yazıda məqsədimiz Şəmkir qülləsinin tarixini başdan-ayağa tədqiq etmək deyil. Bunun üçün tarixçilər, etnoqraflar, arxeoloqlar, digər mütəxəssislər var. Sadəcə, adı tarixə düşmüş bir abidənin izlərini qoruyub saxlamaq, nəsildən-nəslə ötürməklə bərabər, ölkəmizə hər il gələn minlərlə xarici turistərə danışmaq, nəyisə göstərməklə yanaşı, keçmişimizi, qədim tariximizi, kimin kim olduğunu bildirməkdir, yada salmaqdır.

Rəssam dostumuzdan bir də görüşmək ümidi ilə ayrılarkən maraqlı bir mövzuya toxundu. Dedi ki, çoxları Şəmkiri adi kənd təsərrüfatı rayonu kimi tanıyır. Amma Şəmkir dünyanın ən böyük şəhərlərinə meydan oxumağa haqqı çatan bir diyardır. Tək bir qüllənin dünənimizdən bugünümüzə işıq salması, əzəməti kifayətdir ki, deyək: Bura Azərbaycandır, bura Şəmkirdir!

*Hm let QASIMOV,*
*XQ-nin bölgə müxbiri*

**Şəmkir**

## Sümükdən yaranan zəriflik



**Azərbaycan Milli İncəsənət Muzeyində "Yapon incəsənəti: sümükdən yaranmış zəriflik" adlı mühazirə keçirilib.**

Muzeyin bölmə müdiri Xəyalə Nuriyeva yapon incəsənətində özünəməxsus yer tutan sümükdən hazırlanmış dekorativ tətbiqi sənət əsərlərinə aid sənətkarlıq nümunələrindən bəhs edib. Bildirib ki, dekorativ sənətin bütün növlərində ustalıq nümayiş etdirmiş yaponlar sümük üzərində işləmə sənətində də yaradıcı və əsrarəngiz əşyalar işləyib hazırlamışlar. Bu əl işləri insanı öz gözəlliyi və zərifliyi ilə heyran edir. Yapon ustalarının sümükdən oyma üsulu ilə hazırladıqları - qadınların zərif əşyası olan yelpiklər, samurayların qılıncı sayılan "Katanalar", uzun ömürlü müdrik insan fiquru və başqa heykəlciklər daşıdıqları məna ilə özünəməxsus fərqlilik yaradır.

Qeyd edək ki, yapon sənətkarlarının yaratdıqları möhtəşəm nümunələr dünyanın demək olar ki, bütün muzeylərində və şəxsi kolleksiyalarında qorunub saxlanılır. Azərbaycan Milli İncəsənət Muzeyinin kolleksiyasında olan sümükdən hazırlanmış yelpiklər yapon incəsənətini sevənlərin diqqətini xüsusilə cəlb edir. XIX əsrə aid olan bu qadın əşyası işləmə texnikasına və tarixi əhəmiyyətinə görə digər sənət nümunələrindən seçilir.

*Fidan SALMANOVA*
*XQ*

Sağlamlıq

## Üzüm və əlavə 5 il ömür

**Müntəzəm olaraq üzüm yeyilməsi ömrü 5 il uzada bilir. Braziliyalı təbii vasitələrlə müalicə mütəxəssisləri üzümün ömrü necə uzada biləcəyinə aid apardıqları tədqiqatların nəticəsini açıqlayıblar.**



Onlar jurnalistlərin bu barədə suallarını belə cavablandırıblar:

– Üzümdə olan kimyəvi maddələr zərərli xolesterini salır, bağırsaqda faydalı mikrobiomu artırır.

Üzüm giləmeyvədir, onda olan antioksidantlar iltihabı azaldır, ürək-damar xəstəliklərinin qarşısını alır.

Bundan başqa üzümün çox istifadəsi beyinə də yaxşı təsir edir.

Yaşlılıq xəstəlikləri hesab edilən alzheymer və demensiyadan qoruyur.

Siçanlar üzərində təcrübə göstərib ki, üzüm onların sağlamlığını artırıb və ömürlərini 3–5 il uzadıb.

Hazırda üzümün hər növünün bol olan vaxtıdır. Buna görə də mütəxəssislər bacardıqca bol üzüm yeməyi tövsiyə edirlər.

*Z.HÜSEYNLİ*
*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4001
SİFARİŞ 2658
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır 00:00